





# HEYDƏR ƏLİYEV

## DÜNYANIN GÖZÜ İLƏ

Ə 64(2A)
Ə 64

228804

# HEYDƏR ƏLİYEV
## DÜNYANIN GÖZÜ İLƏ

M. F. Axundov adına
Azərbaycan Dövlət
KİTABXANASI

«TƏHSİL» NƏŞRİYYATI
BAKI — 2003

84.2 Az
H 39

Buraxılışa məsul
**Bəxtiyar Sadıqov**

Toplayıb tərtib edənlər
**Elşad Mirələm, Rüstəm Qaraxanlı**

Redaktoru
**Təranə Tofiq qızı**
*filologiya elmləri namizədi*

Fotolar **Rafiq Bağırovundur**

**H39** Heydər Əliyev dünyanın gözü ilə. Bakı, «Təhsil», 2003, 148 səh.

Dünyanın ən böyük siyasi xadimlərindən biri, Azərbaycanın müstəqillik tarixində müstəsna rol oynamış cənab **Heydər Əliyevin** siyasi fəaliyyəti hər zaman diqqət mərkəzində olmuşdur. Dünyanın məşhur siyasi xadimləri ona çox yüksək qiymət verərək, haqqında olduqca müsbət fikirlər söyləmişlər. Bu kitabda həmin fikirlərin bir hissəsi, eyni zamanda H.Əliyevə həsr olunmuş bir neçə məqalə öz əksini tapmışdır.

Kitab Heydər Əliyev irsini öyrənənlər üçün dəyərli vəsaitdir.

H $\frac{4502020000}{053}$ 2003

84.2 Az

© «Təhsil», 2003



## *Ön söz əvəzi*

### TALEYİ MİLYONLARIN TALEYİNƏ ÇEVRİLƏN İNSAN

*Tarixi şəxsiyyət yaratmasa da, qüdrəti və fəaliyyəti ilə hadisələrin gedişatına güclü təsir göstərən, inkişafın irəliyə doğru hərəkətini sürətləndirən, taleyüklü məqamlara müəyyən «təshihlər» verməyi bacaran qeyri-adi insanlar da olur. Makedoniyalı İsgəndər, Napoleon, Ruzvelt, Çörçill, Mustafa Kamal Atatürk... və hələ sağlığında əfsanəyə çevrilən möhtərəm Heydər Əliyev! Bu insanların həyat və fəaliyyətləri, əməl və mübarizələri mənsub olduqları xalqın tarixi və taleyi ilə o qədər qaynayıb-qarışıb ki, onlardan söhbət açarkən əslində xalqın tarixindən danışmış oluruq! Yaxud da əksinə, mənsub olduqları ölkələrin keşməkeşli günlərindən bəhs edərkən onların xidmət və fəaliyyətlərini xatırlamamaq imkansızdır. Nədir cənab Heydər Əliyevi bu qədər qüdrətli, yenilməz və xalqın sevimlisi edən?! İlk baxışdan sadə görünsə də, bütövlükdə böyük elmi araşdırmalar və jurnalist təhqiqatı tələb edən bu sualı cavablandırmaq o qədər də asan deyil! Lakin XX əsr Azərbaycanın ən çətin və mürəkkəb dövründə ona rəhbərlik edən, yüzillik ərzində ikinci dəfə qazanılan dövlət müstəqilliyini əbədiliyə və dönməzliyə çevirən, üstəlik, ölkəmizin XXI əsrdəki düzgün inkişaf istiqamətini müəyyənləşdirən və onun möhkəm təməlini qoyan bu dahi şəxsiyyətin böyük ömrünün bəzi məqamlarından bəhs etmək istəyirik.*

*Heç kəs anadan siyasətçi doğulmur! Amma cənab Heydər Əliyev böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin çözülməsində həlledici sözünü deyə bilən nadir siyasətçilərdəndir! Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncə görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdir. Əgər məşhur müqayisədən istifadə edərək siyasəti şahmata bənzətsək, Heydər Əliyevin bu sahədəki qeyri-adiliyinin şahidi olarıq. Ən məşhur qrossmeysterlər şahmat taxtası arxasında əyləşdikdə yalnız beş-altı gedişi irəlicədən görürlər. Heydər Əliyev isə siyasət şahmatında bü-*

tün gedişləri qabaqcadan bilir, hələ birinci gediş zamanı sonuncu gedişin haçan, nə sayaq baş verəcəyini dəqiq təyin edir! Fenomen şəxsiyyət olmaqla cənab Heydər Əliyevdə tükənməz enerji və işgüzarlıq qabiliyyəti vardır. O, bir sıra tanınmış siyasətçilərin illərlə görə bilmədiyi işi bir neçə gündə həyata keçirməyə qabildir. Yorulmaq və dayanmaq nə olduğunu bilməyən bu qeyri-adi insan sutkanın 18-20 saatını dövlət işlərinə sərf edir. Dünyada hər kəsə qismət olmayan iti hafizəsi var, hətta çox zaman xalq arasında ona məhəbbətlə «kompüter yaddaş sahibi» deyirlər.

Xalqın arzu və tələbi ilə ikinci dəfə respublika rəhbərliyinə qayıdan, Azərbaycanı vətəndaş müharibəsinin alovlarından, kiçik xanlıqlara parçalanma və bir dövlət kimi məhvolma təhlükəsindən xilas edən Heydər Əliyevin son dövrdə əfsanələşmiş siyasi obrazının xarakterik cizgiləri hansılardır? Onun siyasi portretinin bəzi çalarlarına diqqət yetirək.

Heydər Əliyev xalqın böyük sevgisini qazanmış siyasətçidir. Ümumxalq məhəbbətinin ürəklərin dərin qatlarına işləmiş köklərindən biri haqda ayrıca danışmaq istərdik. Bu da xalqın taleyi ilə onun şəxsi taleyinin sıx və qırılmaz tellərlə bağlanmasıdır. Cənab Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başladığı ilk günlərdən bu qoşa tale bir ürəyin nəbzi kimi eyni ritmdə çırpınmış, sevincli və kədərli, ümidli və təhlükəli anlar birlikdə yaşanmışdır! 1969-cu ilə qədər Azərbaycan on beş «qardaş respublika»dan ən «kiçiyi», bu çoxluq içərisində tanınıb seçilməyəni, adı anılmayanı idi. Hər şeyin vahid mərkəzdən idarə olunduğu, bütün maddi və mənəvi bölgülərin bir əldən paylandığı zamanda belə bir vəziyyət bütün münasibətlərdə öz əksini və təsirini, şübhəsiz ki, tapırdı. Heç kim tərəfindən tanınmadığı bir vaxtda gərgin fəaliyyətə başlayan, elə ilk günlərdən Azərbaycan xalqının bütün imkanlarını, qurub-yaratma potensialını və işgüzarlıq qabiliyyətini hərəkətə gətirərək canlı, ahəngdar və saat kimi dəqiq mexanizm halına salan möhtərəm Heydər Əliyev respublikamızın güclü yüksəlişinə, səsinin ucadan eşidilib adının hörmətlə çəkilməsinə nail oldu. Onun yorulmaz və məqsədyönlü fəaliyyəti nəticəsində ölkəmizin bütün ərazisi başdan-başa quruculuq meydanına çevrilmişdi. Böyük təşkilatçılıq məharətindən və şəxsi nüfuzundan xalqın mənafeyi naminə istifadə edən cənab Heydər Əliyev tarixən qısa müddətdə İttifaq rəhbərliyinin diqqətini Azərbaycana yönəltməyə, mərkəzi büdcədən respublikamıza xeyli vəsait yönəltməyə nail oldu. Hərdən rəqəmsiz ötüşmək mümkün olmur. Odur ki, konkret faktlara müraciət edirik. Möhtərəm Heydər Əliyevin birinci dəfə Azərbaycana rəhbərlik etdiyi illər təkcə sənayedə və kənd təsərrüfatında deyil, bütünlükdə xalqın güzəranında və məişətində də görünməmiş yüksəliş, əsaslı dəyişikliklər dövrü olmuşdur. 1970–1982-ci illərdə respublikada 250 yeni müəssisə, istehsalat və sex tikilmişdir. Neftayırma sənayesi müəssisələri tamamilə



yenidən qurulmuş, iri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi zavodları inşa edilmişdir. Nəticədə göstərilən müddətdə Azərbaycanda sənaye istehsalı 2,7 dəfə artmışdır. On üç ildə o zamankı qiymətlərlə 101,5 milyard manatlıq (əvvəlki 50 ildə olduğu qədər) məhsul istehsal edilmişdir. Həm də xalq istehlakı malları istehsalı 3 dəfə, əmək məhsuldarlığı 2 dəfədən çox artmış, fond verimi 25 faiz çoxalmışdır.

1970–1982-ci illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,6 dəfə çoxalmış, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmişdir. 1970-ci illə müqayisədə 1985-ci ildə taxıl istehsalı 1,8 dəfə, pambıq, tərəvəz və meyvə istehsalı 2 dəfədən çox, çay yarpağı istehsalı 3,2 dəfə, üzüm istehsalı 5 dəfədən çox artmışdır. Əsaslı dövlət vəsaiti qoyuluşunun 1 manat artımı hesabına əlavə olaraq 3,5 manatlıq məhsul alınmışdır.

1970-ci ildən başlayaraq Azərbaycanın sənayesi və kənd təsərrüfatı orta İttifaq göstəricilərini qabaqlayıb sürətlə inkişaf etmişdir. İqtisadi inkişafın əsas ümumi göstəricisi – milli gəlir də eyni sürətlə artmış, 1970–1985-ci illərdə 2,6 dəfə çoxalmış, adambaşına milli gəlir isə 2 dəfədən də çox artmışdır.

Heydər Əliyev şəxsi nüfuzu hesabına Azərbaycanda üzümçülüyün inkişafı ilə bağlı xüsusi qərarın qəbul edilməsinə və bunun nəticəsində respublikaya böyük məbləğdə vəsait qoyuluşuna nail olmuşdu. Həmin qərarın icrası dövründə ölkəmizdə min hektarlarla yeni üzümlüklər salınmış, emal müəssisələri yaradılmış, müasir tipli qəsəbələr inşa edilmişdir. Nəticədə üzüm istehsalı 1970-ci ildəki 350 min tondan 1982-ci ildə 1 milyon 800 min tona qalxmışdı. Təəssüf ki, sonrakı illərdə bağışlanılmaz səhvə yol verildi. Sərxoşluğa və alkoqolizmə qarşı mübarizə kampaniyasının gedişində 70 min hektardan çox bar verən üzümlük məhv edildi, dövlətə 600 milyon manatlıq ziyan vuruldu. O dövrdə xalqın maddi gəlirinin artması, rifahının yaxşılaşması sayəsində ümumi yaşayış səviyyəsi də xeyli yüksəlmişdi. Respublikamızın paytaxtı Bakı şəhərində çoxmərtəbəli binalardan ibarət neçə-neçə mikrorayonlar və yaşayış massivləri, parklar salınmış, milli arxitekturanın fəxri sayılan binalar ucaldılmış, yaraşıqlı meydanlar, küçələr, yollar, körpülər qurulmuşdu. Azərbaycan kəndinin sosial-mədəni siması da büsbütün dəyişmişdi. Alçaq, kərpic və palçıqlı komalar öz yerini ağ daşdan tikilmiş ikimərtəbəli, yaraşıqlı evlərə vermiş, kəndlərdə və qəsəbələrdə bir çox sosial-mədəni obyektlər tikilmişdi. Kəndlinin məişətində də böyük dəyişiklik baş vermişdi. Hər bir evdə radio, televizor, müasir mebel və digər məişət əşyaları görünmüş, kəndlinin məişəti şəhərin həyat tərzinə yaxınlaşmağa başlamışdı. On üç il ərzində ölkədə 22 milyon kvadratmetrlik, başqa sözlə, əvvəlki 50 ildə olduğundan 60 faiz çox mənzil tikilmişdi.

1970-ci ilədək Bakı çox zəif sürətlə inkişaf edirdi. 1969-cu ildə cənab Heydər Əliyev respublikanın birinci şəxsi təyin olunduqdan sonra bu qədim

şəhərin «ömrünün» ikinci dövrü başlandı. «Gülüstan» və «Respublika» saray-
ları, Prezident sarayı və Milli Məclisin binası, «Moskva», «Azərbaycan», «Ab-
şeron» mehmanxanaları, «Olimpiya» idman kompleksi və Əl oyunları idman
sarayı. Yeni Əhmədli və Günəşli yaşayış massivləri, neçə-neçə mikrorayonlar
həmin dövrün yadigarlarıdır. Bir-birinin ardınca çoxmərtəbəli yaşayış binala-
rı, metro stansiyaları tikilir. N.Nərimanova, M.Əzizbəyova, C.Cabbarlıya, Nə-
simiyə, H.Cavidə və xalqımızın digər görkəmli oğullarına heykəllər qoyulur,
ədəbiyyat və incəsənət xadimlərinə yüksək fəxri adlar və dövlət mükafatları
verilir, Şuşada M.P.Vaqifin məqbərəsi ucaldılırdı. Bakı, habelə respublikanın
bütün şəhər və qəsəbələri qaynar tikinti meydanını xatırladırdı.

Cənab Heydər Əliyev SSRİ-nin rəhbərlərindən biri kimi Moskvaya işlə-
məyə dəvət edildikdən sonra Azərbaycanda tikib-qurmaq həvəsi sanki həmişə-
lik söndü. Ondan sonra Azərbaycana başçılıq edənlər nə isə tikmək əvəzinə,
Heydər Əliyevin qoyub getdiyi binaların «təyinatını» dəyişməklə məşğul olur-
dular. Çox maraqlı iki fakt. Heydər Əliyev Moskvada işlədiyi dövrdə ölkə pay-
taxtında metronun bir stansiyası belə istismara buraxılmamışdı. Hazırda pay-
taxtın rəmzlərindən birinə çevrilən teleqüllə də onun qoyub getdiyi kimi qal-
mış, bütün iqtidarlar tezliklə istifadəyə veriləcəyini vəd etsələr də, yalnız hə-
min obyektin inşasına başlayan Heydər Əliyev Azərbaycana döndükdən sonra
nəhəng teleqüllənin «baxtı» açılmışdı. Hazırda metronun yeni stansiyaların-
dan biri fəaliyyətə başlamış, digərlərinin istifadəyə verilməsi üçün də vəsait
ayrılmış, inşaat işləri sürətləndirilmişdir.

Böyük türk oğlu Heydər Əliyevin Kremldə işləməyə dəvət olunmasını
dünya təəccüb və heyrətlə qarşıladı. Sosializm dövründə üzdə «xalqlar dostlu-
ğu və proletar beynəlmiləlçiliyi prinsipi»nin mövcudluğu tez-tez təkrarlansa
da, dərinlikdə başqa millətdən olanların SSRİ kimi superdövlətdə rəhbər və-
zifəyə irəli çəkilməsi görünməmiş və qeyri-adi hadisə idi. Azərbaycanda isə
buna sevinənlər də çox oldu, Heydər Əliyevin kölgəsini qılınclamağa başlaya-
raq arxasınca imzasız məktublar təşkil edənlər də tapıldı. Amma çox tezliklə
hamı başa düşdü ki, bu güclü şəxsiyyətin respublikadan getməsi, sonradan isə
düşmənlərin əli ilə böyük siyasətdən uzaqlaşdırılması Azərbaycan xalqının
müsibətli günlərinin başlanğıcını qoydu. Respublikada vəziyyət aybaay pislə-
şir, düşmənlər üstümüzə ayaq alırdı. Yenidənqurma adlı oyun, onun ardınca
isə Qarabağ problemi meydana atıldı, ölkəmiz uzun və dağıdıcı müharibəyə
cəlb edildi. Heydər Əliyevin çörəyi ilə böyüyüb onun sayəsində yüksək vəzifə
tutanların bir qismi nankor çıxdı. Xalqının ağır vəziyyətdə olduğunu bilib Və-
tənə qayıdan, ona öz köməyini təklif edən bu müdrik insana öz əlləri ilə tikib
qurduğu Bakıda yaşamağa adi bir mənzil belə vermədilər. Əksinə, nüfuzundan
və ona olan ümumxalq məhəbbətindən qorxaraq təqib etməyə, fiziki cəhətdən



«Bir millət iki dövlət» - qarşılıqlı əlaqələrin zəruriliyini ifadə edən
bu prinsipin əsasını prezident Heydər Əliyevlə prezident Süleyman Dəmirəl qoymuşlar.



Azərbaycan Rusiya ilə yalnız yaxın qonşu yox, həm də tərəfdaşdır. Rusiyanın ilk prezidenti Boris Yeltsinlə.



ABŞ Azərbaycanın strateji müttəfiqidir.




Heydər Əliyev Azərbaycanı bütün dünyaya tanıtdı.



aradan götürmək üçün cəhdlərə başladılar. Bu cür nadanlıqdan məyus olan möhtərəm Heydər Əliyev Naxçıvana qayıdaraq son dərəcə ağır günlərini yaşayan muxtar respublikanın əhalisinə arxa və kömək durdu. Beləliklə, həyatının ən çətin dövrünü yaşamaqla hər şeyə yenidən başlamalı oldu. Yalnız iradəsi poladdan, əzmi və qətiyyəti granitdən yoğrulmuşlar belə çətinliyə və məhrumiyyətlərə dözə bilərdilər. Həmin dövr bütövlükdə Azərbaycan xalqı üçün də faciəli və fəlakətli keçirdi. Maymaq, qətiyyətsiz və səriştəsiz adamların respublikaya başçılıq etməsi, AXC – Müsavat cütlüyünün naşı və təcrübəsiz iqtidarı dövründə xaos, anarxiya və qanunsuzluğun baş alıb getməsi, arasıkəsilməz hakimiyyət davası nəticəsində Ermənistan – Azərbaycan müharibəsində baş verən acınacaqlı məğlubiyyət və xaricdən dəstəklənən separatçı qüvvələrin Azərbaycanı kiçik xanlıqlara parçalama cəhdləri ölkəni labüd fəlakət həddinə çatdırmışdı. Ümidsiz vəziyyətə düşən insanlar yeməyə çörək belə tapmırdılar. Şəxsi mənafelərini güdən «bəy»lər isə çörək adı ilə xalqa jmıx yedizdirirdilər. Hamı çox gözəl anlayırdı ki, ölkəni bu vəziyyətdən yalnız Heydər Əliyev zəkası qurtarmağa qadirdir. Odur ki, bütün nəzərlər Naxçıvana çevrildi, xalq özünün sevimli və sınanmış oğlunu yenidən respublika rəhbərliyinə dəvət etdi. Heydər Əliyevin qayıdışı ilə Azərbaycan dövləti də, kövrək müstəqilliyimiz də fəlakətlər girdabından xilas edildi.

Heydər Əliyev daim xalqa, onun dəstəyinə arxalanan siyasətçidir. Qəribədir, Heydər Əliyevi istəməyənlər, ona bədxahlıq edənlər heç zaman açıq, mərdi-mərdanə mübarizə aparmayıblar. Küncdə-bucaqda pıçıldaşmağı, arxadan zərbə endirməyi üstün tutublar. Çünki qarşılarındakının onlardan neçə boy yüksəkdə dayandığını gözəl anlayıblar. Bəzən isə özlərini həddindən ziyadə güclü saydıqlarından hücuma keçmiş, onu fiziki cəhətdən aradan götürmək niyyətinə düşmüşlər. İlk dəfə Naxçıvanda olarkən AXC tərəfindən belə bir cəhd göstərildi, sonra S.Hüseynov Bakıda bu cür xülyaya düşdü. Hər iki halda Heydər Əliyev qeyri-adi gedişlə, o vaxtadək görünməmiş bir üsulla hücuma keçənləri tam məğlubiyyətə uğratdı. Özü də qan tökmədən! Onun bir çağırışı ilə xalq ayağa qalxdı, qocalı-cavanlı, qadınlı-kişili hamı sevimli rəhbərini müdafiə etmək üçün onun yanına gələrək dəstəyini bildirdi. Xalqın sevgi və qəzəbini görənlər əvvəlcə çaşdılar, sonra qaçıb aradan çıxdılar, ən nəhayət, qanuna təslim oldular!

Heydər Əliyev heç bir təhlükədən və heç nədən qorxmayan siyasətçidir. Dəfələrlə onu təqib etmiş, ona qarşı sui-qəsd əməlləri törətməyə çalışmış, tutduğu yoldan çəkindirmək istəmişlər. Əvvəlkiləri saymasaq, ikinci dəfə ölkə rəhbərliyinə qayıtdıqdan sonra üç dəfə Heydər Əliyevə qarşı hazırlanaraq planlaşdırılan sui-qəsd cəhdi puça çıxmışdır. AXC-nin Naxçıvan şöbəsinin üzvləri tərəfindən öyrədilib silahlandırılaraq Bakıya göndərilən Türkiyə vətəndaşı Milli Məclisin qarşısında pusquda durarkən yaxalanmış, onu səfərdən

qaytaran təyyarəni raketlə vurmaq cəhdi alınmamış, dinamit qoyulan körpü
nədənsə partladılmamışdır. Bütün bunlar təsadüfdən yox, bəlkə də Tanrının
bu böyük insanı xalq üçün qoruyub saxladığından baş tutmamışdır. «Mən öm-
rümün yerdə qalan hissəsini də xalqıma bağışlayıram» – deyən cənab Heydər
Əliyev hətta ölüm təhlükəsi gördükdə belə geriyə çəkilməmiş, heç zaman «pos-
tunu» tərk etməmişdir!

Heydər Əliyev cəsarətli və risq etməyi sevən siyasətçidir. Xəzərdə zən-
gin karbohidrogen ehtiyatları olduğunu respublikaya rəhbərlik edənlərin ha-
mısı bilirdi. Ondan birlikdə istifadə üçün xarici neft şirkətləri ilə danışıqlara
girmək cəhdi göstərənlər də olmuşdu. Lakin heç kəs bu ağır yükü qaldıra
bilməmişdi. Buna ciddi şəkildə mane olmağa çalışan güclü dövlətlər və qüvvə-
lər də vardı. Heydər Əliyev riskə gedərək çox cəsarətli addım atdı, zərgər də-
qiqliyi ilə işlənmiş plan hazırlayaraq 20 sentyabr 1994-cü ildə «Əsrin müqa-
viləsi»nin imzalanmasına nail oldu. Sonradan alçaqcasına törədilən terror
əməlləri isə artıq gecikmişdi. Risq və cəsarət hər şeyə üstün gəldi.

Heydər Əliyev cari məsələləri dövlətin qarşısında duran böyük vəzifə-
lərlə əlaqələndirməyi bacaran siyasətçidir. Onun tərəfindən böyük müdriklik
və uzaqgörənliklə hazırlanan müstəqil Azərbaycan dövlətinin yeni neft strate-
giyası deyilənə ayanı misaldır. Bu gün dünya bazarında ən çox ehtiyac duyu-
lan məhsullardan biri neft və təbii qazdır. Xəzər neftini ikinci dəfə dünya üçün
kəşf edən Heydər Əliyev bununla iqtisadiyyatı pozulub-dağılan, yenicə müstə-
qillik qazanan dövlətin qarşısında dayanmış bir neçə vəzifəni eyni vaxtda həll
etdi. Qısa müddətdə ölkəyə külli miqdarda xarici sərmayə qoyuldu, neft səna-
yesi iqtisadiyyatın digər sahələrinin dirçəldilməsi üçün lokomotiv rolunu oy-
nadı, Azərbaycan iqtisadiyyatı böyük sürətlə dünya iqtisadiyyatına inteqrasiya
olundu, gələcək nəsillərin firavan həyatı da təmin edildi. Yeni neft strategiya-
sı dünyanın aparıcı dövlətlərinin maraqlarının ölkəmizə cəmləndirilməsi
funksiyasını da yerinə yetirdi.

Başqa bir məqam. 11 sentyabr 2001-ci ildə ABŞ-da dünyanı lərzəyə gə-
tirən qanlı terror aksiyası baş verən kimi dərhal düzgün və zəruri qərar qəbul
etdi. Heydər Əliyev bu addımı pislədi, terrorizmin bütün dünyanı hədələyən
dəhşətli bəla olduğunu açıqladı. Azərbaycan prezidenti öz bəyanatında Azər-
baycanın Amerikaya dəstək verdiyi, onunla bir alyansda olduğunu, terrorizmin
kökünün kəsilməsində hər cür kömək göstərəcəyini bildirdi. Ölkəmizin bu
mövqeyi ABŞ administrasiyası və rəhbərliyi tərəfindən yüksək qiymətləndiril-
di və az sonra bədnam 907-ci düzəlişin dayandırılmasına dayaq oldu.

İraqda baş vermiş məlum hadisələr zamanı cənab Heydər Əliyevin nü-
mayiş etdirdiyi prinsipial mövqe Azərbaycana ABŞ-la strateji tərəfdaşlıq əla-
qələrini bir daha möhkəmləndirmək imkanı qazandırdı.



Heydər Əliyev mübariz və möhkəm iradəli siyasətçidir. Dayanmaq, ruh-
dan düşmək onun təbiətinə yaddır! İndiyədək çox nadir dövlət rəhbərlərinə si-
yasətin zirvəsinə ucalıb aşağı endikdən sonra yenidən yuxarı qalxmaq qismət
olub. Mərdi-mərdanə mübarizə aparmağı bacaran və sevən Heydər Əliyev so-
nadək ayaqda qalmağa müvəffəq olur. Həm də bu zaman daha çox xalqın ta-
leyini düşündüyündən yenilməzlik və məğlubedilməzlik rəmzinə çevrilir.

Heydər Əliyev həyatın bütün sahələrinə dair yüksək və ensiklopedik bi-
liyə malik siyasətçidir. O, dəfələrlə bu keyfiyyəti ilə hamını heyrətdə qoyub.
Alimlər, kənd təsərrüfatı mütəxəssisləri, neftçilər, inşaatçılar, ədəbiyyat və in-
cəsənət xadimləri, müxtəlif sənət sahibləri ilə söhbəti zamanı sahəyə dair zən-
gin biliyi, problemlərə yaxından bələdliyi, indiyə qədər keçilən yol, qarşıda
duran vəzifələr, çətinlikləri aradan qaldırmaq üçün görüləsi işlər və s. barə-
də o qədər dərindən və peşəkarlıqla danışır ki, hər sahənin adamı onu «özü-
nünkü» hesab edir, hörmət və ehtiramla dinləyərək dedikləri ilə razılaşır. Ru-
siyanın bir sıra tanınmış siyasi və dövlət xadimləri ondakı bu məharətdən –
SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi tapşırılan bütün sahələri
idarə edib ayağa qaldırmaq üçün qısa zamanda hər şeyi öyrənib işə dərindən
bələd olması bacarığından vurğunluqla danışırlar.

Heydər Əliyev insana və ziyalıya qiymət verə bilən siyasətçidir. O, daim
respublikanın tanınmış ziyalıları, görkəmli sənət adamları ilə görüşüb dostluq
etmiş, əməklərini qiymətləndirmiş, maddi və mənəvi cəhətdən dayaq durmuş-
dur (Təəssüf ki, dönük çıxanlar da olmuşdur). Ehtiyacı olanlar mənzil almış,
xarici ölkələrə müalicəyə göndərilmiş, kömək üçün müraciət edənlər diqqət-
dən kənarda qalmamışlar. Hətta vətəndən kənarda yaşayan Azərbaycan öv-
ladları da bu böyük günəşin hərarətindən qızına bilirlər.

Heydər Əliyev gəncləri sevən, onlara arxalanan siyasətçidir. O, daima
gənclərlə görüşməyə, onların problem və qayğılarını öyrənib kömək etməyə
vaxt tapır. Hələ Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövrdə hər il dövlət
hesabına yüzlərlə azərbaycanlı gənci SSRİ-nin müxtəlif şəhərlərinə ən müxtə-
lif ixtisaslar üzrə təhsil almağa göndərmişdir. Bu gün də onun verdiyi çörəyi
yeyənlər həmin anları minnətdarlıqla xatırlayırlar. Azərbaycan müstəqillik
qazandıqdan sonra vaxtilə uzaqgörənliklə yetişdirilən həmin kadrlar çox kara
gəldilər. Hərbi mütəxəssislərin hazırlanması da cənab Heydər Əliyevin daim
diqqət mərkəzində saxladığı məsələlərdəndir. İdmanın inkişafına böyük fikir
verən dövlət rəhbəri bu vacib sahəni Azərbaycan xalqının sonsuz məhəbbətlə
sevərək böyük ümidlər bəslədiyi millət vəkili İlham Əliyevə etibar etməklə əs-
lində qısa müddətdə görünməmiş dönüş və yüksəlişin baş verməsini təmin et-
mişdir. Məhz cənab İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü tədbirlər

*nəticəsində Azərbaycan idmanı böyük sürətlə inkişaf edir, inamla dünya miq-
yasına çıxır, öz parlaq qələbələri ilə ölkəmizi tanıdır.*

*Heydər Əliyev yüksək diplomatik qabiliyyətə, görüş və danışıqları istə-
diyi məcrada aparmaq istedadına malik siyasətçidir. Onun üçün çətin müsa-
hib, istədiyi vaxt «fırlamağı» bacarmadığı diplomat yoxdur. Söhbətə başla-
maq, hiss olunmadan bir mövzudan digərinə keçmək, yerinə düşən incə bir za-
rafat, şirin yumorla vəziyyəti dəyişmək, gözlənilməz manevrlərlə öz mövqeyi-
ni sonadək müdafiə edib yeritmək məharətində yəqin ki, ona çatan siyasətçi
tapılmaz. Hər dəfə də hamı onunla görüşdən sonsuz dərəcədə məmnun qaldı-
ğını gizlətmir.*

*Heydər Əliyev jurnalistlərlə dostluq etməyi bacaran siyasətçidir. Bura-
da paradoksal vəziyyət mövcuddur. Bəlkə də etdiyi bütün xeyirxahlıqlara bax-
mayaraq, jurnalistlərin Heydər Əliyev qədər «hücum» etdiyi ikinci insan ol-
mayıb. O, çox böyük səbir və təmkinlə bütün bunlara davam gətirib, heç za-
man onlardan yan qaçmayıb, bir suallarını belə cavabsız qoymayıb, yeri dü-
şəndə «jurnalistika dərsi» keçib. Azərbaycanda müstəqil, demokratik və azad
mətbuatın yaranmasında şəksiz xidmətləri olan möhtərəm Heydər Əliyev bu
gün də milli mətbuatımızın inkişafı, onun maddi təminatı ilə bağlı məsələlərin
həlli ilə yaxından məşğul olur. Müxalifət nümayəndələri tərəfindən «Jurna-
listlərin dostu» adının verilməsi onun bu sahədə gördüyü böyük işlərin mənti-
qi yekunudur!*

*Heydər Əliyev xalqını sevən, gecə-gündüz onun bu günü və gələcəyi ba-
rədə düşünən, həm də bu yöndə konkret əməli iş görən siyasətçidir. Tanrı xal-
qımıza Heydər Əliyev kimi müdrik və uzaqgörən siyasi xadim bəxş etməsəydi,
yəqin ki, indiki Azərbaycan da olmazdı. Bu gün Heydər Əliyev dayanmaq və
yorulmaq bilmədən, tükənməz enerji ilə işləyir. Müstəqil Azərbaycan da gün-
bəgün inkişaf edir, dünya birliyinin bərabərhüquqlu üzvləri sırasında inamla
yerini tutur. Heydər Əliyev tərəfindən neçə illər öncə bünövrəsi qoyulan işlə-
rin bəhrəsi hələ irəlidədir. O, təkcə bu günümüz barədə düşünüb-daşınmır,
gələcək nəsillərin xoş və firavan həyatlarının qayğısına da qalır. Güclü intui-
siyası və zəngin təcrübəsi, dərhal və səhvsiz qərar qəbul etməsi vaxtı «qı-
saltmağa», məqsədə daha tez çatmağa kömək edir. Bu mənada, zamana təsir
göstərməyi də bacarır. Hazırda ölkə qarşısında duran mürəkkəb problemlərin
həlli də yalnız onun qüdrəti sayəsində mümkündür. Bunu hamı çox gözəl an-
layır. Odur ki, bu böyük insana – taleyi Azərbaycan xalqının taleyinə qovuşan
İNSANA hər zaman cansağlığı və xoşbəxtlik, səmərəli fəaliyyət arzulayır. Elə
bir insana ki, indi dünyanın istənilən siyasi məkanında onun böyük siyasi fiqur
olması faktı təkzibolunmaz həqiqət kimi qəbul edilməkdədir. Oxucuların diq-
qətinə təqdim edilən bu kitab müasir dünya siyasətində Azərbaycan preziden-*



*ti cənab Heydər Əliyev haqqında fikirlərin, rəylərin, mülahizələrin məcmusu-
nu özündə ehtiva edir. Bu kitab ona görə qiymətlidir ki, beynəlxalq miqyasda
tanınmış on məşhur dövlət adamlarının, ictimai və siyasi xadimlərin, diplo-
matların, iqtisadçıların Heydər Əliyevə aid təsəvvürlərinin toplusundan iba-
rətdir. Biz Heydər Əliyevin idarə etdiyi, ayağa qaldırdığı, ucaltdığı Azərbay-
canda yaşayırıq. Onun həyat və fəaliyyətini lap yaxından, gözdolusu izləyə bi-
lirik. Amma tarixi şəxsiyyətlərin xidmətlərini daha dəqiq qiymətləndirmək
üçün, onlara kənardan və bir qədər uzaqdan baxmaq daha effektli üsuldur.
Möhtərəm oxucu, biz səni Heydər Əliyevə Zbiqnev Bjezinskinin, Boris Yeltsi-
nin, Corc Buşun, Vladimir Putinin, Jak Şirakın, Süleyman Dəmirəlin, Bənəzir
Bhüttonun və onlarla digər məşhur siyasət nəhənglərinin gözü ilə baxmağa,
bu qeyri-adi insan haqqında söylədiklərini bir daha nəzərdən keçirməyə dəvət
edirik.*

**BƏXTİYAR SADIQOV**
**Milli məclisin deputatı**

Biz əminik ki, sizin rəhbərliyiniz altında Azərbaycanın iqtisadi və siyasi inkişafı uğurlu olacaq və ölkəniz dünya dövlətləri içərisində layiqli yer tutacaqdır.

**Con BRAUN,**
***bp şirkətinin prezidenti***

* * *

İndiyədək çoxları fəxr etmişlər ki, prezident vəzifəsini tutmuşlar. Bu gün isə prezident vəzifəsi fəxr etməlidir ki, onu dünya miqyasında tanınan Heydər Əliyev kimi böyük şəxsiyyət tutur.

Azərbaycan üçün böyük səadətdir ki, onun prezidenti zamanın keşməkeşlərindən çıxmış müdrik və adil şəxsiyyət, fədakar və sədaqətli bir insandır. Elə bir prezidentdir ki, öyrənə-öyrənə idarə etməyəcək, idarə edə-edə milləti öyrədəcəkdir; dövlətçilik təcrübəsi toplamayacaq, əksinə, özünün zəngin bilik və bacarığını xalqın rifahı üçün sərf edəcəkdir.

**Hacı Allahşükür PAŞAZADƏ,**
***Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri***

* * *

Möhkəm əminəm ki, Azərbaycan Respublikası zati-alinizin müdrik rəhbərliyi və zəngin təcrübəsi, xalqın geniş müdafiəsi sayəsində inkişaf və tərəqqi yolunda inamla addımlayacaq.

**Əkbər HAŞİMİ-RƏFSƏNCANİ,**
***İran İslam Respublikasının keçmiş prezidenti***

* * *

Dost və qardaş Azərbaycanın demokratiya, sülh, birlik və bərabərlik içində inkişafı, yalnız siyasi sahədə deyil, həm də iqtisadi baxımdan tərəqqisi türk xalqının ürəkdən gələn arzusudur. Müstəqil və suveren Azərbaycandan umduğumuz bu müvəffəqiyyəti Heydər Əliyevin müdrik rəhbərliyi altında həyata keçirə biləcəyinə əminəm.

**Tansu ÇİLLƏR,**
***Türkiyənin keçmiş baş naziri***

* * *

Sizin böyük nüfuzunuz və siyasi təcrübəniz Zaqafqaziyada vəziyyətin sabitləşməsinə, başı bəlalar çəkmiş Azərbaycan torpağında çoxdan gözlənilən sülhün bərqərar olmasına kömək edəcəkdir.

**Leonid KRAVÇUK,**
***Ukraynanın keçmiş prezidenti***



* * *

Azərbaycan xalqı qarşısına çıxan çətinlikləri sizin müdrik və uzaqgörən rəhbərliyiniz altında uğurla aradan qaldıracaq, öz milli hüquqlarını qoruyub saxlayacaq, sülhə və tərəqqiyə nail olacaqdır.

**Vasim SƏCCAD,**
***Pakistan İslam Respublikasının keçmiş prezidenti***

* * *

Qardaş Azərbaycan xalqı üçün belə ağır vaxtda respublika rəhbərliyinə gəlməyiniz sizin görkəmli siyasi xadim və dövlət xadimi kimi yüksək nüfuzunuza dəlalət edir.

**Əsgər AKAYEV,**
***Qırğızıstan Respublikasının prezidenti***

* * *

Tatarıstan xalqı Sizi görkəmli dövlət xadimi və ictimai xadim kimi tanıyır və biz ümidvarıq ki, Sizin təcrübə və biliyiniz Azərbaycan xalqına sülhü və dincliyi, vətəndaş həmrəyliyini və milli birliyi, rifahı və iqtisadi tərəqqini təmin edəcəkdir.

**Mintemir ŞAYMİYEV,**
***Tatarıstan Respublikasının prezidenti***

* * *

Respublikamızda Sizi nüfuzlu dövlət xadimi, demokratik dəyişikliklərin tərəfdarı kimi tanıyırlar.

**Məhəmməd MƏHƏMMƏDOV,**
***Dağıstan Respublikası Dövlət Şurasının sədri***

* * *

Sizin müdrikliyiniz, siyasi rəhbər və dövlət başçısı kimi olduqca böyük təcrübəniz, yüksək mənəvi və insani keyfiyyətləriniz Azərbaycan xalqına real sülh və tərəqqi gətirəcəkdir.

**Aslan ABAŞİDZE,**
***Acarıstan Muxtar Respublikasının rəhbəri***

* * *

Sizin ali dövlət vəzifəsinə bütün xalq tərəfindən seçilməyiniz müdrikliyinizin, iradənizin və Azərbaycan xalqı qarşısında xidmətlərinizin yüksək qiymətləndirilməsi deməkdir.

Biz Azərbaycan xalqının Heydər Əliyevə bəslədiyi inama şərikik və Azərbaycanda sabit bazar iqtisadiyyatını yaratmaq məqsədilə işgüzar dünya birliyi ilə sıx əlaqələr yaratmaq işinə sadiq olduğunuzu bilirik.

***Doktor T.M.HAMİLTON,***
*«Penzoyl» şirkətinin keçmiş prezidenti*

* * *

İnanıram ki, Sizin siyasi təcrübəniz, həyatı bilməyiniz qardaş Azərbaycanın mövcud çətinliklərinin aradan qaldırılmasına, inkişafına və tərəqqisinə kömək edəcəkdir.

***Saparmurad NİYAZOV,***
*Türkmənistan Respublikasının prezidenti*

* * *

Azərbaycan xalqı Sizi, son dərəcədə təcrübəli bir siyasətçini öz prezidenti seçməklə müdrik addım atmışdır.

***Jak de LAROZYER,***
*tanınmış ictimai xadim*

* * *

Heydər Əliyev Sovet İttifaqının tarixində uzun illər sovetlər rejiminin, Kremlin zirvəsində oturmuş yeganə türkdür.

***Kamal AKIN***
*Türkiyənin ictimai xadimi*

* * *

Prezident Heydər Əliyevin yeritdiyi siyasət düzgün siyasətdir və öz xalqı üçün düzgün yol açmışdır. Mən əminəm ki, bu yol Azərbaycanın bütün problemlərinin tezliklə həll olunmasına gətirib çıxaracaqdır.

***Əkbər HAŞİMİ-RƏFSƏNCANİ,***
*İran İslam Respublikasının keçmiş prezidenti*

* * *

Hər hansı ölkə müharibəni bitirməyə can atarkən onun böyük şəxsiyyətlərə daha çox ehtiyacı olur. Heydər Əliyev Azərbaycan üçün məhz belə bir şəxsiyyətdir.

***Zoxar RAZ***
*İsrail diplomatı*



**Rusiyanın sabiq baş naziri Viktor Çernomırdin üçün Heydər Əliyevlə danışmaq həmişə maraqlı və yaddaqalan olub.**



**Ukrayna ilə Azərbaycanın münasibətləri strateji tərəfdaşlıq səviyyəsindədir. Ukrayna prezidenti Leonid Kuçma da bunu məhz Heydər Əliyevin zəhmətinin nəticəsi sayır.**



İsrailin keçmiş baş naziri Benyamin Netanyahu ilə Azərbaycan prezidenti Heydər Əliyev hər iki ölkənin qarşılaşdığı problemlərin həll ediləcəyinə əmindirlər.



Pakistan Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biridir. Prezident Pərviz Müşərrəfi Bakıda, prezident sarayında qəbul edərkən.



* * *

Sizin haqqınızda çox eşitmişik, çox oxumuşuq, bilirdik ki, ərəblər və onların azadlıq mübarizəsi ilə bağlı problemləri barəsində sovet siyasətinin müəyyənləşdirilməsində rolunuz sanballı olmuşdur.

***Kamal ŞATİKA,***
***Livan siyasi xadimi***

* * *

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev kifayət qədər güclü şəxsiyyətdir. Düşünürəm ki, o, Qarabağ münaqişəsinin həlli üçün düzgün yol tapacaqdır. Çünki vəziyyəti yaxşı bilir. Odur ki, indi məndə elə ümid yaranıb ki, problem tezliklə aradan qaldırılacaq.

***Eleizer YOTVAT,***
***İsrailin Azərbaycandakı keçmiş səfiri***

226804

* * *

Mən, Azərbaycanı və Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram.

***Nikolay BAYBAKOV,***
***Rusiya – Azərbaycan Dostluq Cəmiyyətinin sədri***

* * *

Cənab Əliyev! Siz canlı əfsanəsiniz.

***Jak DÜRE,***
***fransız sovetoloqu***

* * *

Cənab Əliyev! 1982-ci ildə Sizin Kremlə gəlişinizlə Sovetlər Birliyinin Yaxın Şərqdəki siyasəti kökündən dəyişdi, ona yeni impuls verildi.

***Alan d'ESKAR,***
***fransız politoloqu***

* * *

Siz bütün dünyanın etiraf etdiyi görkəmli lidersiniz.

***Federiko MAYOR,***
***YUNESKO-nun direktoru***

M. F. Axundov adına
Azərbaycan Dövlət
KİTABXANASI

* * *

Hörmətli Heydər Əliyev ilə uzun illər davam edən dostluğumuz Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra daha da genişlənmiş və möhkəmlənmişdir. O, təkcə Azərbaycanın deyil, bütün türk dünyasının yetişdirmiş olduğu ən məşhur dövlət xadimlərindən biridir.

Hörmətli Heydər Əliyevin müxtəlif məsələləri dəqiq duyması və gerçək dəyərli fikirlər söyləməsi yolumuzu işıqlandırmışdır. Azərbaycanın idealına onun ürəkdən bağlı olması öz millətinə necə şövq verirsə, bizə də bir o qədər xoş təsir bağışlayır.

***Süleyman DƏMİRƏL,***
***Türkiyə Respublikasının 9-cu prezidenti***

* * *

Bu gün Azərbaycanın başında siyasi intuisiyası olan, dünya siyasətini çox gözəl bilən, dünyada baş verən və baş verməkdə olan prosesləri, qüvvələr nisbətini çox dəqiq dəyərləndirən təcrübəli bir siyasətçi dayanır. Türkcə çox gözəl danışan Azərbaycan Respublikasının prezidenti sayın Heydər Əliyev araşdırmalarımızın nəticələrinə görə Azərbaycan xalqının böyük əksəriyyəti tərəfindən sevilən və inanılan bir liderdir.

***Harun QAYAÇI,***
***Türkiyə jurnalisti***

* * *

Türk milləti tarix boyunca zaman-zaman böyük sərkərdələrini meydana çıxarmışdır. Heydər Əlirzaoğlu da o böyük sərkərdələrdən biridir. Mustafa Kamal Paşa Türkiyəni düşdüyü girdabdan çıxardığı kimi Heydər Paşa da Azərbaycanı bu bəladan qurtaracaqdır.

***Doğan GÜRƏŞ,***
***Türk Silahlı Qüvvələrinin keçmiş Baş Qərargah rəisi,***
***Ordu generalı***

* * *

Cümhur başqanı Heydər Əlirzaoğluna Azərbaycanın sabahına inandığım qədər inanıram. Sizin uğurlarınız bizim uğurlarımızdır.

***Hikmət ÇETİN,***
***Türkiyənin sabiq xarici işlər naziri***

* * *

Xoşbəxtsiniz ki, Heydər bəyə inanırsınız. Heydər bəyi çox sevirəm və onun böyüklüyünə inanıram.

***Alparslan TÜRKEŞ,***
***Milliyyətçi Hərəkat Partiyasının sabiq lideri***



* * *

Heydər Əlirzaoğlu cümhur başqanı seçildikdən sonra əldə edilən uğurlar göz önündədir. Bacarıqlı lideri olmayan bir millət heç nəyə qadir deyil. Heydər Əlirzaoğlu Atatürk qədər qüdrətli bir türkdür. Atatürk isə yüz ildə bir yetişən böyük şəxsiyyətdir. Heydər Əlirzaoğlunun liderliyi ilə Azərbaycan dərddən qurtaracaq.

***Bülent ECEVİT,***
***Türkiyənin keçmiş baş naziri***

* * *

Heydər Əlirzaoğlu dünya şöhrətli bir liderdir. O, Atatürkün mənəvi övladıdır.

***Dəniz BAYKAL,***
***Cümhuriyyət Xalq Partiyasının sədri***

* * *

Heydər bəyi çox sevirik. Bir zamanlar babam İsmət Paşaya «Həyatdakı Atatürk» deyirdilər. Heydər Əlirzaoğlu da həyatdakı Atatürkdür.

***Ərdal İNÖNÜ,***
***Türkiyə baş nazirinin sabiq müavini***

* * *

Azərbaycana Heydər Əliyev kimi müdrik, siyasi cəhətdən uzaqgörən siyasətçi rəhbərlik edir.

***Vladimir ŞUMEYKO,***
***Rusiya Federal Məclisi Federasiya Şurasının sabiq sədri***

* * *

Bir rəhbər, siyasətçi və təsərrüfatçı kimi Heydər Əliyevin təcrübəsi MDB ölkələrində böyük maraq doğurur.

***İvan KOROTÇENYA,***
***MDB-nin keçmiş icraçı katibi***

* * *

Heydər Əliyev Atatürk kimi beynəlmiləlçidir. Heydər Əliyev Azərbaycanda demokratiyanın həm ideoloqu, həm təşkilatçısı, həm də icraçısıdır. Görüntü budur və buna qətiyyətlə millətcə inanmaq lazımdır ki, prezident Heydər Əliyevin heç bir zaman alternativi yoxdur.

***Doktor Yəhya TAŞDƏLƏN,***
***Türkiyədə Azərbaycan lobbi klubunun rəhbəri***

* * *

Mən xoşbəxtəm ki, Azərbaycan dövlətinin başçısı Heydər Əliyev Türkmənistan ilə Azərbaycan arasındakı ikitərəfli münasibətlərə, xalqlarımızın mənafeyi naminə müxtəlif sahələrdə ölkələrimizin əməkdaşlığının perspektivlərinə və imkanlarına böyük diqqət yetirir.

... Mən Azərbaycanın tanınmış lideri Heydər Əliyevi bir siyasətçi kimi yüksək qiymətləndirirəm.

***Saparmurad NİYAZOV,***
***Türkmənistan Respublikasının prezidenti***

* * *

Heydər Əliyev, heç şübhəsiz, güclü şəxsiyyətdir. Çox ağıllı siyasətçidir, ölkəni böhrandan çıxarmağa qadirdir.

***Jan PERRƏN,***
***Fransanın Azərbaycandakı ilk səfiri***

* * *

Sizi Pakistanda dünyada məşhur bir siyasətçi kimi tanıyırlar. Və hamımız əminik ki, Sizin fəaliyyətiniz nəticəsində Azərbaycan tezliklə tərəqqi yoluna çıxacaqdır.

...Mən Heydər Əliyevlə görüşdən şərəfləndim. O, dünya miqyasında nüfuzlu siyasətçi kimi tanınır.

***Said İsmət ÇOUDRİ,***
***Pakistanın Azərbaycandakı keçmiş səfiri***

* * *

Siz Nyu-Yorkda olduğunuz qısa bir vaxtda amerikalıların qəlbini və mən qətiyyətlə deyirəm ki, həm də Amerika mətbuatını fəth etmisiniz. Neçə gündür ki, mən qəzetləri izləyirəm. Amerika mətbuatı dünyanın görkəmli siyasi xadimi kimi Sizin fəaliyyətinizi layiqincə qiymətləndirir. Əlavə olaraq demək istəyirəm ki, Amerika mətbuatı heç də bütün ölkələrin prezidentlərinə belə münasibət bəsləmir.

***Robin ŞNAYDER,***
***ABŞ-ın ictimai xadimlərindən biri***

* * *

Sizin apardığınız böyük siyasət Azərbaycanın düşdüyü böhrandan bu yaxın vaxtlarda çıxmasına böyük ümidlər verir. Azərbaycanda baş vermiş son hadisələr bunu artıq sübut etdi.

***Əhməd Urabi MƏHƏMMƏD,***
***Misirin ictimai xadimlərindən biri***



* * *

Cənab Heydər Əliyev prezident seçilərkən Qərbdə ona şübhə ilə yanaşdıq: zənn edirdik ki, o, Azərbaycanda kommunizm qaydalarını bərpa edəcək. Lakin tez bir zamanda bizə aydın oldu ki, yanılmışıq. Azərbaycan dövlətinin bu mürəkkəb dövründə ona yalnız belə zəngin təcrübəli və müdrik başçı lazımdır. İndi Azərbaycan İkinci dünya müharibəsindən çıxmış Almaniyanı, prezident Heydər Əliyev isə kansler Adenaueri xatırladır. Əgər daxili və xarici qüvvələr prezident Heydər Əliyevə mane olmasalar, işləməyə imkan versələr, Azərbaycanın indiki inkişaf mərhələsi onun tarixinə intibah dövrünün başlanğıcı kimi daxil ola bilər – ölkəniz müharibədən şərəfli sülhə nail olaraq çıxar. Sabitlik, sosial-iqtisadi rifah, beynəlxalq aləmdə hörmət və nüfuzun artması – bunlar Azərbaycan üçün gerçəkliyə çevrilə bilər.

***V.VİMMER,***
***Almaniya Parlamentinin üzvü***

* * *

Cənab Heydər Əliyev öz geniş dünyagörüşü, açıq və orijinal mülahizələri ilə Sovet İttifaqının ucqar respublikasının partiya rəhbərini deyil, ABŞ-ın ən görkəmli qubernatorlarını xatırladır. Səfirlərin əksəriyyətinin fikrincə, belə bir şəxsiyyət Qərbin istənilən ölkəsində prezident seçkilərində qalib gələ bilərdi.

***P.MURFİ,***
***İrlandiyanın Almaniyadakı keçmiş səfiri***

* * *

Azərbaycanı çox çətin şəraitdə idarə etməyə və hamımızın yaxşı bildiyimiz, mənim də yaxından bildiyim məhrumiyyətlərə baxmayaraq, Azərbaycan xalqının əhvali-ruhiyyəsini yüksək tutmağa və Azərbaycanın ən qısa bir zamanda bütün qurumları ilə öz milli dövlətini yaratmağa nail olması və onun Qafqazın ən zəngin dövlətlərindən birinə çevrilməsi, dünyaya bu nəzərlə baxa bilməsi üçün göstərdiyi səylərə görə əziz qardaşım Heydər Əliyevi alqışlayıram.

***Süleyman DƏMİRƏL,***
***Türkiyənin 9-cu prezidenti***

* * *

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin simasında özümə yaxın dost və sirdaş tapmağımdan məmnunam. Mən Heydər Əliyevə böyük hörmət və ehtiram bəsləyirəm, onun siyasi fəaliyyətini və məharətini, uzaqgörənliyini yüksək qiymətləndirirəm.

***Butros QALİ,***
***BMT-nin keçmiş baş katibi***

* * *

Heydər Əliyev kimi təcrübəli, müdrik, əməksevər, dünya miqyasında tanınmış və eyni zamanda İranla Azərbaycan arasında əlaqələri canlandıran bir prezidentin xidmətində olmağımdan şərəf duyuram.

***Məhəmməd QAHİRİ,***
***İranın Azərbaycandakı keçmiş müvəqqəti işlər vəkili***

* * *

Azərbaycanın da Atatürkü olan övladı vardır. Bu övlad və ata – ömrünü Azərbaycana xidmət eşqi ilə sürüb gedən, özü üçün heç bir umacağı, təmənnası olmayan, insanlığa xidmət naminə gündə 18-20 saat işləyən, ölkəsinin unitar və demokratik, müstəqil dövlət olduğunu hamıya qəbul etdirən, sülhsevərliyi, humanistliyi ilə beynəlxalq siyasətin zirvəsinə ucalan Heydər Əliyevdir.

***Yəhya TAŞDƏLƏN,***
***professor, doktor, Türkiyədəki Azərbaycan Lobbi klubunun rəhbəri***

* * *

Heydər Əliyev görkəmli siyasi xadim və dövlət rəhbəri kimi həm islam dünyasının, həm də dünya problemlərinin həllində böyük rol oynayan siyasətçilərdəndir.

***Ömər QABBANE,***
***Mərakeşin sabiq iqtisadiyyat naziri***

* * *

Daxildə və xaricdə mübarizə aparıldığı bir vaxtda zati-alinizin dövlət rəhbərliyi sahəsindəki zəngin təcrübəsi bütün azərbaycanlı qardaşlarımızın dadına çatmışdır.

***Hüsaməddin CİNDORUQ,***
***Türkiyə Böyük Millət Məclisinin sabiq sədri***

* * *

Prezidentim Sizinlə görüşməyə çox maraqlıdır. O, bu məktubu mənə verərək demişdir ki, cahan-şümul siyasətçi kimi dünya siyasəti proseslərinin yaxın gələcəkdə hansı istiqamətdə inkişaf edəcəyini Heydər Əliyevin dilindən eşitmək mənim üçün çox əhəmiyyətlidir.

***Qaçendra SİNQKH,***
***Hindistanın və Azərbaycandakı keçmiş səfiri***



* * *

Koreya birləşdikdən sonra onun adaptasiya olunması yolunda bir sıra problemlər meydana çıxacaq. Sosialist Partiyasında olan qüvvələr buna ciddi əngəl törədir. Bu manеələr Heydər Əliyevə də yaxşı məlumdur. Əgər bizi barışdırmağı öz üzərinə götürərsə, Heydər Əliyevin ölkəsinin sürətlə inkişaf edib iqtisadi problemlərinin aradan qaldırılmasında əlimizdən gələni əsirgəməyəcəyik.

***Xanq Sanq YU,***
***Koreya diplomatı***

* * *

Heydər Əliyev dünyanın yeni nüfuz dairələrinə bölünməsi prosesinin mərkəzində dayanan şəxsiyyətlərdəndir. O, dünya siyasətində olduqca nüfuzlu siyasi xadimdir. ATƏM-ə üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə toplantısının 6 dekabr 1994-cü ildə keçirilən yekun iclası Heydər Əliyevin qələbəsi, onun ideyasının təntənəsi ilə başa çatdı.

***Yanq HOVARİ,***
***Macarıstan diplomatı***

* * *

Heydər Əliyev özünün heyrətamiz gedişləri ilə fərqlənir. İndi o, əsas etibarilə müsəlmanlar yaşayan və İranla həmsərhəd olan dövlətində bazar iqtisadiyyatı və dünyəvi cəmiyyət qurmaq istəyir. Ancaq o, eyni zamanda Rusiyaya da müqavimət göstərməlidir. Rusiyanın onu sındırmaq niyyəti vardır.

Heydər Əliyevin iradəsi sayəsində Azərbaycan keçmiş sovet respublikaları içərisində yeganə dövlətdir ki, öz ərazilərindən rus qoşunlarını çıxara bilmişdir.

***Qrudi RUBİN,***
***ABŞ-ın «Filadelfiya İnkvayer» qəzetinin siyasi şərhçisi***

* * *

Təkcə Azərbaycanda deyil, bütün dünyada nüfuzlu ictimai xadim kimi böyük hörmətə malik olan Heydər Əliyevin Azərbaycan Respublikasının prezidenti olduğu dövrdə Bakıda səfir vəzifəsində çalışmağı özüm üçün şərəf sayıram. Gürcüstan və Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsində Heydər Əliyevin xidmətləri dövlətlərimiz arasında uğurlu əməkdaşlığın rəhnidir.

***Georgi ÇANTURİYA,***
***Gürcüstan Beynəlxalq Neft Korporasiyasının prezidenti, Gürcüstanın Azərbaycandakı keçmiş səfiri***

* * *

Sizin kimi milli-azadlıq uğrunda mübarizlərin gərgin əməyi sayəsində qurbanlar bahasına da olsa, müstəqilliyinizi möhkəmləndirirsiniz. Bizə yaxşı məlumdur ki, bütün məsələlərdə, eləcə də neft müqaviləsində Siz Azərbaycanın mənafeyi naminə çox qəti mövqedə durursunuz.

***Uilyam UAYT,***
*ABŞ energetika nazirinin keçmiş birinci müavini*

* * *

Cənab prezident! Siz mənə çox lazımlı adamsınız, mən sizi özümə müəllim hesab edirəm. Siz hər altı aydan bir mənə dərs verirsiniz, mənim bu dərsə indi də ehtiyacım var. Bu, Qafqazda, regionunuzda, bütövlükdə dünyada gedən proseslərə sizin münasibətinizi öyrənməkdən ibarətdir.

***Duqlas HÖRD,***
*Böyük Britaniyanın Xarici İşlər və Millətlər Birliyi üzrə keçmiş dövlət katibi*

* * *

Heydər Əliyevə dahi şəxsiyyət kimi böyük rəğbət bəsləyirəm.

***Hüseyn ibn TƏLAL,***
*İordaniyanın keçmiş kralı*

* * *

İngiltərədə Azərbaycan prezidenti Heydər Əliyevə möhkəm inanırlar.

***Maykl HEZELTAYN,***
*Böyük Britaniyanın keçmiş ticarət naziri*

* * *

Heydər Əliyev bütün Yaxın Şərqdə və islam aləmində böyük nüfuza malikdir.

***KİLYANİ,***
*Pakistan parlamentinin sabiq sədri*

* * *

Mən Sizinlə hər bir görüşümü böyük hadisə sayıram və bu görüşləri yüksək qiymətləndirirəm. Bolqarıstanda Heydər Əliyevin şəxsiyyətinə böyük maraq vardır.

***Jelyu JELEV,***
*Bolqarıstan Respublikasının sabiq prezidenti*



Heydər Əliyevi Qərbdə və Rusiyada nə qədər sevirdilərsə, Türk dünyasında da bir o qədər sevirdilər.



Heydər Əliyev mədəniyyətə, o cümlədən musiqiyə hər zaman diqqətlə yanaşıb. Bu şəkildə dünya şöhrətli siyasətçi ilə, dünya şöhrətli musiqiçi bir yerdədir.



Türkiyə Azərbaycanın dostu və qardaşıdır. Preziden Əhməd Necdət Sezərlə birlikdə.



Rusiya ilə Azərbaycanın münasibətləri Vladimir Putinin təbiri ilə desək «çox yaxşı»dır.



* * *

Azərbaycan regionun ən müstəqil dövlətidir. Biz prezident Heydər Əliyevin siyasətinin qətiyyətli olmasını hiss edirik və bütün bunlara görə müstəqil Azərbaycan Respublikası ilə əlaqələrimizi gələcəkdə daha da genişləndirmək niyyətindəyik.

***Günter YOTTSEN,***
***Almaniya diplomatı***

* * *

Şəxsən sizin qayğınız və köməyiniz olmasaydı, nə biz burada iştirak edərdik, nə də əməkdaşlıq barədə bu qədər saziş imzalanardı. Bütün xarici şirkətlər və ölkələr adından mən Sizin gördüyünüz böyük işləri nəzərə çatdırmaq istəyirəm.

***Tim EQQAR,***
***Böyük Britaniyanın keçmiş energetika naziri***

* * *

Mən bütün Azərbaycan vətəndaşlarının, o cümlədən yəhudilərin prezident Heydər Əliyevə sonsuz məhəbbət və hörmət bəslədiklərinin şahidi olmaqdan məmnunluq duyuram. Çox ölkələrdə xalqların öz rəhbərinə hörmətini görmüşəm, lakin Azərbaycanda Sizi həqiqətən dərin məhəbbətlə sevirlər. Onlar tufanlı dalğalar arasında sükanın möhkəm saxlanıldığına əmindirlər. İsraildə əmindirlər ki, Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan tezliklə bütün çətinlikləri aradan qaldıracaq, inkişaf etmiş qabaqcıl ölkələrdən birinə çevriləcəkdir.

***Mordexay KİRŞENBAUM,***
***İsrailin məşhur ictimai xadimi***

* * *

Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda iqtisadi və sosial islahatların aparılmasına, demokratiyanın inkişafı yolunda çox mühüm mərhələlərin keçilməsinə başlanılıb. Azərbaycan dövlətinin başçısı qarşısına qoyduğu bu şərəfli və gərəkli vəzifələrin yerinə yetirilməsində BMT-nin və dünyanın demokratik ölkələrinin dəstəyinə bel bağlaya bilər.

Biz hər səfərimiz zamanı ölkənizdə yeniliklərin şahidi oluruq. Azərbaycana yenidən rəhbərlik etdiyiniz bu iki ildə respublikanızın əsaslı inkişaf yoluna qədəm qoyduğu aydın hiss olunur.

***Con AYML,***
***ABŞ-ın «Yunokal» şirkətinin keçmiş prezidenti***

* * *

Mən Sizinlə hər görüşümdən böyük şərəf duyuram və Sizi milyonlarla insanın müəllimi hesab edirəm.

***Bədr əl-EYBAN,***
***Səudiyyə Ərəbistanı, «Delta-internəşnl» şirkətinin prezidenti***

* * *

Biz türk xalqlarının görkəmli oğlu, uzaqgörən siyasətçi, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevi sevir və hörmət edirik. Respublikamıza Lenin ordeni təqdim edən Heydər Əliyevi səmimiyyətlə xatırlayırıq. Çoxları bu sadə, zəkalı və ziyalı adamı sevir. Onun nəhəng səyləri nəticəsində Azərbaycan Respublikasının qüdrətli, abad məmləkətə çevriləcəyinə inanırıq.

***S.PAVLOV,***
***tanınmış ictimai xadim***

* * *

Biz inanırıq ki, Sizin rəhbərliyiniz altında Azərbaycan yaxın illərdə bütün çətinliklərdən xilas olacaq və inkişaf etmiş ölkələr sırasına çıxacaqdır.

***Blaqovest SENNDOV,***
***Bolqarıstanın məşhur siyasi xadimi***

* * *

Sizinlə hər bir görüş mənim üçün yaddaqalan bir hadisədir. Azərbaycanda gedən demokratik prosesləri diqqətlə izləyirəm və Sizin rəhbərliyiniz altında həyata keçirilən tədbirlərin yaxşı nəticələr verəcəyinə inanıram.

***Mirça SNEQUR,***
***Moldova Respublikasının keçmiş prezidenti***

* * *

Cənab prezident!

Biz Sizi təcrübəli dövlət xadimi və müasir Azərbaycanın qurucusu kimi tanıyırıq.

Hörmətli Heydər Əliyev!

Müasir dövrümüzdə tarixi dönüşün dramatizmi ilə dövlət təsisatlarını bəzən son dərəcə ağır şərtlər altında yaratmağın və möhkəmlətməyin kəskin zəruriliyi çulğaşır. Bu baxımdan Sizin çətinlikləriniz daha böyükdür, onların aradan qaldırılması isə ağlasığmaz səylər və siyasi nəzakət tələb edir.

***Jelyu JELEV,***
***Bolqarıstan Respublikasının keçmiş prezidenti***

* * *

Gənc Azərbaycan Respublikası hazırda bütün dünyaya örnək ola biləcək addımlar atır. Demokratik və sivilizasiyalı cəmiyyət quruculuğu yolunda böyük işlər görür. Prezident Heydər Əliyevin bu sahədə gördüyü işləri bütün türk dünyası müdafiə edir.

***Tansu ÇİLLƏR,***
***Türkiyənin sabiq baş naziri***



* * *

Rusiya – Azərbaycan dialoqu üçün əlverişli şərait Heydər Əliyev suveren, demokratik Azərbaycanın rəhbərliyinə gəldikdən sonra yaranmışdır. Əgər biz belə tarixi imkandan istifadə etməsək, düzəldilməsi mümkün olmayan hadisə baş verə bilər – xalqlarımız, dövlətlərimiz bir-birindən ayrı düşərlər. Buna isə yol vermək olmaz. Çünki hər iki ölkənin strateji mənafeləri azad və suveren dövlətlər kimi qalaraq bir-birinə kömək edə-edə yaşamaq zəruriliyini irəli sürür.

***Vladimir ŞUMEYKO,***
***Rusiya Federal Məclisi Federasiya Şurasının sabiq sədri***

* * *

Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda baş vermiş müsbət dəyişikliklərin şahidi olmuşam. Bu dəyişikliklərin sayəsində Azərbaycana lazım olan birlik və sabitlik bərpa edilmişdir.

***Jak PERRƏN,***
***Fransa Respublikasının Azərbaycandakı ilk səfiri***

* * *

İndiki tarixi məqamda Sizin suveren, azad Azərbaycan Respublikasının bəxti onda gətirmişdir ki, bu gün ona Heydər Əliyev kimi təcrübəli, dünyada tanınmış siyasətçi rəhbərlik edir. Mən Rusiyada elə bir adam tanımıram ki, onun ünvanına mənfi söz demiş olsun. Məhz onun sayəsində hadisələr bu məcraya, problemlərimizin sülh yolu ilə həlli məcrasına düşmüşdür.

Bu gün bizimlə birlikdə işləyən belə təcrübəli rəhbər etimada və hər cür hörmətə layiqdir.

***Vladimir ŞUMEYKO,***
***Rusiya Federal Məclisi Federasiya Şurasının sabiq sədri***

* * *

Bu, həm Azərbaycan, həm də digər xalqların xoşbəxtliyidir ki, Heydər Əliyev yenidən fəal siyasətçidir. Biz əminik ki, Heydər Əliyev ona bəxş olunmuş böyük istedaddan, öz təcrübəsindən, bacarığı, diplomat qabiliyyətindən istifadə edərək bu regiona sülh və əmin-amanlıq gətirəcəkdir. Mənə elə gəlir ki, bu məqsədə çatmaq üçün Azərbaycan doğru yoldadır.

***Faruq əl-HƏVARİ,***
***Misir diplomatı***

* * *

Biz belə bir qənaətə gəlmişik ki, Azərbaycanda prezident Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlar bu ölkə üçün çox yaxşı nəticələrə gətirib çıxaracaqdır.

***Maykl BELE,***
***Böyük Britaniyanın tanınmış ictimai-siyasi xadimi***

* * *

Şəxsən mənim üçün və şübhəsiz ki, Gürcüstan ictimaiyyətinin bir çox nümayəndələri üçün Heydər Əliyev ideal rəhbər təcəssümüdür.

***Aleksandr KAVSADZE,***
***Gürcüstanın siyasi xadimi***

* * *

Belə bir hal heyranlıq doğurur ki, hətta ən çətin sınaqlar zamanı da Siz xalqın birliyini qoruyub saxlaya bildiniz. Bunsuz hər hansı dövlətin varlığı ağlasığmazdır.

Cənab Heydər Əliyev, Sizə həqiqətən qibtə edirəm. Bunu doğrudan da çox ciddi deyirəm. Çünki burada qısamüddətli dövlət səfərində olarkən başa düşdüm ki, Heydər Əliyev Azərbaycan xalqının hamı tərəfindən qəbul edilən lideridir.

***Leonid KUÇMA,***
***Ukrayna prezidenti***

* * *

Biz Azərbaycanla yaxın əməkdaşlıq, qarşılıqlı surətdə faydalı ticarət etmək niyyətindəyik və güman edirik ki, Azərbaycan prezident Heydər Əliyevin rəhbərliyi ilə öz müstəqilliyini qoruyub saxlamağa qadirdir, bölgədə sülhün və inkişafın daşıyıcısı ola bilər.

***Riçard ŞELBİ,***
***ABŞ senatoru***

* * *

Biz Heydər Əliyev tərəfindən Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin, milli iqtisadiyyatının möhkəmləndirilməsinə xidmət edən təşəbbüsləri yüksək qiymətləndiririk.

***Fərrux Əhməd Xan LEQARİ,***
***Pakistan İslam Respublikasının keçmiş prezidenti***



* * *

Bu regionda baş verən hadisələrdə Azərbaycan prezidenti Heydər Əliyevin fəaliyyətinin mənası və əhəmiyyəti böyükdür. Məhz buna görə də Heydər Əliyevlə görüşümə böyük əhəmiyyət verirəm.

***Zbiqnev BJEZİNSKİ,***
***ABŞ-ın sabiq prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri işləyib, məşhur politoloq və siyasi xadim***

* * *

Heydər Əliyevin atdığı addımları və onun hökumətinin Azərbaycanın çox mürəkkəb coğrafi-siyasi çətinliklərinə baxmayaraq, demokratik və iqtisadi islahatlar aparmasını alqışlayırıq.

***Fərrux Əhməd Xan LEQARİ,***
***Pakistan İslam Respublikasının keçmiş prezidenti***

* * *

Azərbaycan prezidentinin Qafqazda atdığı addımları Birləşmiş Ştatlarda diqqətlə izləyirlər. Azərbaycan çox mürəkkəb coğrafi-siyasi məkanda yerləşən dövlətdir. ABŞ və Qərb ölkələri ilə əlaqələri inkişaf etdirməyi, bazar iqtisadiyyatının və demokratiyanın bərqərar olması üçün əzmlə çalışmağı qarşısına məqsəd qoyan prezident Heydər Əliyevin fəaliyyəti təqdirəlayiqdir. Heydər Əliyev müstəqilliyi qoruyub saxlamaq uğrunda əzmlə, qətiyyətlə mübarizə aparır.

***Henri KİSSİNCER,***
***ABŞ-ın keçmiş dövlət katibi, görkəmli ictimai-siyasi xadim***

* * *

Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi tədbirlərin, ölkənin müstəqilliyini qorumaq uğrunda atdığı mühüm addımların əks-sədası İordaniyaya da gəlib çatmışdır.

***Hüseyn ibn TƏLAL,***
***İordaniyanın keçmiş kralı***

* * *

Mənim Azərbaycan haqqında ətraflı məlumatım var və Heydər Əliyevi dünyanın görkəmli siyasi xadimi kimi tanıyıram.

***Mario SOARES,***
***Portuqaliya Respublikasının sabiq prezidenti***

* * *

Azərbaycana sərmayə qoymaq Pakistan üçün çox sərfəlidir. Çünki Azərbaycan sabit bir dövlətdir. Azərbaycanda həyata keçirilən qətiyyətli tədbirlərə görə prezident Heydər Əliyevi alqışlayıram və onun fəaliyyətini diqqətlə izləyirəm.

***Bənəzir BHÜTTO,***
***Pakistan İslam Respublikasının keçmiş baş naziri***

* * *

Amerika hökuməti prezident Heydər Əliyevin həyata keçirdiyi bütün tədbirləri bəyənir və dəstəkləyir.

***xanım o'LİRİ,***
***ABŞ-ın keçmiş energetika naziri***

* * *

Məhz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün dünyaya sübut etdi ki, o, müstəqil yaşamaq istəyir və öz ərazisinin, zəngin təbii sərvətlərinin sahibi olmağa, bütün sərvətləri barəsində müstəqil qərar qəbul etməyə qadirdir.

***Qreq LAFLİN,***
***ABŞ-ın tanınmış siyasi xadimi***

* * *

Heydər Əliyevin boru kəmərlərinin marşrutu barədə qəbul etdiyi qərar təkcə Azərbaycan üçün deyil, həm də regionun bir çox digər dövlətlərinin müstəqilliyinin qorunması üçün böyük əhəmiyyət daşıyır. Buna görə, mən Azərbaycan prezidentinə minnətdarlığımı bildirirəm.

***Çarlz KÖRTİS,***
***ABŞ energetika nazirinin sabiq müavini***

* * *

Prezident Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün bölgənin liderlik yükünü çiynində daşıyan siyasi xadimdir.

... Prezident Heydər Əliyevin ölkədə siyasi və iqtisadi sahədə gördüyü işlər dünya ölkələrinin və onları təmsil edən şirkətlərin Azərbaycana olan inamını artırmışdır. Mən bir daha vurğulamaq istəyirəm ki, Sizin yeritdiyiniz siyasət bu bölgədə inamlı rəhbərliyinizi sübut edən inandırıcı addımdır. Dərindən əminəm ki, bir işin Azərbaycanda həyata keçirilməsinə prezident Heydər Əliyev inanırsa, mütləq uğurlu nəticə əldə olunacaqdır.

***Çarlz KÖRTİS,***
***ABŞ energetika nazirinin sabiq müavini***



* * *

Keçmiş SSRİ-nin tərkibində olmuş və hazırda müstəqillik əldə etmiş respublikaların hamısında keçid prosesi ağır gedir. Belə şəraitdə müdrik rəhbərlər lazımdır ki, öz xalqını və ölkəsini daha ağır vəziyyətə düşməkdən qoruya bilsinlər. Bu mənada sizin ölkənin gələcəyinə ümidlə baxmağa əsas var.

***Corcio Lya MALFA,***

* * *

Sizin respublikanızda atdığınız demokratik addımlar Qərb ölkələrində yüksək qiymətləndirilir. Biz başa düşürük ki, böyük ölkələrlə qonşu olmaq və onların bəzilərinin çox zaman dost münasibət bəsləməməsi nə deməkdir. Biz Dağlıq Qarabağ probleminin də Azərbaycan üçün hansı çətinliklər törətdiyini bilirik.

***Corcio Lya MALFA***
***tanınmış ictimai xadim***

* * *

Biz Heydər Əliyevi Azərbaycanda demokratiyanın təminatçısı hesab edirik.

***QUŞEYDU***
***Fransanın siyasi xadimi***

* * *

Mən 1990-cı ildən siyasətdəyəm, bundan əvvəl isə tarixi öyrənirdim, Sizin fəaliyyətinizi izləyirdim. Prezident olduqdan sonra ölkənizdə məhz sabitlik yaradılması sahəsində, ölkənizin inkişafı üçün gördüyünüz müsbət işlərə gözəl bələdəm. Təkcə Latviyada deyil, Avropa Şurasında da başa düşürük ki, bu ölkədə demokratiyanın inkişafının ümumi prosesinə Sizin müsbət təsiriniz çox mühümdür.

...Sizinlə görüşüb gələcəkdə bu təşkilatda tərəfdaşlar kimi necə işləyəcəyimiz, Sizə yaxşı məlum olan, bu regionda mövcud olan çətinliklərə müsbət təsir göstərmək üçün artıq bu gün, sabah nə kimi işlər görəcəyimiz barədə danışmağımıza şadıq. Sizinlə görüşmək böyük uğur, böyük səadətdir.

***İndulis BERZİNŞ,***
***Avropa Şurası Nazirlər Komitəsinin keçmiş sədri***

* * *

Sizin kimi liderlərlə işləmək şansı əldə etdiyimə görə çox məmnunam.

***Corc BUŞ,***
***ABŞ prezidenti***

* * *

Mən Sizin liderliyiniz sayəsində illik neftin ixracı marşrutlarının müəyyənləşdirilməsi haqqında qəbul edilmiş qərarı yüksək qiymətləndirirəm. Mən Sizin gördüyünüz işlərə heyranam.

***Maykl ROZENTAYM,***
***Böyük Britaniya baş nazirinin keçmiş müavini, sabiq birinci dövlət katibi***

* * *

Azərbaycan prezidenti Heydər Əliyevin tərcümeyi-halına yaxşı bələdəm və Sizi 1975-ci ildən tanıyıram. Sizin rəhbərliyiniz altında Azərbaycan dövlətinin son illər əldə etdiyi nailiyyətlərin, Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına qovuşdurmaq uğrunda aparılan ardıcıl və səmərəli siyasətin yaxın gələcəkdə mütləq bəhrə verəcəyinə əminəm.

***Yord BETNOL,***
***Böyük Britaniyanın məşhur siyasi xadimi***

* * *

Postsovet məkanındakı heç də bütün dövlətlərdə Azərbaycan prezidenti kimi belə müdrik, təcrübəli adamlar dərhal rəhbərliyə gəlməmişlər. Mənə elə gəlir ki, bu, təsadüfi deyildir. Ona görə təsadüfi deyil ki, bütövlükdə postsovet məkanında baş verən proseslər nə qədər mürəkkəb olsa da, dövlətlərimizin xalqlarının tələbləri bu münasibətlərdə müsbət nəticə əldə olunmasına yönəldilmişdir. Təbii ki, onlar bu problemləri həll etməyə qadir insanları irəli çəkirlər.

... Rusiya ilə Azərbaycan arasında ənənəvi münasibətlər var, biz bu barədə çox danışmışıq və yerli rəhbərliyin, prezident Heydər Əliyevin xidmətlərini lazımınca qiymətləndirmək gərəkdir.

... Heydər Əliyevi onun yanında tərifləmək mənim üçün münasib deyil. Lakin onun dövlət müdrikliyini, – daha münasib söz tapmaq çətindir, – qeyd etməyə bilmərəm. Bu da ondan ibarətdir ki, Sovet İttifaqının dağılmasından sonra gedən çox mürəkkəb proseslərə baxmayaraq, – bu barədə heç vaxt açıq danışmasaq da, – nə gizlədim, Azərbaycanla Rusiya arasında münasibətlərdə hər halda müəyyən gərginlik olmuşdur. Azərbaycanda rus mədəniyyətinə və rus dilinə münasibət faktı, – bu isə məhz Azərbaycan prezidentinin son illərdə apardığı həmin siyasətdir, – təkcə dövlətlərarası münasibətlərin əvvəlki səviyyədə bərpası üçün deyil, həm də bu münasibətlərin ölkələrimizin xalqlarının mənafeyi naminə inkişafı üçün qapıları açıq qoymuşdur.

... Azərbaycan prezidenti məni rəsmi səfərə dəvət edəndə, – mən bəzi sirləri açsam, o, inciməyəcəkdir, – mən ona dedim ki, Heydər Əliyeviç, biz onsuz da Sizinlə hər üç aydan bir görüşürük, vaxt itirmək nəyə lazımdır. O dedi, sən hələ cavansan, başa düşmürsən, əslində, bunun həm Rusiya, həm də Azərbaycan üçün əhəmiyyəti böyükdür. Onda mən ona dedim, «yaxşı, gələrəm». Amma hiss edirəm ki, səhv etdim, fikrimi dəqiq ifadə etmədim, gərək deyəydim ki, «çox yaxşı».

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının prezidenti***



**Fransa Avropanın və dünyanın ən aparıcı dövlətlərindəndir. Prezident Heydər Əliyev bunu həmişə nəzərə alıb. Fransa prezidenti Jak Şirakla səmimi görüş.**



**Azərbaycan bütün dinlərə hörmətlə yanaşır. Elə Rusiyanın patriarxı 2-ci Aleksi də bunu dəfələrlə təsdiqləyib.**



İtaliya prezidenti Roman Prodi ilə dünya siyasətinin ən mühüm məsələlərini müzakirə edərkən.



Rusiyada Heydər Əliyevi yaxşı tanıyırlar. MDB-nin keçmiş icraçı katibi Boris Berezovski və Rusiya baş nazirinin keçmiş müavini Boris Nemtsovla.



* * *

Biz Sizi sadəcə, Azərbaycanın dəyərli cümhur başqanı deyil, eyni zamanda türk dünyasının çox dəyərli lideri olaraq salamlayırıq.

*İstemihan QALAY,*
*Türkiyənin keçmiş mədəniyyət naziri*

* * *

Azərbaycan hökuməti Sizin rəhbərliyiniz altında iqtisadi tərəqqiyə nail olmaq üçün sabit və davamlı islahatlar, siyasət aparmışdır. Biz bu islahatları, bu iqtisadi tərəqqini dəstəkləmişik və 2000-ci ilin iqtisadi nəticələri bunu bir daha sübut edir.

*Cudi O'KONNOR,*
*Dünya Bankının Cənubi Qafqaz üzrə direktoru*

* * *

Azərbaycanın Avropa ölkələri ailəsində özünəlayiq yer tutmasını, böyük təcrübəyə malik, şöhrətli dövlət xadimi Heydər Əliyevin uzaqgörən, müdrik siyasətinin gözəl bəhrəsi kimi dəyərləndirirəm. Azərbaycanın Avropa Şurasına qəbul edilməsi, bu ölkədə insan haqlarının qorunması, demokratiyanın möhkəmlənməsi, daim inkişafda olması məhz Heydər Əliyevin siyasətinin nəticəsidir.

... Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə prezident Heydər Əliyev kimi böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik, müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir.

... Prezident Heydər Əliyevi Parisdə qəbul etmək mənim üçün böyük sevincdir. Çoxdandır ki, bizim aramızda qarşılıqlı dostluq münasibətlərindən də artıq əlaqələr yaranmışdır. Mən prezident Heydər Əliyevə dərin hörmət bəsləyirəm.

*Jak ŞİRAK,*
*Fransa Respublikasının prezidenti*

* * *

Putin səfəri zamanı Heydər Əliyevin olduqca çevik hərəkətlərindən ehtiyat edirdi. Heydər Əliyev Azərbaycanda siyasi və hərbi məsələlərə ehtiyatlı yanaşaraq tələsik qərarlar vermədi. Baxmayaraq ki, Bakı bəyannaməsində müdafiə və hərbi-texniki sahədə qarşılıqlı əməkdaşlığın perspektivlərindən danışılır.

Rusiya – Azərbaycan əməkdaşlıq qapılarının həmişə açıq olması Heydər Əliyevin qələbələrindən biri hesab edilir.

Gələcəkdə təkcə MDB prezidentləri deyil, Putinlə danışıqlara gedən bütün dövlət xadimlərinin nümunə baxımından Heydər Əliyevin Putinlə davranışlarını təhlil etmələri məqsədəuyğun olardı. Əliyev ağıllı praqmatizm nümayiş etdirdi. O, yalnız simvolik məsələlərdə və maliyyə məsələlərində kompromislərə gedərək böyük məmnunluqla Putinə geniş bəyanatlar vermək üçün imkan yaratmışdır. Əliyev Putinin hər istədiyini verməməklə də onunla yaxından əməkdaşlıq etməyin mümkünlüyünü sübut etdi.

***Mirian LANSKOY,***
***ABŞ-ın tanınmış ictimai-siyasi xadimi***

* * *

Həyatımda Sizin kimi güclü yaddaşa malik ikinci bir şəxsiyyət görməmişəm.

Başa vurduğumuz əsrdən də əvvəl bu məmləkətdə ilk teatr olmuş, ilk qəzet çıxmışdır, ilk dəfə latın əlifbasını biz azərbaycanlılardan götürmüşük. Cümhuriyyət ideyası, cümhuriyyət, demokratiya nədir, - türk və islam dünyasında ilk dəfə bunları biz Azərbaycandan götürmüşük. İslam dünyasında ölüm hökmü ilk dəfə Sizin başçılıq etdiyiniz ölkədə ləğv edilib.

***Qədri Ecvet TEZCAN,***
***Türkiyə Respublikasının Azərbaycandakı keçmiş səfiri***

* * *

İndi siz çox böyük təcrübəsi olan dünya siyasətçisinə qulaq asacaqsınız.

***Lord Rassel CONSTON,***
***AŞ PA-nın keçmiş sədri***
***Prezident Heydər Əliyevə AŞ PA-da çıxış üçün söz verərkən***

* * *

Gürcüstanın dövlət quruculuğunun və müstəqilliyinin dəstəklənməsi üçün Sizin rəhbərliyiniz altında görülmüş işlərə və indi də atılan addımlara görə mən gürcü xalqı və Gürcüstan rəhbəri adından Sizə minnətdarlığımızı yetirmək istəyirəm.

... Şübhə yoxdur ki, Azərbaycanın Avropa Şurasına qəbul edilməsi bu gün müstəqil Azərbaycanda Sizin rəhbərliyiniz altında həyata keçirilən demokratik inkişaf xəttinin düzgün olduğunu təsdiqləyir.

***İrakli MENAĞARİŞVİLİ,***
***Gürcüstanın tanınmış ictimai-siyasi xadimi***



* * *

Siz öz ölkəniz üçün çox böyük işlər görmüsünüz. Mən özüm bunun şahidiyəm. Mən əminəm ki, Siz bundan sonra da ölkəniz üçün böyük xidmətlər göstərəcəksiniz.

... Sizin hansı miqyaslı, hansı çəkili siyasətçi olduğunuzu da mən yaxşı bilirəm.

***Xavyer SOLANA,***
***NATO-nun keçmiş baş katibi, Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali təmsilçisi***

* * *

Sizin necə gərgin işlədiyinizi bilirik. Sizə maraq olduqca yüksəkdir. Çünki həyatınızın bütün məqamları, bütün mərhələləri qələmə alınsa, yüz romana kifayət edər.

***Vsevolod BOQDANOV,***
***Rusiya Jurnalistlər İttifaqının sədri***

* * *

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan böyük uğurlar qazanır. Mən Sizin ölkənin son dövrdəki iqtisadi göstəricilərinə bir daha nəzər saldım. Azərbaycan böyük inkişaf yolundadır və bu, məni çox məmnun edir. Hazırda Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir. Dünyanın bir çox ölkələrinin iş adamları Azərbaycana sərmayə qoyurlar. Əminəm ki, qarşıdakı illərdə Azərbaycan daha böyük uğurlara nail olacaqdır.

***Süleyman DƏMİRƏL,***
***Türkiyənin 9-cu prezidenti***

* * *

Prezident Heydər Əliyevin beynəlxalq sülh uğrunda və bölgəmizdə əmin-amanlığın, sabitliyin yaradılması istiqamətində göstərdiyi səylər çox böyük əhəmiyyətə malikdir. Biz əminik ki, beynəlxalq münasibətlərə dərindən bələd olan görkəmli dövlət xadimi Heydər Əliyevin nüfuzu və səyləri sayəsində Cənubi Qafqazda tezliklə sülh bərqərar olunacaqdır. Cənab Heydər Əliyev apardığı uğurlu, uzaqgörən siyasətlə həm Türkiyənin mövqeyini daim dəstəkləmiş, həm də istər Azərbaycanın, istərsə də Türkiyənin beynəlxalq aləmdə rolunun artmasına nail olmuşdur.

***Nüsrət ARAS,***
***türkiyəli professor***

* * *

Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcək.

***Eduard ŞEVARDNADZE,***
***Gürcüstan Respublikasının sabiq prezidenti***

* * *

Dünyada tanınmış görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm.

*Corc BUŞ,*
*ABŞ prezidenti*

* * *

Heydər Əliyev hər bir məsələdə öz dövlətinin mövqeyini, Azərbaycanın nə kimi fikir söylədiyini və nə təklif etdiyini görür.

*Yuri YAROV,*
*MDB-nin icraçı katibi*

* * *

Siz ən parlaq liderlərdənsiniz. Millətin və dövlətin mənafelərini GUÖAM-ın əhatə etdiyi bütün regionda iqtisadi siyasətlə və inteqrasiya prosesləri ilə necə əlaqələndirməyi Sizin timsalınızda öyrənə bilirik. Sizin təşəbbüsünüzlə başlanmış Bakı – Tbilisi – Ceyhan və Böyük İpək yolu kimi qlobal dövlətlərarası layihələrin gerçəkləşdirilməsi ölkələrimizin iqtisadiyyatına dinamika verəcək və xalqlarımızın həyatını dəyişdirəcəkdir. Gürcüstan bu tarixi proseslərdə Sizin rolunuzu xüsusi qiymətləndirir.

*Quram AXVLEDİANİ,*
*Gürcüstanın ictimai xadimi*

* * *

Biz görürük ki, Azərbaycan iqtisadiyyatına sərmayələr, o cümlədən xarici sərmayələr qoyulur və bu, Azərbaycan prezidentinin müəyyənləşdirdiyi xəttin təsdiqinə və həyata keçirilməsinə əyani sübutdur.

Hörmətli Heydər Əliyev, görkəmli dövlət xadimi kimi, ölkələrimiz arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsinə şəxsən böyük töhfə verən insan kimi Ukraynada Sizə dərin ehtiram bəsləyir, hörmət edirlər.

*Viktor YANOVSKİ,*
*Ukraynanın tanınmış ictimai xadimi*

* * *

Sizin Qafqazda sabitliyə nail olmaq məqsədlərinə yönəldilmiş səylərinizi qiymətləndiririk. Bu, Rusiyada Sizə dərin ehtiram qazandırmışdır. Moskvada yaxşı xatırlayırlar ki, Siz Sovet İttifaqında yüksək dövlət vəzifələrində olarkən, o vaxtkı vahid dövlətimizin təhlükəsizliyinin möhkəmlənməsi üçün olduqca çox işlər görmüsünüz.

*Vladimir RUŞAYLO,*
*Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi*



* * *

Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılması üçün Sizin kimi şəxsiyyətlərə böyük ehtiyac var. Məhz böyük şəxsiyyətlərin iradəsi sayəsində bu problemi aradan qaldırmaq mümkün ola bilər.

Hesab edirik ki, Sizin xalqınız dövlətinizin hansı inkişaf mərhələsinin başlanğıcında olduğunu yaxşı anlayır. Bu baxımdan, biz Azərbaycanda gördüklərimizi nikbinliklə qarşıladıq. Azərbaycanın böyük gələcəyin başlanğıcında olduğunu gördük.

*Ursula ŞVAYSER,*
*məşhur diplomat*

* * *

Mən həyatımda çox böyük mükafatlar almışam. Amma Sizinlə dostluğumu özüm üçün ən böyük mükafat hesab edirəm. Mənim üçün bundan yüksək mükafat ola bilməz.

Siz həm təcrübəli, həm də orijinal adamsınız. Sizin sağlığınız, varlığınız Azərbaycan üçün, hər birimiz üçün bir nemətdir.

*İhsan DOĞRAMACI,*
*Bilkənd Universiteti idarə heyətinin sədri,*
*məşhur ictimai xadim*

* * *

Biz də ümidvarıq ki, Azərbaycan həqiqətən inkişaf edəcəkdir. Sizin müdrik siyasətçi olmağınız, danılmaz nüfuza malik olmağınız, Azərbaycanda vəziyyəti sabitləşdirməyiniz bunun böyük rəhnidir. Siz qan tökülməsini dayandırdınız. Siz bu torpaqda yaşayan insanlara bərabər hüquqlar verilməsinə, dindarların öz dininə, öz inamına etiqad etməsinə, hamının çiyin-çiyinə işləməsinə və bir-birinə qarşı durmamasına nail oldunuz, onlara bu hüquqları verdiniz.

*II ALEKSİ,*
*Rusiyanın patriarxı*

* * *

Mən Sovet İttifaqına 1973-cü ildə gəlmişdim. Hələ o zaman Sizin adınız kifayət qədər məşhur idi. Ancaq güclü, müdrik insan, siyasətçi hakimiyyət sükanı arxasında bu qədər uzun müddət dura bilərdi. Mən Sizə, Sizin həyat təcrübənizə, müdrikliyinizə dərin hörmətimi bildirirəm.

*Şibli Şəfiq əl-MİSRİ,*
*Livan baş nazirinin müşaviri*

* * *

Hörmətli Heydər Əliyev, biz görürük ki, Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası necə dinamik inkişaf edir, iqtisadi sağlamlaşdırma yolu ilə, cəmiyyətin demokratik təsisatları-

nın möhkəmlənməsi, vətəndaş hüquqları və azadlıqlarının bərqərar olması yolu ilə necə ardıcıl və dəqiq surətdə irəliləyir. Həyatın burada, Bakıda xüsusilə aşkar duyulan dinamikası göstərir ki, Azərbaycan tərəqqi, demokratiya yolunu qətiyyətlə tutmuşdur.

***Nikolay RYABOV,***
***Rusiya Federasiyasının Azərbaycandakı səfiri***

* * *

Mən 1969-cu ili yadıma salıram. O vaxt Siz Azərbaycan KP MK-nın birinci katibi oldunuz və dərhal kənd təsərrüfatının müxtəlif sahələrində – təkcə kənd təsərrüfatında, sənayedə deyil, bir çox digər sahələrdə islahatlar aparmağa başladınız. Özü də Siz qısa müddətdə nəinki Cənubi Qafqazda, həm də bütün Sovet İttifaqında böyük nüfuz qazandınız.

***İrakli ANDRİADZE,***
***Gürcüstanın dövlət xadimi***

* * *

Sizin bioqrafiyanıza yaxşı bələdəm. Biz cavan siyasətçilər Sizin fəaliyyətinizi daim izləyirik. Sizə rəğbətlə yanaşırıq və Sizdən çox şey öyrənirik. Azərbaycanın dövlət müstəqilliyinin qorunması yolunda qarşıya çıxan çətinliklərə necə sinə gərdiyinizdən xəbərdaram.

***Aleksandr KVASNEVSKİ,***
***Polşa Respublikasının prezidenti***

* * *

Siz silahlı münaqişələrin aradan qaldırılması sahəsində nadir təcrübəyə maliksiniz. Hər halda hakimiyyətiniz dövründə Siz ona nail oldunuz ki, respublika artıq neçə vaxtdır sülh şəraitində yaşayır.

***Marina NEKRASOVA,***
***Rusiya prezidenti informasiya idarəsi rəisinin müavini***

* * *

Dünyanın ən müdrik siyasi xadimlərindən biri olan Heydər Əliyevlə görüşmək çoxdankı arzum idi. Mən hələ cavanlığımda Sizin haqqınızda çox eşitmişəm.

...Biz prezident Heydər Əliyevlə görüşümüzü bütün səfərlərimizin ən ali, ən mühüm görüşü sayırıq.

Sizin möhkəm yaddaşınız məni heyrətləndirir. Heydər Əliyev kimi müdrik rəhbər Azərbaycana rəhbərlik etdiyinə görə Yaponiya – Azərbaycan münasibətləri sürətlə inkişaf edə bilər. Biz təkcə bu region barədə deyil, bütün MDB məkanı haqqında Sizin məsləhətlərinizi dinləmək niyyətindəyik.

***Xiromoto SEKİ,***
***Yaponiya diplomatı***



* * *

Biz inanırıq ki, prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan yaxın illərdə dünyanın ən inkişaf etmiş ölkələri sırasında özünə layiqli yer tutacaqdır.

***Faiq QAYTANÇI,***
***Qara Dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı Parlamentlərarası Assambleyasının sabiq baş katibi***

* * *

Mənim rəhbərliyim dövründə Qarabağ məsələsi neçə dəfə qaldırılmış, lakin Heydər Əliyevin nüfuzu və mərkəzdə sözünün iti kəsəri bu məsələnin həllinə imkan verməmişdi.

***A.KOÇİNYAN,***
***Ermənistan KP MK-nın keçmiş birinci katibi***

* * *

Mən və bir çox gənc siyasətçilər Heydər Əliyevi ağsaqqal, patriarx sayırıq.

Biz hələ Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda oxuyarkən Sizin fəaliyyətinizi, çıxışlarınızı öyrənirdik.

Heydər Əliyev gənc siyasətçilər üçün əfsanədir, qurub-yaratmaq, yenidən ayağa qalxmaq rəmzidir.

...Azərbaycanın, onun indiki prezidenti Heydər Əliyevin timsalında öyrənməli cəhətlər var.

***Kirsan İLYUMJİNOV,***
***FİDE-nin prezidenti, Rusiya Federasiyası Kalmıkiya Respublikasının prezidenti***

* * *

Dağıstanlılar Sizi yaxşı tanıyır, sevir və Sizə hörmət bəsləyir. Onlar Siz əvvəllər Azərbaycana başçılıq edərkən də, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən də Sizinlə fəxr edirdilər. Biz indi də nəinki Azərbaycanda, həm də Qafqazda sülhün və sabitliyin bərpa edilməsinə olan bütün ümidləri Sizin adınızla bağlayırıq.

***Məhəmməd MƏHƏMMƏDOV,***
***Dağıstan Respublikası Dövlət Şurasının sədri***

* * *

Zəmanəmizin görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə gəldikdən sonra sabitlik bərqərar olmuş, dəfələrlə göstərilən dövlət çevrilişi cəhdlərinin qarşısı qətiyyətlə alınmış və indi respublika əmin-amanlıq şəraitində yaşayır.

***Zurab JVANİYA,***
***Gürcüstan parlamentinin keçmiş sədri***

* * *

Azərbaycan dövlətinin prezidenti kimi Sizin yeritdiyiniz siyasi xətt, Qafqazda və bütün Zaqafqaziyada vəziyyətə təsir göstərir. Zaqafqaziya elə bir qovşaqdır ki, burada Qərbin və Şərqin, Şimalın və Cənubun maraqları kəsişir. Buna görə də Sizin yeritdiyiniz siyasət beynəlxalq siyasi vəziyyətə təsir göstərir.

... Bizim iqtisadi problemlərimiz, qlobal problemlər yanacaq və neftlə bağlıdır. Bu neftin yolu isə Xəzərdən gəlib Gürcüstandan keçəcəkdir. Biz Sizə çox minnətdarıq. Gürcü xalqı bunu bütün ömrü boyu yadında saxlayacaq və bu, bizim tariximizə qızıl hərflərlə yazılacaqdır.

***Maryam LORDKİPANİDZE,***
***Gürcüstan akademiki***

* * *

Ola bilsin ki, bəzilərinin yadından çıxıb ki, lap bu yaxınlarda Azərbaycanda inflyasiyanın sürəti 50 faiz və bəlkə də çox idi. İndi isə bu göstərici 2,5 faizə enmişdir.

Siz inflyasiyadan yaxa qurtarırsınız – manatın sabitliyinə nail olmusunuz, son vaxtlar beynəlxalq bazarlarda onun mübadilə məzənnəsi artır. Son dərəcə qısa müddətdə əldə olunmuş bütün bu nailiyyətlər göstərir ki, belə işi dəstəkləmək lazımdır.

***Mişel KAMDESSÜ,***
***tanınmış maliyyəçi***

* * *

Heydər Əliyev dünya qarşısında xidmətlərinə görə, beynəlxalq aləmdə tanınmış siyasət və dövlət xadimi kimi, Gürcüstanın və gürcü xalqının dostu kimi bizə əziz və doğmadır. Qəzetlərimizin «polad iradəli Əliyev» yazdığı kimi, o, həqiqətən də polad iradəyə malik nadir şəxsiyyətdir. Məhz onun cəsarəti sayəsində Azərbaycan güclü, müstəqil, firavan bir ölkəyə çevrilməkdədir. Heydər Əliyev siyasət meydanına Azərbaycanın ağır, mürəkkəb vaxtında yenidən gəlmişdir, bir çox çətinliklərə sinə gərərək Azərbaycanı böhranlı vəziyyətdən xilas etmişdir.

... Bizim dostumuz, qardaşımız Azərbaycan prezidentinin qarşısında etiraf etmək istəyirəm ki, burada yaşayan azərbaycanlılara qarşı bir neçə il bundan əvvəl ədalətsiz hərəkətlərə yol verilmişdir. Mən Azərbaycan prezidenti Heydər Əliyevin yanında kişi kimi söz verirəm ki, o qara günlər Gürcüstanda bir daha təkrar olmayacaq.

***Eduard ŞEVARDNADZE,***
***Gürcüstan Respublikasının sabiq prezidenti***

* * *

Sizin bizə köməyiniz böyükdür. Türkmənistanın BMT-yə, İqtisadi ƏməkdaşlıqTəşkilatına daxil olmasında, bitərəf dövlət statusu almasında şəxsən Sizin köməyiniz əvəzsiz və böyükdür.



**Aleksandr Kvasnevski Polşa prezidenti kimi Heydər Əliyevlə görüşməkdən böyük qürur duyur.**



**Dünyanın siyasi düzəninin müəyyənləşməsində həlledici rol oynayan ABŞ da Azərbaycanın perspektivinə şübhə etmir. ABŞ-ın sabiq dövlət katibi Madlen Olbrayt Heydər Əliyevlə görüşlərə həmişə böyük diqqətlə yanaşıb və buna onun əsası var.**



Heydər Əliyev təkcə Azərbaycanın deyil, həm də bütün türk dünyasının tanınmış liderlərindən idi. Özbəkistan prezidenti İslam Kərimovla.



Qırğızıstan Azərbaycan üçün qardaş ölkədir. Əsgər Akayev prezident Heydər Əliyevlə hər görüşündə buna bir daha əmin olurdu.



Əziz qardaşım Heydər Əlirza oğlu, biz bundan sonra da qarşımıza çıxacaq hər bir məsələdə Sizinlə məsləhətləşərək bütün maneələri aradan qaldırmağa çalışacağıq.

***Saparmurad NİYAZOV,***
***Türkmənistan Respublikasının prezidenti***

* * *

Hər şey ilk növbədə sabitliklə bağlıdır və Azərbaycanda sabitliyin bərqərar olunması üçün şəxsən Sizin göstərdiyiniz xidmətlər əvəzsizdir.

***Lord Nikolas BETL,***
***Böyük Britaniyanın ictimai xadimi***

* * *

Siz çox əzəmətli bir qayanı xatırladırsınız.

***Uilyam UAYT,***
***ABŞ energetika nazirinin keçmiş birinci müavini***

* * *

Biz Sizin şəxsinizdə özümüzə dost və lider tapmışıq. Siz əsrlərdən bəri böyük tarixə malik olan bölgədə aparıcı mövqe tutursunuz, keçmiş Sovetlər Birliyində yüksək vəzifələrdə olmusunuz və buna görə də biz Sizin kimi bir xadimlə daim fikir mübadiləsi aparmaq istərdik.

***Fərrux Əhməd XAN LEQARİ,***
***Pakistan İslam Respublikasının keçmiş prezidenti***

* * *

Keçmiş Sovetlər İttifaqına daxil olmuş respublikalar arasında dövlət çevrilişi cəhdlərinin qarşısını almaq üçün ən yaxşı mexanizm Sizin rəhbərliyinizlə Azərbaycanda yaradılmışdır. Mən fikirləşirəm, dövlət çevrilişinə cəhd etmək istəyənlər gərək başa düşsünlər ki, onsuz da uğursuzluğa düçar olacaqlar. Çünki mən yaxşı bilirəm ki, Azərbaycanda xalq Sizi dəstəkləyir. Sizdə çox müdrik təşkilatçılıq qabiliyyəti var, ona görə də indi ölkənizdə hər şey maşın mexanizmi kimi işləyir.

... Azərbaycanın prezidentinə bizim dərin hörmətimiz var, onun siyasi karyerasını diqqətlə izləyirik və Azərbaycanda demokratik dəyişikliklərin aparılması, ölkənin bazar iqtisadiyyatına doğru addımlamasından ötrü göstərdiyi səyləri dəstəkləyirik. Bu proseslər – həm demokratik cəmiyyətin qurulması, həm də azad bazar münasibətlərinin yaradılması asan iş deyildir. Bundan ötrü vaxt gərəkdir. Biz bu işdə Azərbaycan prezidentini dəstəkləyirik və əminəm ki, Azərbaycan xalqı onun müdrik rəhbərliyi altında bu dəyişikliklərin bəhrəsini görəcəkdir.

***Benazir BHÜTTO,***
***Pakistan İslam Respublikasının keçmiş baş naziri***

* * *

Heydər Əliyev baxışlarına və təkliflərinə böyük əhəmiyyət verdiyimiz bir liderdir. Onun istər Qafqaz məsələlərinə, istərsə də regiondakı digər məsələlərə verdiyi qiyməti öyrənməkdən məmnun olacağam.

Dövlət rəhbərliyi sahəsində zəngin təcrübəsi olan Heydər Əliyevin ötən çətin dövrdə respublikaya başçılıq etməsinin həm Azərbaycan, həm də Qafqaz üçün böyük əhəmiyyəti var.

***Məsud YILMAZ,***
***Türkiyənin keçmiş baş naziri***

* * *

Prezident Heydər Əliyevin şəxsi səyləri nəticəsində Azərbaycanda siyasi sabitliyin yaranması, bazar iqtisadiyyatına keçidi başa çatdırmaq əzmi əməkdaşlığımızın səmərəli olacağını, qarşıya qoyduğumuz məqsədlərə çatacağımızı söyləməyə əsas verir.

***Klod BLANKİ,***
***Ümumdünya Bankının nümayəndəsi***

* * *

Mən sizə çox mühüm bir məsələni də söyləmək istəyirəm. O da mənim Azərbaycan prezidentinə olan çox yüksək hörmətimdir. Mən Azərbaycan prezidentinin qətiyyətini, məğrurluğunu çox yüksək qiymətləndirirəm. O, ölkəsinin müstəqilliyini, suverenliyini qorumaq sahəsində çox böyük qətiyyət göstərib.

***Xavyer SOLANA,***
***NATO-nun keçmiş baş katibi,***
***Avropa İttifaqının ali təmsilçisi***

* * *

Dünyanın görkəmli siyasi xadimi Heydər Əliyevi Norveçdə yaxşı tanıyırlar. Biz Sizin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və ölkə iqtisadiyyatının durmadan inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyiniz tədbirləri ürəkdən dəstəkləyirik.

***Harl NORVİNQ,***
***«Statoyl» şirkətinin keçmiş prezidenti***

* * *

Xarici neft şirkətlərinin Azərbaycan iqtisadiyyatında iştirakının təmin edilməsi sahəsində şəxsən Sizin göstərdiyiniz səylər böyük hörmət və ehtirama, marağa səbəb olubdur. Eyni zamanda, Siz ölkənizin Dövlət Neft Şirkətinin də inkişaf etməsinə çox böyük vaxt ayırır və diqqət yetirirsiniz.

***Yens STOLTENBERQ,***
***Norveçin keçmiş energetika və sənaye naziri***



* * *

Heydər Əliyev müdrik insandır.

Sizin ələ, hətta deyərdim ki, ensiklopedik yaddaşınız var. Qədim tarixdən, fəlsəfə, siyasət, ədəbiyyat və dilin müxtəlif istiqamətlərindən bu qədər adı, özü də bu qədər müasir adı yadda saxlamaq görünməmiş işdir. Heydər Əliyeviç, inanın mənə, bu məsələdə mən sizinlə yarışa bilmərəm və Sizə tay ola bilmərəm. Təkcə onu deyim ki, yalnız Sizə deyil, Azərbaycan xalqına da həsəd aparıram, çünki bu gün onun belə bir lideri var və o, öz yaddaşında hər şeyi saxlayır, ən başlıcası, onun dəqiq, aydın, ardıcıl siyasəti, mövqeyi var.

... Milyonlarla insanın taleyi həll olunduğu bir dövrdə tarix bütün dünyada tanınmış bəzi rəhbərləri geri qaytardı. Heydər Əliyev kimin xoşuna gəlsə də, gəlməsə də, bu gün dünya onu tanıyır və o, Azərbaycanın nüfuzunu bütün dünyada yüksəldən qanuni liderdir.

... Heydər Əliyev Sovetlər İttifaqı dağıldıqdan sonra təkcə Azərbaycanda deyil, digər regionlarda da hansı proseslərin baş verdiyini və bunların nəyə gətirib çıxardığını çox gözəl bilir. Zənnimcə, bu, çox mühümdür.

***İslam KƏRİMOV,***
***Özbəkistan Respublikasının prezidenti***

* * *

Cənab prezident, Siz bunu sübuta yetirmək üçün çox mühüm addımlar atmısınız ki, öz xalqınızın nurlu gələcəyinə nail olmaq üçün mümkün olan hər şeyi edirsiniz. Biz Vaşinqtonda olsaq da, burada ötən dövrdə baş verən bütün hadisələri araşdırır və bu qənaətə gəlirik ki, burada Azərbaycanda və bütün bölgədə böyük uğurlar əldə edilmişdir.

***Çarlz KÖRTİS,***
***ABŞ energetika nazirinin keçmiş müavini***

* * *

Müstəqilliyin qorunub saxlanması üçün Sizin göstərdiyiniz səylər ABŞ-da yüksək qiymətləndirilir və buna görə də Sizə çox böyük hörmət bəslənilir.

***Zbiqnev BJEZİNSKİ,***
***ABŞ prezidentinin sabiq müşaviri, məşhur politoloq və siyasi xadim***

* * *

Ukraynada hamı Sizi Ukraynanın böyük dostu, görkəmli siyasi xadim və dövlət xadimi kimi tanıyır və qiymətləndirir. Bu gün müstəqil dövlət yaradan Ukrayna prezident Heydər Əliyevin misilsiz təcrübəsinə çox arxalanır.

***Aleksandr TKAÇOV,***
***Ukraynanın tanınmış siyasətçisi***

* * *

Biz dost, qardaş Azərbaycanın rəhbərliyində Heydər Əliyev kimi şəksiz lideri görməkdən şərəf duyuruq.

*İsmayıl Haqqı QARADAYI,*
*Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının keçmiş rəisi, ordu generalı*

* * *

Azərbaycanda sabitliyin və iqtisadi yüksəlişin təminatçısı məhz prezident Heydər Əliyevdir.

*Georq KRUPP,*
*AFR-in «Doytse Bank»ı idarə heyətinin üzvü*

* * *

Siz öz müdrikliyinizlə bütün ərəb dünyasında məşhur olan bir şəxssiniz. Azərbaycan xalqı qarşısında xidmətləriniz bütün dünyaya bəllidir.

*Abdulla əl-BİNALİ,*
*Qızıl Aypara Cəmiyyətinin nümayəndəsi*

* * *

Mən Sizi görkəmli siyasi xadim, keçmiş Sovet İttifaqının rəhbərlərindən biri, indi isə yeni müstəqil Azərbaycanın başçısı kimi çoxdan tanıyıram.

*İqor RODİNOV,*
*Rusiya Federasiyasının keçmiş müdafiə naziri, ordu generalı, Dövlət Dumasının üzvü*

* * *

Sizin kimi böyük dövlət xadiminin yanında çalışmaq və Sizdən öyrənmək mənim üçün böyük şərəfdir.

*Jan Pyer KİNYUT,*
*Fransa Respublikasının Azərbaycandakı keçmiş səfiri*

* * *

Cənab prezident, mən Nyu-Yorkda Sizi Mərkəzi Asiyanın Corc Vaşinqtonu kimi təqdim etdim. Mən bunu ona görə bəyan etdim ki, ABŞ-ın yarandığı ilk illərdə Corc Vaşinqtonun göstərdiyi cəsarət, səylər kimi Siz də Azərbaycanın müstəqilliyinin ilk illərində cəsarət, qətiyyət, mərdlik göstərmisiniz. İki boru kəmərinin çəkilməsi barədə qərarın məhz Sizin şəxsi qətiyyətinizin nəticəsi olduğunu bütün amerikalılar yaxşı bilirlər. Lakin çox az amerikalı bilir ki, Siz Ermənistana, Gürcüstana və digər keçmiş sovet respublikalarına qayıdan rus əsgərinin Azərbaycanda da yerləşdirilməsi iddialarına qarşı çıxdınız və öz qətiyyətinizlə bundan imtina etdiniz.

Biz belə qərara gəlmişik ki, vətənə qayıtdıqdan sonra həmkarlarımızı ətraflı məlumatlandıraq ki, Siz regionda sülhün və sabitliyin bərqərar olması üçün böyük işlər görürsünüz.



*Qreq LAFLİN,*
*ABŞ siyasi xadimi*

* * *

Bakıda çoxlu yeniliklər nəzərə çarpır, avtomobillərin, xüsusi ofislərin sayı artıbdır. Biz buna şad olduq və hesab edirik ki, bunlar Sizin Azərbaycana yeniliklər gətirən siyasətinizin nəticəsidir.

*Don STEYSİ,*
*məşhur neft maqnatı*

* * *

Biz Heydər Əliyevlə çoxdan tanışıq, bir-birimizi on illərdir tanıyırıq. Heydər Əliyev Kremldə işləyərkən mən, adətən, onun yanına dəstək almaq üçün gedirdim. Heydər Əliyev Moskvada xəstəxanaya düşərkən mən ona birincilər sırasında baş çəkdim. Heydər Əliyevə ağır itki üz verərkən – o, həyat yoldaşını dəfn edəndə mən onunla idim.

İndi başqa zamandır. Hesab edirəm ki, Azərbaycan xalqı Heydər Əliyevi dövlətə başçılıq etməyə çağırmaqla düzgün hərəkət etmişdir.

*Nursultan NAZARBAYEV,*
*Qazaxıstan Respublikasının prezidenti*

* * *

Heydər Əliyev kimi bacarıqlı və xalqını ürəkdən sevən prezidentin rəhbərlik etdiyi ölkədə hər şeyi insan naminə və insanın rifahı naminə həll etmək mümkündür.

*Bakı və Stavropol Mitropoliti GEDEONU*

* * *

Dağlıq Qarabağla bağlı faciəli münaqişəyə və ölkənin bazar iqtisadiyyatına əsaslanan demokratik cəmiyyət qurduğu keçid dövründəki siyasi və iqtisadi problemlərinə baxmayaraq, cənab prezident, Siz Azərbaycanın daxilində sabitlik yaradılmasına, respublikanın beynəlxalq aləmdə ta-

nınmasına, ehtiram qazanmasına nail olmusunuz. Azərbaycanın müstəqilliyini möhkəmlətmiş, beynəlxalq neft müqavilələri sayəsində onun iqtisadi cəhətdən uğurlu gələcəyini təmin etmisiniz. Bunlar böyük dövlət xadiminə xas olan nailiyyətlərdir.

***Mixael ŞMUNK,***
***Almaniya Federativ Respublikasının Azərbaycandakı keçmiş səfiri***

* * *

Son illərdə Sizin rəhbərliyinizlə hər gün Azərbaycan qurulur. Azərbaycanda demokratik təsisatlar mövcuddur. İldən-ilə Azərbaycan müasir hüquqi dövlətlərin əsasını təşkil edən qanunlar işləyib hazırlayır, iqtisadi islahatlar aparır. Bu islahatlar dünənki rejimdən firavanlığın perspektivini açan sistemə keçmək üçün gərəkdir. Azərbaycanda görülən bu çox böyük işdə hər bir kəs Sizin şəxsi, çox mühüm və əhəmiyyətli rolunuzu bilir. Cənab prezident, Sizin yüksək rəhbərliyiniz altında aparılmış çox böyük işləri gördükdə keçirdiyimiz heyranlıq hisslərini çatdırmaq istəyirəm.

***Erve de ŞARETT,***
***Fransanın keçmiş xarici işlər naziri***

* * *

Biz qardaş Azərbaycanın inkişafını diqqətlə izləyirik, vəziyyətin yaxşılığa doğru necə kəskin surətdə dəyişdiyini görürük. Bu dəyişikliklər Sizin adınızla bağlıdır. Sizin böyük təcrübəniz, yüksək nüfuzunuz ölkəniz üçün, xalqımız üçün bu çətin dövrdə çox kara gəlmişdir.

***Omirbek BAYGELDIN,***
***Qazaxıstan Parlamenti Senatının keçmiş sədri***

* * *

Sizin kimi insanlar bütün həyatını ölkəyə, xalqa rəhbərliyə həsr ediblər. Onlar azadlığın nə olduğunu, buna yetməyin necə çətin olduğunu gözəl bilirlər.

***Federiko MAYOR,***
***YUNESKO-nun baş direktoru***

* * *

Bu regionda mövcud olan hər hansı problemin həllinə, o cümlədən indi Rusiyanın qarşılaşdığı çox ağır münaqişəyə, ümumiyyətlə, düzgün yanaşmaq üçün Heydər Əliyevlə görüş son dərəcə böyük əhəmiyyətə malikdir. Heydər Əliyevin müqəddəm tarixə dair nadir biliyini müasir zaman hissi ilə heyrətamiz surətdə əlaqələndirməsini qeyd etmək istəyirəm. Yəni bu, mütləq dərəcədə nadir təcrübədir. Elə bir təcrübə ki, bu gün hamının qarşılaşdığı çox çətin problemlərdən çıxmağa həqiqətən kömək edə bilər.

***Boris BEREZOVSKİ,***
***MDB-nin sabiq icraçı katibi***



* * *

Mən Heydər Əliyevi bir insan, bir rəhbər kimi, deyərdim ki, iki keyfiyyətdə tanıyıram. Əlbəttə, bir adam dövlətin, xalqın tarixini bir gündə, bir dövr ərzində yarada bilməz. Bunun üçün xalqımızın bir çox nəsilləri, bir çox rəhbərləri böyük əziyyət çəkmişlər. Lakin məhz Heydər Əliyevin o illərdə respublikanı yüksəltməsi və xalqın nüfuzunu qaldırması, o sistem şəraitində gördüyü işlər bizim hamımızda, eləcə də məndə heyranlıq hissləri, bəlkə də bir qədər qibtə hissi oyatmışdır.

Biz tarixi bir məqamın şahidləriyik. Çünki hesab edirik ki, insanı hələ sağlığında ikən layiqincə qiymətləndirmək, onun qədrini bilmək qeyri-mümkündür. Axı bir ara iş elə gətirdi ki, Azərbaycan xalqı müəyyən dövrdə Əliyevi, təəssüflər olsun ki, itirdi. Bu itkinin qiymətinin nə demək olduğunu hamı hiss etdi. Mən qəti əminəm ki, dövlət rəhbəri üçün bütün lazımi keyfiyyətlərə malik belə çox zəngin təcrübəli insan məhz həmin dövrdə – bütün cəmiyyətin yenidən qurulduğu bir dövrdə son dərəcə gərək idi.

***Mintimer ŞAYMİYEV,***
***Tatarıstan Respublikasının prezidenti***

* * *

Cənab prezident, biz bilirik ki, Azərbaycanda siyasi vəziyyətin sabitləşdirilməsində Sizin həyat təcrübənizin böyük köməyi olmuşdur. Biz onu da bilirik ki, Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək üçün Siz olduqca gərgin iş aparırsınız.

***Don STEYSİ,***
***məşhur neft maqnatı***

* * *

Azərbaycan xalqı həqiqətən bəxtəvərdir ki, Sizin kimi lideri vardır. Azərbaycan Sizin rəhbərliyinizlə, dünya hadisələrini görmək bacarığımızla fəxr edir və edəcəkdir.

***Marti MİLLER,***
***«Yunokal» şirkətinin keçmiş vitse-prezidenti***

* * *

Sizin müdrik siyasətiniz və rəhbərliyiniz altında imzalanmış tarixi müqavilələr keçmiş Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycanın siyasi və hüquqi baxımdan ən sabit ölkələrdən biri olduğunu dünyaya nümayiş etdirdi.

Azərbaycanda hüquqi, maliyyə və siyasi sahədə mövcud olan möhkəm sabitlik Sizin öz xalqınıza göstərdiyiniz ən böyük xidmətdir. Bu gün istər neft sahəsində işləyən, istərsə də başqa yönümlü bir çox xarici şirkətlər Azərbaycana sərmayə qoyuluşunu öz ölkələri kimi eyni dərəcədə

təhlükəsiz hesab edirlər. Siz bütün xalqınızı bolluca və firavan həyata apara bilən cəlbedici iqtisadi şərait yaratmısınız. Məhz buna görə də gələcək nəsillər Sizin misilsiz xidmətlərinizi heç vaxt unutmayacaqlar.

***Bədr əl-EYBAN,***
***«Delta» (Səudiyyə Ərəbistanı) şirkətinin prezidenti***

* * *

Türkiyə xalqı əmindir ki, zəngin təcrübəyə malik Heydər Əliyev kimi şəxsiyyət Azərbaycana rəhbərlik etdiyinə görə bu ölkənin müstəqilliyi daimi olacaqdır.

***Necati ÇETİNQAYA,***
***Türkiyə Böyük Millət Məclisinin sabiq üzvü***

* * *

Azərbaycan xalqının əsl xoşbəxtliyi ondan ibarətdir ki, xalqın, dövlətin ən çətin, böhranlı vaxtında görkəmli siyasətçi, böyük şəxsiyyət cənab Heydər Əliyev məsuliyyəti öz üzərinə götürmüşdür.

— Siz özünüzə tayı-bərabəri olmayan abidə, əsrlər boyu yaşayacaq əbədi abidə yaradırsınız. Bu abidənin adı Azərbaycandır, – tərəqqi edən, yeni, xoşbəxt Azərbaycan.

***Eduard ŞEVARDNADZE,***
***Gürcüstan Respublikasının sabiq prezidenti***

* * *

Dövlət başçısı kimi Siz ölkənizin inkişafının siyasi və iqtisadi məsələlərinin, beynəlxalq problemlərin həllində müdriklik göstərirsiniz. Siz Zaqafqaziya regionunda, Avropa qitəsində və dünyada layiqli yer tutan Azərbaycanın şöhrətini öz fəaliyyətinizlə artırmısınız.

***Leonid KUÇMA,***
***Ukrayna Respublikasının prezidenti***

* * *

Biz Sizi Azərbaycan millətinin fitri istedada malik oğlu kimi tanıyırıq. Elə bir oğul ki, o, Azərbaycan dövlətçiliyinin inkişafına əvəzsiz töhfə vermişdir. Biz Sizi həm də sovet xalqının dahi oğlu kimi xatırlayırıq. Elə bir oğlu ki, keçmiş dövlət rəhbərlərindən biri olarkən onun bütün xalqlarının inkişafına böyük töhfə vermişdir.



**Türkiyənin dəmir ledisi Tansu Çillər Heydər Əliyevi böyük siyasətçi kimi qəbul edir.**




**Türkiyənin baş naziri Məsud Yılmaz Azərbaycana səfərə gələrkən.**



Saparmurad Niyazov Azərbaycan prezidenti Heydər Əliyevlə.



Moldovanın keçmiş prezidenti Petru Luçinski ilə.



Müəyyən bir mərhələdə indi bizim hüquqi varisi olduğumuz Ümumittifaq İnstitutunu ləğv etməyi qərara almışdılar. İnstitutun o vaxtkı rəhbərliyi bizə kömək etmək xahişi ilə Heydər Əliyevə müraciət etdi. Bu fəaliyyət sahəsinə baxan Heydər Əliyev həmişəki kimi müdrik bir qərar qəbul etdi və institutumuzu dinc buraxdılar.

***Oleq KUTAFİN,***
*tanınmış alim*

* * *

Cənab prezident, əgər bu ölkədə sülhü bərqərar etmək üçün sülh medalı təsis edilməsi nəzərdə tutularsa, mənim fikrimcə, bu medal mütləq Sizə çatmalıdır. Çünki bu yolda Sizin qədər əzmlə işləyən yoxdur.

***Allen VAYNŞTEYN,***
*ABŞ-ın tanınmış siyasi xadimi*

* * *

Azərbaycan xalqı xoşbəxtdir ki, Heydər Əliyev kimi zəngin təcrübəyə malik siyasətçi, rəhbər, müdrik insan belə çətin bir dövrdə yenidən Azərbaycana rəhbərlik etməyə başladı. Biz görürük ki, onun iqtisadi islahatlar siyasəti, ölkənin daxilində vəziyyətin sabitləşməsinə yönəldilmiş siyasəti öz bəhrələrini verir.

***Əsgər AKAYEV,***
*Qırğızıstan Respublikasının prezidenti*

* * *

Sizə çox sağ olun deyirəm ki, olduqca böyük bir iş görmüsünüz – xalqı öz ölkəsinin sahibi etmisiniz, bütövlükdə ölkədə böyük dəyişikliklər edib, onun nüfuzunu yüksəltmisiniz. Bunun misli yoxdur. Siz böyük insansınız. Elə bir insan ki, müharibəni dayandırmışdır, öz xalqını, bu torpaqda sülhü, əmin-amanlığı qoruyub saxlayır.

***Mstislav ROSTROPOVİÇ,***
*məşhur musiqiçi, görkəmli ictimai xadim*

* * *

Azərbaycanın bugünkü səviyyəyə gəlib çatmasında böyük dövlət adamı, əziz qardaşım prezident Heydər Əliyevin müdrik rəhbərliyinin mühüm rol oynadığı şübhəsizdir. Qardaşım Heydər Əliyevin dövlət adamı kimi xüsusiyyətləri, istedadı və təcrübəsi Azərbaycanda demokratikləşmə prosesinin sürətləndirilməsinə, bu ölkənin dünya birliyi ilə sıx inteqrasiyasına çox böyük kömək etmişdir.

***Süleyman DƏMİRƏL,***
*Türkiyənin 9-cu prezidenti*

* * *

Beynəlxalq birlik beynəlxalq neft sənayesinin ölkəyə cəlb olunmasına, kapitalın Azərbaycanın rifahı naminə işləməsinə Sizin şəxsi töhfənizə böyük hörmət və maraqla yanaşır. Sizin səyləriniz Xəzər bölgəsində sabitliyə kömək göstərir.

***Ranveyq FROYLAND,***
***Norveçin sabiq neft və energetika naziri***

* * *

Mən Azərbaycan xalqının tarixinin çətin məqamında təcrübəli siyasətçi Heydər Əliyevin ölkəyə rəhbərliyə gəlməsinin qanunauyğunluğunu bir daha nəzərə çarpdırmaq istəyirəm. Onun düşünülmüş, təmkinli xətti, müdrikliyi, eyni zamanda qətiyyəti istər daxili vəziyyətdə, istərsə də Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmlənməsində qısa bir vaxtda yaxşılığa doğru əsaslı dönüşə nail olmağa imkan vermişdir. O, Azərbaycan xalqını birləşdirə, onun qüvvələrini quruculuq proseslərinə yönəldə bilmişdir.

***İslam KƏRİMOV,***
***Özbəkistan Respublikasının prezidenti***

* * *

Azərbaycan xalqı xoşbəxtdir ki, onun Sizin kimi müdrik və səriştəli prezidenti var. Xalqlarımızın böyük çətinliklərlə üzləşdiyi keçid dövründə dövlətlərimiz qarşısında duran böyük problemləri yalnız Sizin kimi müdrik rəhbərlər həll edə bilərlər.

***Bütün Gürcüstanın katolikos-patriarxı,***
***II İlya***

* * *

Görkəmli şəxsiyyət kimi Sizdən vaxtilə çox şey öyrənmişik və zəngin təcrübəyə malik müdrik dövlət başçısı kimi bu gün də Sizdən çox şey öyrənirik.

***Valeri SEROV,***
***Rusiya Federasiyası nazirinin keçmiş müavini***

* * *

Heydər Əliyevin başçılığı ilə qısa müddətdə ölkədə yaranmış sabitlik və dəyişikliklər mənə böyük təsir göstərdi.

***Mauritsio de Mariya i KAMPOS,***
***BMT-nin Sənaye İnkişafı Təşkilatının (YUNİDO)***
***keçmiş baş direktoru***



* * *

Azərbaycan çox mühüm ölkədir, Siz çox görkəmli lidersiniz. Amerikada bunu getdikcə daha dərindən başa düşürlər. Elə buna görə də Azərbaycan – Amerika münasibətlərinin yalnız ikitərəfli deyil, həm də böyük regional, strateji əhəmiyyəti var.

Sizinlə söhbətlərimdən çox bəhrələnmişəm. Çünki ABŞ üçün mühüm olan ölkələr haqqında Sizin geniş məlumatınız var.

***Zbiqnev BJEZİNSKİ,***
***ABŞ prezidentinin sabiq müşaviri,***
***məşhur politoloq***
***və siyasi xadim***

* * *

Sizin tutduğunuz prinsipial mövqe Amerikada, onun dövlət strukturlarında, rəsmi dairələrində, eləcə də ictimaiyyətdə böyük ehtiram və rəğbət hissi yaratmış, Azərbaycana olan marağı və diqqəti daha da artırmışdır.

...Amerika Azərbaycanda qüdrətli, müstəqil dövlət qurulması istiqamətində edilən səyləri güclü surətdə dəstəkləyir. Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan müstəqilliyindən irəli gələn vəzifələrin həllində əhəmiyyətli tərəqqi əldə edibdir. Amerika bu tərəqqinin davam etməsini arzulayır.

***Bill KLİNTON,***
***ABŞ-ın sabiq prezidenti***

* * *

Biz keçmiş dövrdə də öz ölkəsinə rəhbərlik edən, indi dərin siyasi və iqtisadi dəyişikliklər aparmaqda davam edən və ölkəsini əsl yeni müstəqil dövlət kimi irəliyə aparan, bütün regionda çox önəmli liderlik rolu oynayan bir şəxsiyyətin fikirləri ilə tanış olmaq imkanı əldə etdiyimizə görə dərin minnətdarlığımızı bildiririk.

***Maykl KELLİ,***
***məşhur ictimai-siyasi xadim***

* * *

Öz azadlığını, müstəqilliyini qorumaq yolu, demokratiya, azadlıq yolu ilə irəliləyərkən Azərbaycan çox böyük çətinliklərlə qarşılaşıb və bundan sonra da qarşılaşacaqdır. Lakin biz qəti surətdə əminik ki, Azərbaycan Heydər Əliyevin rəhbərliyi altında qətiyyətini bundan sonra da göstərərək öz dövlət müstəqilliyini əldən verməyəcəkdir.

***Riçard ARMİTAÇ,***
***ABŞ dövlət katibinin***
***birinci müavini***

* * *

1994-cü ildə biz Bakıya ayaq basanda Azərbaycanda müharibə gedirdi, ölkənin gələcəyi qaranlıq idi, dumanlı görünürdü. Prezident Heydər Əliyevin liderliyi sayəsində müharibədə atəşkəs əldə olunubdur və bu atəşkəs indiyədək davam etməkdədir. Amerika şirkətləri üçün biznes imkanları get-gedə artmaqdadır. Bütün bunlar Azərbaycan hökumətinin açıq siyasət yeritməsi nəticəsində mümkün olmuşdur. Biz bütün bunlar üçün prezident Heydər Əliyevə minnətdar olmalıyıq.

Arzu edirəm ki, görkəmli lider, prezident Heydər Əliyevin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün göstərdiyi səylər müvəffəqiyyətlə həyata keçsin.

***Riçard KOZLARİÇ,***
***ABŞ-ın Azərbaycandakı keçmiş səfiri, keçmiş dövlət katibi S.Talbottun sabiq birinci müavini***

* * *

Cənab Heydər Əliyev Azərbaycanın dövlət başçısı kimi uzaqgörənlik, müdriklik göstərərək Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün çox böyük səylər qoymuşdur. Sülhün əldə olunması üçün gördüyü gərgin işlərlə bərabər ölkənin iqtisadiyyatının bərpa olunmasına və canlandırılmasına da böyük həvəslə başlayan prezident Heydər Əliyev Azərbaycanın qapılarını dünya birliyinin üzünə açmış və xarici şirkətlərin sərmayə qoymaları üçün hər cür şərait yaratmışdır.

Prezident Heydər Əliyev Azərbaycanın demokratik inkişafını təmin etmək məqsədilə demokratik təsisatların yaradılması sahəsində göstərdiyi xidmətləri xüsusi qeyd etmək istəyirəm. Cənab Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi və liderliyi artıq öz bəhrələrini verməkdədir.

***Riçard ARMİTAÇ,***
***ABŞ dövlət katibinin birinci müavini***

* * *

Birgə fəaliyyətiniz zamanı göstərdiyiniz cəsarəti, qorxmazlığı və liderliyinizi biz hamımız yüksək qiymətləndiririk. İcazə verin, Azərbaycanın gələcək inkişafının və çiçəklənməsinin özül daşı hesab etdiyim bəzi amillər barədə fikirlərimi Sizinlə bölüşüm. Bu amillər, zənnimcə Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında sıx əməkdaşlığın inkişaf etməsindən, Sizin yeritdiyiniz siyasətin dəstəklənməsindən, ölkənizdə sabitliyin – sabit hökumətin, sabit iqtisadiyyatın mövcud olmasından və regional əlaqələrin genişləndirilməsindən ibarətdir. Azərbaycanın tərəfdaşı və dostu olan ABŞ-ın Energetika Nazirliyi Sizin siyasətinizin həyata keçirilməsində iştirak etməkdən məmnunluq duyur. Ölkənizdə sabitliyi bərqərar etməklə Siz ABŞ-da dərin hörmət və ehtiram qazanmısınız.

***Federiko PENYA,***
***ABŞ-ın keçmiş energetika naziri***



* * *

Siz qısa bir dövr ərzində Azərbaycanı sürətlə irəli aparmaq istiqamətində siyasət yeritmisiniz və bu siyasət uğurla həyata keçirilibdir. Siz həm iqtisadi, həm də siyasi sahədə siyasətinizi həyata keçirərkən çox böyük qətiyyət göstərmisiniz. Siz bu ölkəni asılılıqdan müstəqil dövlətə çevirmisiniz. Siz hesab edirsiniz ki, iqtisadi asılılıq, dövlətin zəifliyi onu keçmişə çəkir. Məhz buna görə də çox ciddi səylər göstərərək ölkənizdə özəlləşdirmə aparmaqla, azad sahibkarlığı inkişaf etdirməklə iqtisadi dirçəlişə nail olmaq yolu tutmusunuz. Siz Azərbaycanın qarşısında duran şərəfli vəzifələrin həyata keçirilməsi üçün xarici investisiyaların nə qədər əhəmiyyətli olduğunu gözəl dərk edərək xarici şirkətlərin buraya gətirib investisiya qoymasına imkan yaratmısınız. Biz əminik ki, bu, asan məsələ olmayıb və həmin missiya hələ başa çatmayıb.

Sizin bu mövqeyiniz onunla nəticələnib ki, Sizə qarşı həm ölkənizdə, həm də qonşularınız tərəfindən hücumlar olubdur. Nə qədər hücumlara məruz qalsanız da, biz Sizi yaxşı tanıyır və bilirik, – hesab edirsiniz ki, dəyərli məqsədə nail olmaq həmişə risk və ağıl tələb edir.

***Rza VƏZİRİ,***
***Azərbaycan – Amerika Ticarət Palatasının həmsədri***

* * *

Siz ABŞ-ın böyük dostu, islahatçısınız, ölkənizin böyük gələcəyi var və biz Sizin ölkə ilə əlaqə yaratmaq istəyirik.

***Uilyam RİÇARDSON,***
***ABŞ diplomatı***

* * *

Cənab Heydər Əliyev Azərbaycanda və keçmiş Sovetlər İttifaqında çox layiqli dövlət xidmətləri olan bir şəxsiyyətdir.

***Samir SAMBAR,***
***BMT baş katibinin keçmiş müavini***

* * *

Azərbaycanın digər ölkələrlə müqayisədə iqtisadi islahatlara gec başlamasına baxmayaraq, 1994-cü ildən etibarən Azərbaycan həm iqtisadi, həm də siyasi dəyişikliklərin həyata keçirilməsində çox böyük tərəqqi əldə edibdir. Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda daxili siyasi vəziyyət tamamilə sabitləşibdir. Azərbaycan öz xarici siyasətini – sülhsevər siyasətini davam etdirərək qonşu dövlətlərlə sülh münasibəti yaradıb, bölgədə sülhün bərqərar olunmasına öz töhfələrini verərək keçid dövründə bu regionun inkişafına əlindən gələn köməyi edibdir.

***Con PAKHON,***
***«Cİ-Pİ Morqan» Bankının icraçı direktoru***

* * *

Sizin uzaqgörən siyasətiniz nəticəsində Azərbaycan ilə Amerika arasında çox yüksək səviyyədə münasibətlər qurulmuşdur. Bu əlaqələri Siz yaratmısınız.

***Robert LANYER,***
***ABŞ-ın tanınmış dövlət xadimlərindən biri***

* * *

Sizin mənalı ömür yolunuz və görkəmli şəxsiyyət olmağınız bizə yaxşı məlumdur.

***Benyamin NETANYAHU,***
***İsrailin sabiq baş naziri***

* * *

Biz əminik ki, məhz Sizin müdrik siyasətiniz nəticəsində respublikanız tezliklə dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevriləcəkdir.

***Robert GELVİN,***
***tanınmış iş adamı***

* * *

Cənab Heydər Əliyev müdrikliyi və uzaqgörənliyi ilə məşhurdur. O, ölkəsi üçün böyük işlər görüb, Azərbaycan respublikasını iqtisadi və siyasi azadlığa qovuşdurub.

***Mak KLANQ,***
***məşhur ABŞ biznesmeni***

* * *

Cənab prezident, Siz dünyada çox nadir rəhbərlərdən birisiniz. Siz keçmiş sovet hökuməti vaxtında Azərbaycana rəhbərlik etmisiniz və SSRİ-nin rəhbərlərindən biri olmusunuz. Respublikanı köhnə sistemdən çıxararaq Azərbaycanı demokratik, azad bazar iqtisadiyyatı olan bir ölkəyə çevirmisiniz. Sizin rəhbərlik qabiliyyətiniz və ölkənizin təbii sərvətləri, bacarıqlı işçi qüvvəsi Azərbaycanın demokratik bir ölkəyə çevrilməsində mühüm rol oynayıb.

***Donald FAYTS,***
***ABŞ-ın məşhur iş adamı***

* * *

Çox xoşbəxtəm ki, cənab prezident Heydər Əliyev qonağımızdır. Bu, bizim üçün böyük şərəfdir, çünki cənab prezident, Sizin şəxsiyyətiniz Azərbaycanın hüdudlarından çox-çox uzaqlara çıxır. Siz bütün dünyada məşhursunuz.

***Anjey ARENDARSKİ,***
***Polşanın tanınmış dövlət xadimi***



* * *

Sizin fəaliyyətinizi böyük diqqətlə izləyirik. Əvvəlki illərdə Azərbaycanda qeyri-sabitlik var idi. Lakin Siz hakimiyyətə gələndən sonra ölkənizdə vəziyyət əsaslı şəkildə sabitləşmiş və normal hala düşmüşdür.

***Oskar Luici SKALFARO,***
***İtaliyanın keçmiş prezidenti***

* * *

Sizin müdrikliyiniz, təcrübəniz və uzaqgörənliyiniz bizim üçün çox qiymətlidir. İtaliya görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda hüquqi-demokratik dövlət quruculuğu və iqtisadi islahatların müvəffəqiyyətlə həyata keçirilməsi sahəsində əldə edilmiş uğurları diqqətlə izləyir və dəstəkləyir.

***Romano PRODİ,***
***İtaliyanın keçmiş baş naziri***

* * *

Amerika Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini dəstəkləməkdə davam edir. Geniş səpkili əlaqələri inkişaf etdirməklə biz Amerika – Azərbaycan əməkdaşlığını genişləndirəcək, əbədi olaraq suveren və çiçəklənən Azərbaycan dövlətinin qurulmasında Heydər Əliyevin səylərinə kömək etməkdə davam edəcəyik.

***Bill KLİNTON,***
***ABŞ-ın keçmiş prezidenti***

* * *

Mən Azərbaycan Respublikası başçısının fikirlərini bir neçə dəfə dinləmişəm və bu qənaətə gəlmişəm ki, cənab Heydər Əliyev dediyinə əməl edən, ideyalarını həyata keçirməyi bacaran sözübütöv şəxsiyyətdir. Onunla söhbətdən bir daha əmin olduq ki, Azərbaycanda genişmiqyaslı dəyişikliklər gedir və bu dəyişikliklər iqtisadi əməkdaşlıq üçün geniş imkanlar açır.

***Pyer VAYL,***
***fransalı məşhur biznesmen***

* * *

Biz Sizin müdrik, uzaqgörən, təcrübəli bir dövlət rəhbəri olduğunuzu yaxşı bilirik. Mən şadam ki, müasir dövrün böyük şəxsiyyətlərindən, liderlərindən biri olan Heydər Əliyevlə görüşmək şansı qazanmışam.

***TESMA,***
***İtaliyalı biznes adamı***

* * *

Biz Azərbaycan prezidentinin fəaliyyətini, ölkənin beynəlxalq təşkilatlarla əməkdaşlığını, Azərbaycanın investisiyalar üçün açıq olmasını yüksək qiymətləndiririk. Bütün bunlar cənab Heydər Əliyevin şəxsi xidmətləridir.

***Jak SANTER,***
*Avropa Birliyinin nümayəndəsi*

* * *

Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan qısa müddətdə böyük nailiyyətlər əldə etmişdir.

***Robert HANTER,***
*ABŞ diplomatı*

* * *

Azərbaycan müstəqillik qazandıqdan sonra ciddi daxili və xarici problemlərinə baxmayaraq, çox qısa müddətdə böyük nailiyyətlər əldə etmişdir. Azərbaycanın hörmətli prezidenti olaraq qabiliyyətli şəxsiyyətsiniz, bəsirətiniz və vətənpərvərliyiniz sayəsində Siz Azərbaycana, bölgəmizə, türk dünyasına və beynəlxalq birliyə böyük xidmətlər göstərmisiniz. Azərbaycanda sabitlik və əmin-amanlıq bərqərar olunmuşdur, ölkəniz demokratiya yolu ilə irəliləyir, müstəqilliyiniz və dövlətçiliyiniz günü-gündən möhkəmlənir. Azərbaycanın beynəlxalq aləmdə etibarlı yeri vardır və Azərbaycan beynəlxalq birliyin ən çox maraq göstərdiyi ölkələrdən birinə çevrilmişdir.

Siz Türkiyə ilə Azərbaycan arasında münasibətlərin inkişaf etməsi üçün çalışmış, böyük xidmətlər göstərmisiniz. Biz bunları minnətdarlıq hissi ilə qeyd edirik. Türkiyə Cümhuriyyəti və xalqı Sizi və Azərbaycanı ürəkdən sevir, alqışlayır.

***Osman Faruq LOĞOĞLU,***
*Türkiyənin Azərbaycandakı keçmiş səfiri*

* * *

Məhz prezident Heydər Əliyevin müdrikliyi sayəsində Rusiya Çeçenistan Neft Şirkəti ilə problemi aradan qaldırmağa müvəffəq olmuşdur və bundan sonra iş ilişib qaldığı nöqtədən çıxaraq irəliləmişdir. Buna isə çoxları inanmırdı.

***Boris NEMTSOV,***
*Rusiya Federasiyası baş nazirinin keçmiş birinci müavini, Dövlət Dumasının deputatı*

* * *

Heydər Əliyev 30 ildən çoxdur ki, öz ölkəsinin, eləcə də başqa ölkələrin həyatına həlledici, müsbət təsir göstərir. Mən Azərbaycan müstəqillik qazandıqdan onun oynadığı rolu xüsusi qeyd etmək istəyirəm.



**Böyük Britaniya ilə müttəfiq olmaq həqiqətən böyük uğurdur. Bunu keçmiş baş nazir Marqaret Tetçer də yüksək qiymətləndirmişdi.**



**Heydər Əliyev hər zaman Haqqın yolunda olub.**



Iordaniya məliki Hüseyn ibn Təlal ilə görüşərkən.



Azərbaycan Gürcüstan üçün çətin günlərin dostudur. Prezident Heydər Əliyevlə prezident Eduard Şevardnadze.



Prezident Heydər Əliyev bu yolla öz xalqına xas təmkin və cəsarətlə gedir. «Əsrin müqaviləsi» ideyasının yaranmasından tutmuş ilkin neftin nəqlinədək bu müqavilənin, əslində, bütün təfərrüatına yaxşı bələd olduğuma görə, prezident Heydər Əliyevə göstərdiyi müdriklik və uzaqgörənlik üçün minnətdarlığımı ifadə etmək istəyirəm. Bu müdriklik, uzaqgörənlik olmasaydı, belə nəhəng layihə çətin ki, baş tutardı.

***Eduard ŞEVARDNADZE,***
***Gürcüstan Respublikasının sabiq prezidenti***

* * *

Şəxsən Sizin qətiyyətiniz, cəsarətli səyləriniz sayəsində Azərbaycan dünya birliyinə daha sıx bağlanmaqdadır və Azərbaycanda sülh, əmin-amanlıq bərqərar olmuşdur. Siz beynəlxalq tərəfdaşlarımızla bərabər müstəqil Azərbaycan dövlətinə inamınızı nümayiş etdirmisiniz. Sizin göstərdiyiniz cəsarət və qeyri-müəyyənlik dövründə atdığınız riskli addımlar bizim hamımıza yaxşı nümunədir.

***Hans ÜBERŞER,***
***Almaniya federal prezidentinin və federal kanslerinin sabiq xüsusi nümayəndəsi***

* * *

Azərbaycanda iqtisadi tərəqqinin baş verməsində Heydər Əliyevin böyük rolu olmuşdur. O, ölkədə sosial və iqtisadi sabitlik yaratdı. Siz bütün bunların, keçid dövrünün şahidlərisiniz və bilirsiniz ki, bu, necə çətin bir məsələdir.

***Betti BLEYER,***
***«Az-İnterneşnl» jurnalının baş redaktoru***

* * *

Azərbaycan xalqı fəxr edə bilər ki, prezident Heydər Əliyevin rəhbərliyi altında özünün hazırki tarixini yazır, həqiqətən öz fəaliyyətinə nəzarət edir. Prezident Heydər Əliyev Azərbaycanın neft sənayesinin yenidən yüksəlişinə və Azərbaycan xalqının yenidən dirçəlməsinə rəhbərlik edir. Azərbaycanın həyatında kəskin dəyişikliklər baş verir və bu ölkənin neft sənayesinin də inkişafına gətirib çıxarır.

***Tomas KLOKENBRİNK,***
***Abşeron əməliyyat şirkətinin sabiq prezidenti***

* * *

Azərbaycanda hökm sürmüş qarmaqarışıqlıqdan, toqquşmalardan, müharibədən sonra burada baş vermiş dəyişikliklər, yenidənqurma işləri ancaq Sizin kimi çox müdrik, səbrli, cəsur insa-

nın rəhbərliyi sayəsində mümkün olmuşdur. Bu dəyişikliklər göz qabağındadır, onlara Azərbaycan iqtisadiyyatının inkişafına dair göstəricilər də sübutdur.

***Petru LUÇİNSKİ,***
***Moldova Respublikasının keçmiş prezidenti***

* * *

Siz Sovetlər Birliyində ən böyük vəzifələrdə çalışanda mən Sizinlə fəxr edirdim, Sizin hər bir müvəffəqiyyətinizə qəlbən sevinirdim. Yaxşı bilirəm ki, Siz Sovetlər Birliyinin rəhbərlərindən biri olan ilk müsəlman idiniz.

***Hafiz ƏSƏD,***
***Suriyanın keçmiş prezidenti***

* * *

Biz hamımız Sizin müdrik siyasətiniz və fəaliyyətinizlə fəxr edirik. Məhz Sizin uzaqgörən siyasətiniz nəticəsində Azərbaycanın regional mərkəzə çevrilməsi bizi ürəkdən sevindirir.

***Rəşid Abdulla əl-NƏİMİ,***
***Birləşmiş Ərəb Əmirliklərinin diplomatı***

* * *

Azərbaycan dünya tərəfindən tanınmış, dünyaya qovuşmuşdur. Avropanın bütün qurumlarının üzvüdür. Lissabonda 54 dövlətdən 53-ü Azərbaycanın lehinə səs verdi. Azərbaycan Avropada və Amerikada çox böyük rəğbətlə qarşılanır. Sayın Əliyev haraya getsə, ən yüksək səviyyədə hörmət görür. Bu, Azərbaycan xalqı üçün çox yaxşıdır.

***Süleyman DƏMİRƏL,***
***Türkiyənin 9-cu prezidenti***

* * *

Onun – həqiqətən dünya miqyaslı dövlət xadiminin təcrübəsi və müdrikliyi sayəsində müstəqil Azərbaycan Xəzər regionunun ən nüfuzlu dövlətləri sırasına çıxır.

***Leonid KUÇMA,***
***Ukrayna Respublikasının prezidenti***

* * *

Azəri xalqının cümhur başqanı sayın Heydər Əliyevin liderliyi ilə Azərbaycan öz müstəqilliyini, suverenliyini möhkəmləndirərək bölgənin önəmli bir dövləti olmaq yolundadır. Sayın cümhur başqanı eyni zamanda mənim yaxın dostumdur. Mən Azərbaycanın gələcəyini çox parlaq görürəm. Sayın Heydər Əliyevin öndərliyi ilə siyasi sabitliyə qovuşmuş Azərbaycanın barışı da sürətli hala gətirdikdən sonra neft yataqları, digər sərvətləri ilə bölgənin ən inkişaf etmiş dövlətlərindən biri olacağına inanıram.



***Hikmət ÇETİN,***
***Türkiyə Böyük Millət Məclisinin sabiq sədri***

* * *

Sizin Vaşinqtona və Amerika Birləşmiş Ştatlarının digər şəhərlərinə rəsmi səfərlərinizdən beş ay keçməsinə baxmayaraq, haqqınızda olan yüksək fikir Amerika vətəndaşlarının xatirində çox yaddaqalan olmuşdur. Onlar Sizə dərin hüsn-rəğbət bəsləyir. Bunun iki səbəbi vardır. Bu, birincisi, hamıya məlum olduğu kimi, Amerika Birləşmiş Ştatlarında keçirdiyiniz görüşlərdə, apardığınız danışıqlarda özünü göstərmiş intuisiyanız, yüksək danışıq qabiliyyətinizə görə olmuşdur. İkinci səbəb ondan ibarətdir ki, Siz Corctaun Universitetində çıxış edərkən müxtəlif mövzuda suallara çox ətraflı və dolğun cavablar verdiniz. Həmin görüşdə bir daha göstərdiniz ki, Siz ölkənin əsl liderisiniz, heç bir şeydən qorxmursunuz və ölkənizin maraqlarını hər şeydən üstün tutursunuz.

***Riçard ARMİTAC,***
***ABŞ dövlət katibinin birinci müavini***

* * *

Azərbaycanın son bir neçə il ərzində necə çətin yol keçdiyini biz Yaponiyada kifayət qədər yaxşı bilirik. Cənab prezident, çətinliklərə baxmayaraq, Sizin rəhbərlik etdiyiniz respublika və hökumət cəmiyyətin demokratikləşdirilməsi, yeni demokratik dövlətin qurulması, bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan cəmiyyət yaradılması yolu ilə inamla getmişdir və gedir. Bu, bizdən ötrü çox maraqlı bir prosesdir və bundan çox şadıq.

***Akira NİŞİQAKİ,***
***Yaponiyanın tanınmış iqtisadçısı***

* * *

Bu gün böyük gündür. Ona görə ki, gürcü xalqının böyük dostu, öz böyük xalqının, öz böyük ölkəsinin görkəmli rəhbəri, bütün dünyanın tanıdığı insan, ağır, çətin illərdə öz ölkəsinə ikinci dəfə rəhbərlik edən bir insan bizimlə bir yerdədir.

Biz həqiqətən 30 ildir ki, bir-birimizi tanıyırıq. Bu illər təkcə bizim üçün, iki lider üçün deyil, həm də xalqlarımız üçün adi illər olmamışdır. Fəxr etməli illər var və fəxr etmək də lazımdır, bizim əvvəllər də, indi də rədd etdiyimiz şeylər də var. Ancaq ən başlıcası da var – xalqlarımızın qarşılaşdığı bütün məhrumiyyətlərə, çətinliklərə baxmayaraq, biz xoşbəxt insanlarıq. Ona görə xoşbəxt insanlarıq ki, taleyin hökmü ilə bizə xalqlarımızın, dövlətlərimizin istiqlaliyyət, müstəqillik uğrunda hərəkatına rəhbərlik etmək nəsib olmuşdur. Bu, əsrlərdən bəri olan arzudur.

İş elə gətirib ki, Heydər Əliyev yaşca məndən bir qədər böyükdür. O, məni həmişə qabaqlamışdır. Məndən üç il əvvəl, zənnimcə, bəlkə də bir qədər çox, nazir olmuşdur. Təbii ki, mən o zaman həm qonşu, həm də tanış kimi onun necə işlədiyini müşahidə edirdim. Sonra o, məndən üç il tez Mərkəzi Komitənin birinci katibi oldu. Mən yenə də ona çata bilmədim. Təbii ki, mən Mərkəzi Komitənin birinci katibi seçildikdə onun təcrübəsini öyrənirdim. Bu, mübarizə idi, saflıq uğrunda mübarizə. O zaman biz mənəvi inqilab barədə danışırdıq. O vaxt biz öz missiyamızı belə başa düşürdük. Hazırda bəzi tarixçilərin necə yazması başqa məsələdir, ancaq bu, heç də son söz deyil, hələ yazacaqlar. O illər Heydər Əliyevlə bizim həqiqətən fəxr edə biləcəyimiz illər idi. Onun öz xalqının mənafeyi, öz ölkəsinin mənafeyi və qardaşlarının – mən həm Gürcüstanı, həm də başqa xalqları nəzərdə tuturam, – mənafeyi üçün etdiklərinin hamısını mən əlimdə qələm öyrənirdim.

Heydər Əliyev təkcə öz ölkəsi üçün deyil, həm də bütün region üçün perspektiv, olduqca böyük perspektiv açdı. Lakin bu perspektiv yalnız Qafqaz üçün deyil.

***Eduard ŞEVARDNADZE,***
***Gürcüstan Respublikasının sabiq prezidenti***

* * *

Prezident Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycanın dünya birliyində layiqli yer tutması, Xəzərin Azərbaycan sektorundakı yataqlarının birgə işlənməsinə dair dünyanın bir çox ölkələrinin nüfuzlu şirkətləri ilə müqavilələr imzalaması Azərbaycanın müstəqilliyinin, suverenliyinin əbədi olmasına və bu ölkədə həmin dövlətlərin iqtisadi maraqlarının həyata keçirilməsinə böyük təminat yaradır.

Sizin şöhrətli şəxsiyyətiniz barədə illər öncə məlumatımız var. Bu məlumatlar təkcə Livanda deyil, bütün ərəb dünyasında vüsət tapmışdır.

Ölkənizin taleyüklü məsələlərinin həlli yolunda apardığınız müdrik siyasətə görə Sizə dərin hörmət və ehtiramımı bildirirəm.

***Rafiq HƏRİRİ,***
***Livanın baş naziri***

* * *

Prezident Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün bölgədə sülhün və sabitliyin qarantıdır. İnanıram ki, Azərbaycan öz prezidentinin müdrik siyasəti sayəsində keçid dövrünün çətinliklərini aradan qaldıracaq.

***Hikmət ÇETİN,***
***Türkiyə Böyük Millət Məclisinin keçmiş sədri***

* * *

Cənab prezident, Yaponiyaya bir çox dövlət başçıları səfərə gəliblər. Lakin Sizin bu rəsmi səfərinizə ictimaiyyət və kütləvi informasiya vasitələri tərəfindən göstərilən belə dərin maraq Yaponiyada nadir hadisələrdən biridir. Məndə Sizin keçirdiyiniz görüşlərin siyahısı vardır. Belə gərgin işiniz məndə heyrət doğurur.



***Ryutaro HAŞİMOTTO,***
***Yaponiyanın keçmiş baş naziri***

* * *

Biz prezident Heydər Əliyevin ötən illər ərzində Azərbaycanda gördüyü çox böyük işlərdən – gənc respublikanın müstəqilliyinin möhkəmləndirilməsi, xarici aləmdə tanınması, islahatların həyata keçirilməsi, müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən dünyanın maliyyə qurumları ilə sıx əlaqə yaradılması sahəsindəki fəaliyyətindən xəbərdarıq.

***Yasuda XİROŞİ,***
***Yaponiyanın ən məşhur maliyyə mütəxəssislərindən biri***

* * *

Sizin şəxsinizdə ən görkəmli liderlərdən birini görürük: elə liderlər ki, onlar dünya ictimaiyyətinin, bütün dünya birliyinin diqqətini özünə cəlb edirlər.

Siz Sovet İttifaqı dövründə Kommunist Partiyasının görkəmli rəhbəri olmusunuz, ölkənizin müstəqillik əldə etməsində mühüm rol oynamısınız və indi dövlətinizin inkişafı üçün hər şey edirsiniz. Mən Sizin şəxsinizdə uzaqgörən, qətiyyətli siyasətçi nümunəsi görürəm.

***Akira AMARİ,***
***Yaponiya Parlamenti Nümayəndələr Palatasının üzvü***

* * *

Sizin liderliyiniz, rəhbərliyiniz altında Azərbaycanda baş vermiş müsbət dəyişikliklər münasibətilə Sizi təbrik etmək istəyirəm. Siz milli valyutanı sabitləşdirmisiniz və bunun nəticəsində biznesmenlər özlərini kifayət qədər azad və sərbəst hiss edirlər. ABŞ-ın iş adamları indi məmnuniyyətlə Azərbaycana gəlib buradakı gələcək fəaliyyətləri barədə müzakirələr aparmaq istəyirlər.

***Robert LİVİNQSTON,***
***ABŞ konqresmeni***

* * *

Biz, sizin müdrik dövlət xadimi olmağınızı, analitik zəkanızı yüksək qiymətləndiririk. Sizin sözünüz çox nüfuzludur.

Burada Sizinlə olmaq, Sizin dəyərli məsləhətlərinizi dinləmək, MDB çərçivəsində həyatın özünün doğurduğu problemlər barədə məsləhətləşmək və sadəcə olaraq bir insan kimi məsləhətləşmək mənə çox xoşdur.

***İvan RIBKİN,***
***Rusiya hökuməti sədrinin müavini vəzifəsinin keçmiş icraçısı***

* * *

Məhz prezident Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın dünya birliyində layiqli yer tutması, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənməsinə dair dünyanın bir çox şirkətləri ilə layiqli müqavilələr imzalanması Azərbaycanın müstəqilliyinin əbədi olmasına böyük təminat yaradır. Mənim ölkəm prezident Heydər Əliyevin müdrik siyasəti nəticəsində regionda açar rolunu oynayan Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verir. Prezident Heydər Əliyevin apardığı ağıllı, düşünülmüş siyasət və ölkədə yaradılmış şərait nəticəsində xarici şirkətlər, o cümlədən Belçika şirkətləri Azərbaycana marağı gündən-günə artırırlar və onunla əməkdaşlığı genişləndirməyə hazırdırlar.

***Jan Lük DELEN,***
***Belçikanın tanınmış dövlət xadimi***

* * *

Elə olur ki, təbiət insana böyük istedad bəxş edir. Siz də belə istedada maliksiniz. İnsan bir çox layiqli keyfiyyətləri özündə böyük zəhmət bahasına tərbiyə edir və çoxlarına nümunə olur. Heydər Əliyev, Siz bunu edə bilmisiniz. Siz bu gün haqlı olaraq Azərbaycanın bütün dünyada hörmət edilən prezidentisiniz.

***İvan RIBKİN,***
***Rusiya hökuməti sədrinin müavini vəzifəsinin keçmiş icraçısı***

* * *

Hamı Sizi polad iradəli lider, son dərəcə nadir şəxsiyyət hesab edir.

***Boris BEREZOVSKİ,***
***MDB-nin sabiq icraçı katibi***

* * *

Çox mürəkkəb bir zamanda ağlasığmaz çətinlikləri aradan qaldırmağa və öz xalqı üçün çox işlər görməyə müvəffəq olmuş prezident Heydər Əliyevin yolu örnəkdir, nümunə götürməyə layiqdir.

***Zurab JVANİYA,***
***Gürcüstan parlamentinin sabiq sədri***

* * *

Siz şəxsiyyət kimi bizim üçün təkcə vaxtilə birgə yaşadığımız dövlətin tarixinin böyük bir dövrünün təcəssümü deyil, həm də böyük mərdlik timsalı olan insansınız.

***Leonid KOZİN,***
***Belarus Respublikasının baş nazirinin keçmiş müavini***



* * *

Prezident Heydər Əliyevin müdrik xarici siyasəti nəticəsində Azərbaycan dünyanın sivilizasiyalı, inkişaf etmiş dövlətləri ilə bir sırada durmuşdur.

***Saparmurad NİYAZOV,***
***Türkmənistan Respublikasının prezidenti***

* * *

Azərbaycan xalqının mənəvi dirçəlişi, iqtisadi tərəqqisi məhz Sizin adınızla bağlıdır. Heydər Əliyevin müdrikliyi, onun siyasi iradəsi sayəsində Azərbaycan dünya birliyində layiqli yer tutmuşdur. Sizin müdrik rəhbərliyiniz altında Azərbaycan güclü, yüksək inkişaf etmiş ölkə olmuşdur.

***Əsgər AKAYEV,***
***Qırğızıstan Respublikasının prezidenti***

* * *

Bizim respublikamızda Sizi müdrik siyasi xadim və dövlət xadimi kimi, planetimizin məşhur siyasətçilərindən biri kimi tanıyırlar. Osetin xalqı fəxr edir ki, Qafqazda indiki çətin zamanədə Azərbaycana Heydər Əliyev kimi görkəmli siyasətçi rəhbərlik edir. Xalqımız bu iftixar hissini həmişə – Siz Azərbaycanın partiya təşkilatının birinci katibi olduğunuz vaxtlarda da, Siz Siyasi Büronun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işlədiyiniz və 19 İttifaq Nazirliyinə kuratorluq etdiyiniz vaxtlarda da keçirmişdir və müstəqil Azərbaycanın prezidenti olduğunuz indiki vaxtda da keçirir.

***Teymuraz MANSUROV,***
***Rusiya Federasiyası Osetiya – Alaniya Respublikasının tanınmış dövlət xadimi***

* * *

Heydər Əliyev Rusiyada, MDB ölkələrində və dünyanın digər dövlətlərində Qafqazda böyük rol oynayan, müdrik, beynəlxalq miqyaslı, qüdrətli siyasətçi kimi məşhurdur.

***Aleksandr DZASOXOV,***
***Rusiya Federasiyası Osetiya – Alaniya Respublikasının prezidenti***

* * *

Sizin taleyinizə tarixi missiya – milli dövlətçiliyin təşəkkülünün dönüş mərhələsində, ölkənin suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi mərhələsində Azərbaycana rəhbərlik etmək missiyası düşmüşdür. Əminəm ki, çox böyük həyat təcrübəniz cəmiyyətdə köklü dəyişik-

likləri uğurla həyata keçirməyə, gələcək nəsillər naminə Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə imkan verəcəkdir.

***İslam KƏRİMOV,***
***Özbəkistan Respublikasının prezidenti***

* * *

Sizin rəhbərliyinizlə Azərbaycan firavan gələcəyinin bünövrəsini qoymaqdadır.

***Bill KLİNTON,***
***ABŞ-ın sabiq prezidenti***

* * *

Rusiyada Sizi beynəlxalq aləmdə dərin hörmət və şöhrət qazanmış, Rusiya – Azərbaycan dostluq münasibətlərinin möhkəmlənməsinə və inkişafına şəxsən böyük töhfə vermiş müdrik, nüfuzlu dövlət xadimi kimi tanıyırlar.

Şəxsən mənim üçün böyük əhəmiyyəti vardır ki, mən Sizi Rusiyanın daimi və sadiq dostu, Rusiya ilə Azərbaycan arasında dostluq əlaqələrinin möhkəmlənməsinin əqidəli tərəfdarı kimi çoxdan və yaxından tanıyıram.

***Boris YELTSİN,***
***Rusiya Federasiyasının birinci prezidenti***

* * *

Biz inamla deyə bilərik ki, Almaniya ilə Azərbaycan arasında, xüsusən iqtisadi sahədə olan dostluq münasibətləri son illərdə aşkar inkişaf etmiş və dərinləşmişdir. Bu işdə Sizin səylərinizin böyük rolu olmuşdur. Eyni zamanda, Siz ölkənizə çətin bir şəraitdə rəhbərlik edərək onu azadlıq və siyasi-iqtisadi inkişaf yolu ilə aparırsınız. Bu, dünya dövlətləri arasında ölkənizə etimadın artmasına səbəb olmuşdur.

***Helmut KOL,***
***Almaniya Federativ Respublikasının keçmiş federal kansleri***

* * *

Azərbaycan dövlətinin başçısı kimi yorulmadan çəkdiyiniz zəhmət sayəsində ölkəniz böyük müvəffəqiyyətlər qazanmışdır. Azərbaycan Dövlətlər Birliyinin tanınmış üzvüdür və Sizin prezidentliyiniz dövründə onun iqtisadi və siyasi sanbalı xeyli artmışdır.

***Roman HERSOQ,***
***keçmiş AFR prezidenti***



**AFR prezidenti Roman Hersoq prezident Heydər Əliyevi qarşılayır.**



**AFR-in xarici işlər naziri Klaus Kinkellə.**



Prezident Nursultan Nazarbayev və prezident Heydər Əliyev.



Heydər Əliyev həyatında çox mükafatlar alıb. Bu şəkildə onlardan birini Rusiyanın xarici işlər naziri İqor İvanov təqdim edir. Amma Heydər Əliyev üçün ən böyük mükafat xalqın sevgisidir, bu mükafatı qazanmaq və onu qoruyub saxlamağı bacarmaq hər siyasətçiyə nəsib olmur. Heydər Əliyev isə buna nail olmuşdur.



* * *

Uzun illər boyu Azərbaycanın inkişafı Sizin adınızla bağlı olub. Sizin bilavasitə rəhbərliyiniz altında ölkə dövlət müstəqilliyini uğurla möhkəmləndirir və dünya birliyi tərəfindən tanınmışdır.

***Leonid KUÇMA,***
***Ukrayna prezidenti***

* * *

Keçdiyiniz yola nəzər salıb inamla demək olar ki, başçılıq etdiyiniz ölkənin istiqlaliyyət əldə etdiyi dövr ərzində Sizin qətiyyətli iştirakınız və şəxsi əməyiniz olmasaydı, Azərbaycanın nailiyyətləri də mümkün olmazdı.

Hadisələrin fəlakətli yöndə inkişaf etməsi təhlükəsinin mövcud olduğu taleyüklü bir vaxtda Siz birincilər sırasında Azərbaycanı yeniləşdirmək yoluna qədəm qoymuş, xalqı sıx birləşdirməklə, onun dövlətçiliyini möhkəmləndirməklə ölkədə əmin-amanlığa nail olmusunuz.

***Emoməli RƏHMANOV,***
***Tacikistan Respublikasının prezidenti***

* * *

Siz tutduğunuz bütün vəzifələrdə özünüzü beynəlxalq miqyaslı nüfuza və hörmətə malik siyasətçi kimi, zəkalı rəhbər kimi göstərmisiniz və göstərirsiniz. Rəhbər dövlət vəzifələrində çoxillik uğurlu iş təcrübəniz heyrət doğurur.

***Gennadi SELEZNYOV,***
***Rusiya Federasiyası Dövlət Dumasının sədri***

* * *

Öz yorulmaz və inadlı səylərinizlə Siz Azərbaycanı dövlətlərin beynəlxalq birliyinin tanınmış və nüfuzlu üzvlərindən birinə çevirmisiniz. Sizin rəhbərliyiniz dövründə Azərbaycanın keçdiyi fərəhləndirici inkişaf yoluna, xüsusən iqtisadi sahədə inkişafa baxıb fəxr edə bilərsiniz.

***Klaus KİNKEL,***
***Almaniya Federativ Respublikasının***
***keçmiş xarici işlər naziri***

* * *

Cənab prezident, biz Sizə məftunuq, çünki Sizə Amerika ilə Rusiya arasında ortaq bir yol tuta bilmək nəsib olmuşdur.

Siz çox güclü prezidentsiniz. Avropa Şurası üçün böyük nümunələr göstərmisiniz. Azərbaycan üçüncü ölkədir ki, burada ölüm hökmü ləğv olunmuşdur.

***Ernst MÜLEMAN,***
***AŞ PA-nın keçmiş vitse-prezidenti***

* * *

Qısa bir müddətdə Azərbaycan cənab prezident Heydər Əliyevin rəhbərliyi altında böyük nailiyyətlər qazanmışdır, enerji ehtiyatları üzrə böyük nailiyyətlər əldə edir və keçmiş əməllər üzərində qurulmuş inkişafı təmin etmək üçün neft və qaz sənayesi sahəsində böyük işlər görür.

***Con BƏTL,***
***Böyük Britaniyanın elm, energetika və sənaye üzrə sabiq dövlət naziri***

* * *

Azərbaycan öz istiqlaliyyətini qazandığı 1991-ci ildən zati-aliləri Heydər Əliyevin dövlətin və xalqın başçısı seçilməsinə qədər çoxlu sınaqlardan keçmişdir. Prezident Heydər Əliyevin nüfuzu sayəsində Azərbaycan bütün dünyada, o cümlədən Yaponiyada geniş tanınmışdır. Halbuki həmin vaxta qədər yaponların bir çoxu Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında çox az şey bilir və ya heç nə bilmirdilər.

***Yasuo TANABE,***
***Yaponiyanın tanınmış ictimai xadimi***

* * *

Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan istər daxili, istərsə də beynəlxalq qanunlara hörmət edən ölkəyə çevrilib. İnkişafına prezident Heydər Əliyevin çox böyük töhfə verdiyi bu imic beynəlxalq sərmayədarların Azərbaycana onun iqtisadiyyatının bütün sahələrinə marağını artırmışdır.

Əsrin əvvəlində türk xalqını siyasi və iqtisadi müstəmləkəçilikdən xilas etmiş Mustafa Kamal Atatürk kimi prezident Heydər Əliyev də Azərbaycan xalqını daha böyük tərəqqiyə və inkişafa aparır. Buna görə də tarix prezident Heydər Əliyevi XXI əsrin əvvəlində güclü və tərəqqi edən Azərbaycanın təməlini qoymuş adam kimi yaddaşında saxlayacaqdır.

***Bədr əl-EYBAN,***
***«Delta oyl» şirkətinin prezidenti***

* * *

Çox böyük həyati və siyasi təcrübəsi olan tanınmış siyasətçini eşitmək bu gün mənim üçün çox vacib idi. Elə bir siyasətçini ki, həm totalitar rejimin, həm də demokratiyanın mexanizmini yaxşı anlayır. O, bunu sadəcə olaraq anlamaqla kifayətlənmir, həm də çətin anlarda qərar qəbul etməyi bacarır. O, bu qərarları çıxararaq, insanlar üçün sülh, insanların həyatını xilas etmək haqqında düşünür və çətin anlarda böyük dözüm, mətanət göstərərək öz xalqını gələcəyə doğru aparır. Bu gün bizim birlikdə keçirdiyimiz vaxt mənim üçün böyük qazancdır.



Prezident Heydər Əliyev görkəmli siyasətçidir və qarşılıqlı maraq doğuran məsələləri son illər ərzində onunla bir neçə dəfə səmimi və konstruktiv şəraitdə müzakirə etmək mənə nəsib olmuşdur.

***Emil KONSTANTİNESKU,***
***Rumıniya Respublikasının sabiq prezidenti***

* * *

Cənab prezident, müdrik və uzaqgörən siyasətiniz nəticəsində Azərbaycan qarşılaşdığı çətinlikləri qısa bir zamanda dəf edə bilmiş və Siz bütün dünyanın nəzər-diqqətini respublikanıza cəlb edərək mühüm nailiyyətlər qazanmısınız.

***Nasir Məhəmməd Əbdu əl-SƏLİM,***
***Liviya diplomatı***

* * *

Biz Azərbaycanı və prezident Heydər Əliyevi özümüzün strateji müttəfiqimiz hesab edirik.

Biz inanırıq ki, Azərbaycan müasir dünyada həlledici iqtisadi və siyasi rol oynayır. Həmin rolu inkişaf etdirməkdən ötrü biz Sizinlə birlikdə işləmək istəyirik. İcazə verin, ölkənizdə əldə olunmuş tərəqqi, bunun naminə gördüyünüz iş münasibətilə Sizi təbrik edim. Şəxsən mənim üçün böyük şərəfdir ki, Sizi burada salamlayıram.

***Toni BLEYER,***
***Böyük Britaniyanın baş naziri***

* * *

Sizinlə hər bir görüş bizim üçün, Rusiya nümayəndələri üçün böyük hadisədir. Mən bunu səmimiyyətlə, ürəkdən deyirəm. Biz ancaq təəccüblənə bilərik ki, Siz daxili problemlər sahəsində fəal, intensiv işi coşqun xarici siyasət fəaliyyəti ilə uyğunlaşdırmaq üçün bu qədər qüvvəni haradan alırsınız. Sizin istər siyasi, istər iqtisadi sahədə nail olduğunuz nəticələri, hətta ən nikbin ovqatlı politoloqlar da ağlına gətirə bilməzdilər.

***Boris PASTUXOV,***
***Rusiya Federasiyası xarici işlər nazirinin keçmiş birinci müavini,***
***Dövlət Dumasının üzvü***

* * *

Mən dövlət vəzifəsində çalışarkən dünyanın bir çox dövlətlərinin liderləri, hökumət rəhbərliyi, nümayəndələri ilə çoxsaylı görüşlər keçirmişəm. Bu cür çoxsaylı görüşlərin eləsi var ki, insanın yaddaşında birdəfəlik həkk olur, eləsi də var ki, yaddaşda ondan heç bir əsər-əlamət qalmır. Cənab prezident, icazə verin deyim ki, mən Sizinlə keçirdiyimiz görüşü, apardığımız söhbəti hər

zaman xatırlayacağam. Gözəl xatırlayıram ki, Sizinlə keçirdiyimiz görüş zamanı Azərbaycanın, öz ölkənizin və regionunuzun gələcəyi barədə çox ağıllı, realist, eyni zamanda çox nikbin nöqteyi-nəzərinizi mənim diqqətimə çatdırdınız.

***Duqlas HÖRD,***
***Böyük Britaniyanın keçmiş xarici işlər naziri***

* * *

Ölkənizdə bu qədər iqtisadi və siyasi dəyişikliklərin olmasına heyranıq və hesab edirik ki, bunlar getdikcə artacaqdır. Bütün bunlar Sizin rəhbərliyiniz altında baş vermişdir. Sizdən bir qədər şimaldakı ölkələr böyük iqtisadi problemlərlə üzləşirlər. Ona görə də mən, xüsusilə valeh olmuşam ki, ölkənizdə iqtisadi sabitlik əldə edilib və bu, çox səmərəli bəhrə verir.

***Loures İQLBERGER,***
***ABŞ-ın sabiq dövlət katibi, məşhur siyasi xadim***

* * *

Müstəqillik qazandıqdan sonra ölkədə Sizin rəhbərliyiniz altında əldə olunmuş tərəqqiyə görə Sizi təbrik etmək istəyirəm. Bu, qısa bir müddətdə çoxlarına müyəssər olmur. Əvvəlki gəlişimlə müqayisədə əsl dəyişikliklər görürəm və bu tərəqqi həqiqətən adamı məftun edir.

***Hovard BEYKER,***
***ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə sabiq müşaviri, məşhur ictimai-siyasi xadim***

* * *

Sizin liderliyiniz nəticəsində ölkənizdə qısa müddətdə əldə olunmuş nailiyyətlər Azərbaycanı həqiqətən diqqət mərkəzinə gətirmişdir. Cəmi bir neçə il əvvəl Azərbaycan haqqında bunları demək olmazdı. Amma Sizin liderliyiniz sayəsində ölkənizdə birlik, sülh, sabitlik və daim artmaqda olan tərəqqi əldə olunubdur. Bu, həqiqətən böyük müsbət dəyişikliklərdir.

***Riçard LUÇAR,***
***ABŞ-ın tanınmış siyasi xadimi***

* * *

Azərbaycanın böyük, parlaq gələcəyi var. İstərdim ki, Azərbaycanın bu illər ərzində əldə etdiyi tərəqqidə Sizin şəxsi rolunuzu da qeyd edim. Siz Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün, dünyada bu cür rol oynaması üçün böyük işlər görmüsünüz.

***İoanis KRANİDİOTOS,***
***Yunanıstan diplomatı***



* * *

Bizim günlərdə hadisələr çox sürətlə cərəyan edir, qloballaşır, təhlükəsizlik məsələləri, xüsusilə gündəlikdə durur. Bu baxımdan prezident Heydər Əliyev kimi təcrübəli siyasətçi ilə fikir mübadiləsindən çox şey əldə etmək mümkündür. Prezident Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində Asiya ilə Avropa arasında əlaqələr, əməkdaşlıq körpüsü qurulur.

***Xavyer SOLANA,***
***NATO-nun keçmiş baş katibi, Avropa İttifaqının ali təmsilçisi***

* * *

İnsanların bir çoxu tam dərk edib ki, Azərbaycanı bu mərhələyə gətirib çıxarmaqda şəxsən Siz əsas rol oynamısınız. Siz bir çox mənada bu cavan, eyni zamanda qədim ölkənin atasısınız.

***Mark PALMER,***
***Beynəlxalq Respublikaçılar İnstitutunun nümayəndəsi***

* * *

Siz iqtisadi islahatlar və xarici siyasət sahəsindəki bacarığınızla Azərbaycanı beynəlxalq dövlətlər birliyinin sabit və nüfuzlu üzvünə çevirmisiniz.

***Roman HERSOQ,***
***AFR-in sabiq prezidenti***

* * *

Sizi Çeçenistanda əvvəllər də tanıyırdılar. Biz bu dəhşətli, vəhşi müharibə zamanı Sizi necə varsınızsa, elə də tanıdıq. Mənim xalqımı məhv edəndə və çoxları bundan danışmağa utanıb çəkinəndə Siz öz möhkəm və prinsipial mövqeyi olan bir şəxs kimi vəhşiliyi Konstitusiya qayda-qanunu yaratmaq yox, məhz vəhşilik adlandırdınız. Buna görə də bir daha deyirəm ki, Çeçenistan Sizə olduqca böyük hörmətlə yanaşır və yanaşacaqdır. Biz Sizə baxaraq öz xalqına layiqincə xidmət etməkdə Sizə oxşamağa çalışırıq, bunu Sizin bizə – Qafqaz xalqlarının liderlərinə belə bir xeyir-duanız kimi qiymətləndiririk ki, biz başı müsibətlər çəkən öz xalqlarımızın faciəli tarixlərinin səhifələrini, nəhayət, bağlaya bilək.

***Aslan MƏSHƏDOV,***
***Çeçen-İçkeriya Respublikasının keçmiş prezidenti***

* * *

Siz həqiqətən bütün ömrünüz boyu xalqınızı ardıcıl surətdə ayağa qaldırmısınız və qaldırırsınız. Xalqın hətta ən çətin vəziyyətdə özünü tapması və inkişaf etməsi üçün bütün işləri ardıcıl surətdə görməyə çalışırsınız. Bu rəhbər işçi üçün başlıca keyfiyyətdir. Siz çox mürəkkəb problem-

ləri həll etməyə müvəffəq olmusunuz və çox ümidvaram ki, öz zəngin təcrübənizdən istifadə edərək artıq başqaları üçün də problemlərin həllinə kömək göstərəcəksiniz.

***Boris BEREZOVSKİ,***
***MDB-nin sabiq icraçı katibi***

* * *

Mənim üçün xüsusilə böyük məmnunluqdur ki, bizim strateji, siyasi əhəmiyyət verdiyimiz bir ölkə Sizin kimi dünya şöhrətli şəxsiyyət tərəfindən idarə olunur.

***Henri KİSSİNCER,***
***ABŞ-ın keçmiş dövlət katibi,***
***məşhur ictimai-siyasi xadim***

* * *

Sizin Rusiya ilə gözəl münasibətləriniz var və Sizə dünya miqyaslı görkəmli dövlət xadimi kimi münasibət göstərilir. Bunu hamı etiraf edir və bunu hamı bilir. Kimsəyə sirr deyil ki, Siz dünyada tayı-bərabərini tapmaq çətin olan bir şəxsiyyətsiniz. Buna görə də hamı Sizin rəyinizlə hesablaşır və zənnimcə, münasibətlərimizə heç nə əlavə etməyən, hər halda, onları yaxşılaşdırmayan gurultulu bəyanatlar vasitəsilə deyil, məhz bilavasitə dialoq yolu ilə ölkələrimiz həmişə ümumi dil tapa bilərlər.

***Leonid DRAÇEVSKİ,***
***Rusiya Federasiyası xarici işlər nazirinin***
***keçmiş müavini***

* * *

Heydər Əliyev, mən Sizə həmişə böyük hörmətlə yanışmışam və yanaşacağam. Çünki bir şəxsiyyət kimi, dövlət xadimi kimi bütün keçmiş Sovet İttifaqı üçün, Azərbaycan xalqı üçün, Yer üzündəki bütün türk xalqları üçün qədir-qiymətinizi bilirəm.

...Çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin dövrdə xalqlara Sizin kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər. Çünki belə imkan xalqlara min ildə bəlkə də bir dəfə verilir və onu əldən buraxmaq olmaz. Ondan elə istifadə etmək lazımdır ki, xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsl mənasında azad və məşhur insanlar olsunlar. Heydər Əliyev, Sizin kimi rəhbərlərin xidməti məhz bundan ibarətdir.

***Oljas SÜLEYMENOV,***
***səfir, Qazaxıstan yazıçısı***

* * *

Mən Sizin Azərbaycanı müasir və firavan dövlətə çevirmək yolunda üzləşdiyiniz çətinliklərin öhdəsindən gəlmək səylərinizi yüksək qiymətləndirirəm. Xahiş edirəm əmin olasınız ki, mənim administrasiyam 907-ci düzəlişin konqresdə ləğvinə nail olmaq üçün çalışmaqda davam edəcək ki, bu, bizə Azərbaycanda demokratiya və bazar iqtisadiyyatı yaradılması səylərində maksimum dəstəyinizi göstərməyə imkan versin. Bu mənada, Qafqaz regionunda iqtisadi əlaqələrin yenidən qurulması və Azərbaycanda demokratik institutların və təcrübələrin möhkəmləndirilməsi üçün biz Sizinlə işləmək marağında qalırıq.



***Bill KLİNTON,***
***ABŞ-ın sabiq prezidenti***

* * *

Siz nüfuzlu bir dövlət rəhbərisiniz. Sizi nəinki yaxın ətrafınızda, yaxın xaricdə, həm də dünyada tanıyırlar.

***Viktor ÇERNOMIRDİN,***
***Rusiya Federasiyasının keçmiş baş naziri***

* * *

Öz ölkənizin lideri kimi Siz təkcə Azərbaycana deyil, həm də bütün Qafqaza, bütün Avrasiya regionuna lazımsınız.

***Eduard ŞEVARDNADZE,***
***Gürcüstan Respublikasının sabiq prezidenti***

* * *

Biz Sizin iradənizə, cəsarətinizə heyranıq və dünyanın çox təhlükəli bir regionunda yerləşən dövlətinizə necə rəhbərlik etdiyinizə vurğunuq. Sizin çox yüksək qonaqpərvərliyinizə, açıq və cəsarətli mülahizələrinizə, fikir mübadiləsi aparmaq məharətinizə məftunuq.

Sizin böyük xidmətləriniz sayəsində ABŞ-la Azərbaycan arasında möhkəm dostluq və əməkdaşlıq əlaqələri yaranmışdır.

Əminik ki, qarşıya çıxan çətinliklər Sizin güclü liderliyiniz sayəsində tezliklə və müvəffəqiyyətlə aradan qaldırılacaqdır. Sizə çox dərin hörmətimiz var.

***Hovard BEYKER,***
***ABŞ-ın görkəmli ictimai xadimi***

* * *

Dünyada çox az prezident olubdur ki, onlarla görüşlərdən sonra mən belə qənaətə gəlmişəm ki, nə isə öyrəndim. Siz sayca çox az olan belə prezidentlərdən birisiniz.

***Lourens İQLBERGER,***
***ABŞ-ın sabiq dövlət katibi***

* * *

Görünməmiş iqtisadi inkişaf və siyasi dinamizm dövrünü yaşayan Azərbaycanın və bütün Transqafqaz regionunun Sizin liderliyinizə və qətiyyətinizə ehtiyacı var. Bu region baş verən hadisələrdən doğan problemlərə çevik yanaşma tələb edir.

***Riçard ARMİTAC,***
***ABŞ dövlət katibinin birinci müavini***

* * *

Heydər Əliyev Xəzər regionu üçün təlatümlü dövrlərdə qəti qərarlar qəbul edibdir. Beləliklə, Azərbaycan ABŞ-ın geniş səpkili maraqlarına cavab verən bir ölkədir.

Prezident Heydər Əliyev dövlət xadimi bacarığı ilə müxtəlif boru kəmərlərinin reallaşmasını həyata keçirmişdir. Şərq-Qərb dəhlizinin yaranmasında əldə etdiyimiz tərəqqidə bizə yardımçı olmuşdur. Prezident Heydər Əliyevin, mən deyərdim ki, sərt mövqeyi, Azərbaycan xalqı olmadan nə Bakı – Novorossiysk, nə də Bakı – Supsa kəmərləri mümkün olmazdı. Bakı – Ceyhan kəməri ilə bağlı işimizdə prezident Heydər Əliyevin rolu əsas olmuşdur.

***Riçard MORNİNQSTAR,***
***ABŞ prezidenti və dövlət katibinin sabiq müşaviri***

* * *

Böyük lider kimi Siz Azərbaycanı təlatümlü dövrdən çıxarmısınız. Ona görə Sizin hərəkətləriniz, sözləriniz azərbaycanlıların bir çox nəsillərinə örnək olacaqdır. Azərbaycanın qazandığı müstəqillik Sizin liderliyiniz sayəsində daimi olacaqdır.

***Riçard ARMİTAC,***
***ABŞ dövlət katibinin birinci müavini***

* * *

Cənab prezident!

Biz Sizin liderliyinizə çox güvənirik. ...Sizin liderliyiniz nəticəsində Azərbaycanda yaranmış ictimai-siyasi sabitliyi və ölkənizin iqtisadiyyatının sürətli inkişafını heyranlıqla müşahidə edirik. Biz bu inkişafın gələcəkdə də davam etdirilməsinə bundan sonra da Sizinlə birgə çalışacağıq.

...Hesab edirəm ki, ölkənizin inkişafı baxımından Sizin çox gözəl dahi fikirləriniz vardır.

***Ceyms VULFENSON,***
***Dünya Bankının prezidenti***

* * *

Azərbaycanın prezidenti kimi Siz ölkəniz üçün, bölgəniz və dünya üçün çox böyük işlər görürsünüz. Siz Azərbaycana azadlıq, müstəqillik qazandırmısınız. Siz müstəqil Azərbaycan Respublikasını dünyaya tanıtdırdınız. Azərbaycan xalqını yüksəklərə qaldırdınız. İnanıram ki, Sizin müdrik siyasətiniz nəticəsində müstəqil Azərbaycan Respublikası daim inkişaf edəcəkdir.



**Azərbaycan MDB dövlətlərinin hər biri ilə münasibətlərə həmişə xüsusi önəm vermişdir**



**Gürcüstanla Azərbaycan həmişə problemlərini birgə müzakirə edirlər.**



Heydər Əliyev bütün islam dünyasında böyük siyasi nüfuza malik bir liderdir.



Heydər Əliyev Bakı-Tbilisi-Ceyhanın şəksiz və şəriksiz müəllifidir.



...Sizin «Bir millət iki dövlət» kəlamınız indi bütün Türkiyədə məşhurdur. Azərbaycan ilə Türkiyə arasında əməkdaşlığımızın hazırda çox böyük uğurla davam etməsi məhz Sizin diqqət və qayğınız sayəsində mümkün olmuşdur.

***Hikmət ÇETİN,***
*Türkiyənin keçmiş xarici işlər naziri*

* * *

Biz prezident Heydər Əliyevə minnətdarlığımızı bildiririk ki, Azərbaycanın siyasətini Qərbə doğru yönəldibdir. Heydər Əliyevə minnətdarlığımızı bildiririk ki, o, Bakı – Ceyhan boru xəttinə özünün dəyişməz dəstəyini ifadə edir. Eyni zamanda minnətdarlığımızı bildiririk ki, Azərbaycan Müdafiə Nazirliyinin əməkdaşları NATO-nun Kosovodakı planlarında yaxından iştirak edəcəklər.

Azərbaycan həqiqətən dünya səviyyəsində öz layiqli yerini tutmaqdadır və bu rolunu davam etdirir. Azərbaycanın bu rolu ifa etməsində ən böyük işi prezident Heydər Əliyev görür.

***Stenli ESKUDERO,***
*ABŞ-ın Azərbaycandakı keçmiş səfiri*

* * *

Siz elə bir şəxsiyyətsiniz ki, bu regionda və dünyanın siyasi meydanında böyük nüfuz qazanmısınız. Sizinlə görüşmək mənim üçün böyük şərəfdir. Mən bu görüşdən istifadə edərək istərdim ki, ölkənizin və bölgənizin düşdüyü çətin problemlərin həlli barədə Sizin münasibətinizi və fikirlərinizi, şərhlərinizi eşidim, Sizdən öyrənim.

***lord Rassel CONSTON,***
*AŞ PA-nın keçmiş sədri*

* * *

Cənab prezident!

Bizim burada etibarlı, etimadlı sərmayə qoymağımızın əsas, ilk, öncül səbəbi ondan ibarətdir ki, Sizin 6 illik rəhbərliyiniz nəticəsində Azərbaycanda sülh və sabitlik təmin olunmuşdur. Bunlar xarici sərmayələrin əsas elementləridir və ona görə də təəssüf ki, beynəlxalq aləmdə münaqişələrinə görə tanınmış bir regionda əldə olunduğu üçün bu nəticələr daha çox təqdirəlayiqdir.

***Devid VUDVORD,***
*«bp Azərbaycan» şirkətinin prezidenti*

* * *

Hörmətli prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan hər sahədə inkişaf etməkdədir. Beynəlxalq aləmdə üzərinə düşən öhdəlikləri yerinə yetirən, müstəqilliyini daim qoru-

yan, sərbəst bazar iqtisadiyyatı yolu ilə gedən ölkələrlə əlaqədə hər gün rifahını yaxşılaşdıran, bölgədə sülh və təhlükəsizliyin tərəfdarı olan Azərbaycan ilə qonşu olmaq bizim üçün böyük məmnuniyyətdir.

***Abdulxaliq Mehmet ÇAY,***
***Türkiyənin sabiq dövlət naziri***

* * *

Polşada Sizi görkəmli dövlət xadimi və dost dövlətin lideri kimi, bir neçə il bundan əvvəl Mərkəzi və Şərqi Avropada baş vermiş böyük dəyişikliyin arxitektorlarından biri kimi tanıyır və qiymətləndirirlər. Biz Xəzər dənizi hövzəsinin strateji cəhətdən çox mühüm regionunda vəziyyətin normallaşdırılması üçün Sizin göstərdiyiniz diplomatik fəallığı xüsusi diqqətlə izləyirik.

***Aleksandr KVASNEVSKİ,***
***Polşa Respublikasının prezidenti***

* * *

Hörmətli Heydər Əliyev şübhəsiz ki, XX əsrdə iz qoymuş şəxsiyyətlər arasında haqlı yerini uzun illər bundan öncə almış dövlət və siyasət adamıdır. Əsasən XX əsrin iki super gücündən biri olan Sovetlər Birliyinin tarixini yazarkən hörmətli Heydər Əliyevdən bəhs etmədən ötüşmək mümkün deyildir.

Hörmətli Heydər Əliyev Sovetlər Birliyi dövründə Azərbaycanın çiçəklənən respublikaya çevrilməsi üçün uzun illər boyunca böyük fədakarlıqla çalışmış, ölkəsinin haqq və nüfuzunu qorumağa səylər göstərmişdir.

***Süleyman DƏMİRƏL,***
***Türkiyənin 9-cu prezidenti***

* * *

Heydər Əliyev Rusiya Federasiyasında nəinki Azərbaycanın, həm də keçmiş Sovet İttifaqının görkəmli siyasi xadimi kimi məşhurdur. Biz bütün bunları yaxşı xatırlayır və bilirik. Bu mənada o, Azərbaycan miqyaslı siyasətçi deyildir, hətta bütün postsovet məkanında məşhur adamdır.

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının prezidenti***

* * *

Cənab Heydər Əliyev hələ ilk görüşdən xoşuma gəlmişdir. Çünki o, təmkinli, ciddi adamdır, az danışır, amma hər hansı məsələdən danışanda dəqiq və düzgün danışır. Mən ondan bir az cavanam, lakin onu özümə dost bilmək mənim üçün şərəfdir.

***Petr STOYANOV,***
***Bolqarıstan Respublikasının keçmiş prezidenti***



* * *

Təxminən beş il bundan əvvəl, – bəlkə də bir az artıq, – mən Bakıya getmişdim. Həmin səfərim zamanı mən prezident Bill Klintonun məktubunu prezident Heydər Əliyevə təqdim etdim. Prezident Heydər Əliyevlə biz gecəyarıya qədər müzakirələr apardıq. Həmin axşam həftənin sonu idi. Prezident Heydər Əliyev möhkəm bir qərar verdi. Qərarın məğzi ondan ibarət idi ki, Azərbaycan müstəqil bir ölkədir və dünya birliyinə qəbul olunmaq üçün kimdənsə asılı olmayacaqdır. Həmin qərarda bildirilirdi ki, Azərbaycanın enerji ehtiyatları yalnız bir boru kəməri – Bakı – Novorossiysk kəməri ilə deyil, bir neçə boru kəməri ilə, o cümlədən Gürcüstan ərazisindən keçərək Qara dənizə gələn Bakı – Supsa kəməri ilə nəql ediləcəkdir. Bu, tarixi bir qərar idi. Azərbaycanın, eləcə də regionun gələcəyi üçün həmin qərarın əhəmiyyəti böyük idi. Bu gün o tarixi qərarın əhəmiyyətini qeyd etmək xüsusilə vacibdir.

***Zbiqnev BJEZİNSKİ,***
***ABŞ prezidentinin sabiq müşaviri, məşhur politoloq və siyasi xadim***

* * *

Sizin rəhbərliyiniz altında burada iqtisadiyyat inkişaf edir, sabitlik daha da güclənir, təhlükəsizlik daha da təmin olunur. Ən başlıcası odur ki, ABŞ-la əlaqələr daha da sıx olur, daha da inkişaf edir.

...Sizin uzaqgörənliyinizin nəticəsidir ki, Azərbaycanda iqtisadiyyat bu cür inkişaf edir, bizim əlaqələrimiz inkişafdadır. Lakin təkcə iqtisadiyyatda deyil, ümumiyyətlə, həyatın bütün sahələrində bu inkişafı, tərəqqini görmək müşküldür.

***Yan KALİTSKİ,***
***ABŞ Ticarət Nazirliyinin keçmiş müşaviri***

* * *

Sizin Moskvada yüksək vəzifədə – Siyasi Büronun üzvü, hökumət başçısının birinci müavini vəzifəsində işlədiyiniz, yəni ədliyyə nazirini təqdim etdiyiniz dövrlə bağlı bir epizodu Sizə xatırlatmaq istəyirəm. O vaxtlar mən SSRİ Ədliyyə Nazirliyi kollegiyasının üzvü idim. Nazirliyin necə olması, bu vəziyyətdə, - onda isə dönüş vəziyyəti idi, – nazirin, bizim hamımızın, yəni kollegiya üzvlərinin, nazirlik aparatının özünü necə aparmalı, ölkədə öz işini necə qurmalı olduğu barədə Sizin gözəl, qısa, lakin çox məzmunlu nitqinizi xatırlayıram. O vaxtlar İttifaq Nazirliyi qarşısında qoyduğunuz vəzifələrin bir çoxu indi Rusiya Ədliyyə Nazirliyində, onun funksiyalarında öz əksini tapmışdır.

***Andrey TREBKOV,***
***Beynəlxalq Hüquqşünaslar İttifaqının prezidenti***

* * *

Hörmətli Heydər Əliyevlə ünsiyyət məni həm də bir çox cəhətdən zənginləşdirir. Çünki onun həyat yolu, olduqca böyük siyasi və dövlət fəaliyyəti təcrübəsi mənə də çox şey verir. Bəzən bu və ya digər problemi, necə deyərlər, siyrilmiş qılıncla həll etmək istəyirsən, müdrik bir insan olan Heydər Əliyev isə tələsməməyi məsləhət görür. Hərçənd dəqiq, sərt mövqe ona həmişə xas olan xüsusiyyətdir.

...Heydər Əliyev məhz bu mürəkkəb keçid dövrü ərzində bütün məsələlərdə ardıcıllıq nümayiş etdirmiş bir insandır. Buna görə də ona MDB liderləri hörmət bəsləyir, ondan nümunə götürürlər.

Ona heç də təkcə MDB liderləri hörmət etmirlər. Heydər Əliyev bütün dünyada məşhurdur.

...Heydər Əliyevin tarixdə rolunu və yerini birinci yerə çıxarmaq istəyirəm.

***Leonid KUÇMA,***
***Ukrayna Respublikasının prezidenti***

* * *

Son yeddi ildə Sizin ölkənizə liderliyiniz sayəsində apardığınız böyük işləri və gördüyünüz böyük işləri qeyd etməyə bilmərəm. Hesab edirəm ki, Siz ölkəni çox ağır bir vəziyyətdən çox işıqlı gələcəyə aparan yollara çıxarmısınız. Məhz Sizin səyləriniz sayəsində Azərbaycan dövlət quruculuğu sahəsində çox önəmli səylər göstərməkdə, çox böyük işlər görməkdədir.

***Koişuro MATSUURA,***
***YUNESKO-nun keçmiş baş direktoru***

* * *

70 ilin zülmətindən çıxan Azərbaycan çox böyük uğurla güclü bir dövlətə çevrilir. Mən sadəcə enerji – neft, qaz sahəsində əldə edilən nailiyyətləri demirəm. Azərbaycan həqiqətən regionda siyasi cəhətdən güclü bir dövlətə çevrilir.

Mənim fikrimcə, bu nailiyyətlərin hamısını hər şeydən əvvəl bir amillə bağlamaq lazımdır. Ölkənin parlaq gələcəyini təmin edən əsas amil Azərbaycandakı möhkəm sabitlikdir. Cənab prezident, mən onu bildirmək istəyirəm ki, bu sabitlik məhz Sizin şəxsi fəaliyyətiniz, səyləriniz sayəsində mümkün olmuşdur.

***Jak BOMEL,***
***AŞ PA-nın nümayəndəsi, Fransa parlamentinin üzvü***

* * *

Cənab prezident!

Siz çox təcrübəli siyasətçisiniz. Biz də Sizin bu təcrübənizdən özümüz üçün, daxili siyasətimiz üçün müəyyən biliklər götürmək istəyirik.

***Hans-Ulrixl KLOZE,***
***AFR diplomatı***



* * *

Mən Sizin bütün fəaliyyətinizi diqqətlə müşahidə etmişəm. Siz görkəmli dövlət rəhbərisiniz, çox yaxşı məktəb keçmisiniz. Siyasi Büronun üzvü, Sovet İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini olmusunuz. Uzun illər Azərbaycana rəhbərlik etmisiniz, Azərbaycan üçün çox işlər görmüsünüz. Mən Sizə ürəkdən minnətdaram, həmişə Sizin kimi adamlardan öyrənmişəm. Sizin fikirlərinizi həmişə diqqətlə dinləmişəm və onları yüksək qiymətləndirmişəm. Sovet İttifaqı dağıldıqdan sonra da mən Sizin addımlarınızı diqqətlə izləmişəm – bu, mənim üçün maraqlı idi.

***Eduard RASSEL,***
***Rusiya Federasiyası Sverdlovsk vilayətinin qubernatoru***

* * *

Sizin nə etdiyiniz, dedikləriniz bizim üçün həmişə çox vacibdir. Mən dəfələrlə demişəm ki, Sizin baxışlarınız bizim üçün mühümdür. Son hadisələr də sübut edir ki, Sizin sayənizdə biz həqiqətən daha çox konsensusa gəlməyə, başlıcası isə müəyyən olunmuş istiqamətdə irəliləməyə başlamışıq.

***Yuri YAROV,***
***MDB-nin icraçı katibi***

* * *

Şübhəsiz ki, biz öz təcrübəmizi Sizinlə bölüşə bilərik. Amma siyasətdə Sizə dərs vermək, ümumiyyətlə, mümkün olmayan bir işdir.

***Stenli ESKUDERO,***
***ABŞ-ın ölkəmizdəki keçmiş səfiri***

* * *

Cənab prezident!

Mən və Vaşinqtondakı digər rəhbərlərimiz Sizin Azərbaycanın iqtisadi inkişafını təmin etmək sahəsində gördüyünüz tədbirləri və göstərdiyiniz xidmətləri görmüşük, bunu yüksək qiymətləndiririk. Siz Azərbaycanın gələcəyini təmin etmək, Şərq-Qərb dəhlizinin inkişaf etdirilməsi üçün böyük addımlar atmısınız və biz bu layihələrin həyata keçirilməsində Sizin tərəfdaşınız olaraq qalmaqda davam edirik.

***Uilyam RİÇARDSON,***
***ABŞ-ın sabiq energetika naziri***

* * *

Azərbaycan prezidenti böyük liderdir. Mən onunla görüşməkdən, tanış olmaqdan məmnun oldum.

***Pərviz MÜŞƏRRƏF,***
***Pakistan İslam Respublikasının prezidenti***

* * *

Siz nəinki Azərbaycan, həm də Qafqazda, ümumiyyətlə, MDB ölkələrində elə bir insansınız ki, çoxları Sizdən nümunə götürürlər. Siz burada Rusiya ilə qarşılıqlı münasibətlərin dayağısınız. Hər halda, mən bunu Rusiya adından bəyan etmək üçün rəsmi şəxs deyiləm, amma bir rusiyalı olaraq bunu duyuram, bilirəm, başa düşürəm.

*Lyüdmila ŞVETSOVA,*
*Moskva hökuməti sədrinin birinci müavini*

* * *

Mən bütün cəhətləri ilə müqayisə edilə bilən, Qafqazın bu vaxta qədər ən böyük liderlərindən biri olan bir şəxslə işlədiyimdən çox böyük məmnunluq duyuram. Mən uzun bir siyasi karyerası olan, öz ölkəsini, dövlətini həqiqətən quran prezident Heydər Əliyevdən çox şey öyrənmişəm. O, öz ölkəsinin inkişafı və tərəqqisi üçün möhkəm əsas yaradaraq son illər iqtisadi və siyasi islahatlar yolunda həqiqətən ciddi şəkildə irəliləyir.

*Stenli ESKUDERO,*
*ABŞ-ın ölkəmizdəki keçmiş səfiri*

* * *

Uca şəxsiyyətinizin tərifəlayiq liderliyi altında müstəqil, demokratik bir dövlət olan Azərbaycan bütün dünyada hörmət qazanmışdır. Gənc Azərbaycan dövlətinin tanınmasında və öz iqtisadiyyatını dünya iqtisadiyyatı ilə sıx bağlamasında Sizin kimi böyük bir şəxsiyyətin əvəzsiz xidmətləri olmuşdur.

*Əhməd Necdət SEZƏR,*
*Türkiyə Respublikasının prezidenti*

* * *

Siz Azərbaycanda iqtisadi islahatlar prosesinin irəli aparılmasını daim diqqətinizdə saxlayırsınız. Bunu dəstəkləyirsiniz.

...Məhz Sizin rəhbərliyiniz, liderliyiniz və öz vətəniniz üçün uzaqgörənliyiniz olmasaydı, Azərbaycanda mümkün olan biznes imkanlarının həyata keçirilməsi baş tutmazdı.

*Kenni HOZL,*
*ABŞ-ın tanınmış iqtisadçısı*

* * *

Sizin liderliyiniz altında ölkəniz Azərbaycan xalqı üçün daha demokratik, daha çiçəklənən və sülhsevər bir gələcək qurulması yolunda nailiyyətlər əldə edir.

*Ross UİLSON,*
*ABŞ-ın ölkəmizdəki keçmiş səfiri*



* * *

Siz həqiqətən bütün Qərb marşrutunu yaratmış lidersiniz. Siz o şəxsiyyətsiniz ki, Qafqazı dünyaya açmısınız və mən də, bütün Gürcüstan da bunu iftixarla vurğulayırıq. Bütün Gürcüstanın Sizə necə böyük hörmət bəslədiyini bilirsiniz.

...Siz o şəxsiyyət, o lidersiniz ki, Gürcüstanda hər bir ailə Sizə hörmət bəsləyir. Bu gürcü xalqının yaddaşında əsrlər boyu yaşayacaqdır. Sizin Gürcüstan üçün etdiklərinizin qiyməti misilsizdir.

*Georgi ÇANTURİYA,*
*Gürcüstan Beynəlxalq Neft Korporasiyasının prezidenti*

* * *

Böyük bir siyasi xadim olduğunuza görə biz Sizin təcrübənizə əsaslanaraq, münasibətlərimizdə yeni keyfiyyətli əlaqələr yaratmaq əzmindəyik.

*Həsən RUHANİ,*
*İran İslam Respublikasının Ali Təhlükəsizlik Şurasının katibi*

* * *

Azərbaycanda nə varsa, hamısı Heydər Əliyevin keçmiş zamanda xidmət göstərdiyi vaxt yaradılmışdır. İndi yenidən canlanma gedir. Amma hörmətli Heydər Əliyevin Azərbaycana gətirdiyi ən önəmli məsələ sabitlikdir.

Hörmətli Heydər Əliyev Azərbaycan üçün şəxsiyyətdir. Bunu onunla yaxın olduğuma görə söyləmirəm. Azərbaycana olan sevgimdən, məhəbbətimdən söyləyirəm. Azərbaycan xalqının rifahı və səadəti baxımından söyləyirəm.

Hörmətli Heydər Əliyev dünyada tanınan adamdır. Hansı qapını döysə, o qapı açılır. İstədiyi zaman Şirakla, istədiyi zaman Buşla, istədiyi zaman istənilən insan ilə danışır. Azərbaycan dövlətini dünyada etibarlı şəkildə təmsil etməkdədir.

*Süleyman DƏMİRƏL,*
*Türkiyənin 9-cu prezidenti*

* * *

Siz böyük dövlət xadimisiniz. Mənim üçün çox xoş idi ki, Sizin idarə etdiyiniz ölkəyə səfir təyin olunmuşdum. Böyük məmnuniyyətlə Sizin fəaliyyətinizi izləyirdim və görürdüm ki, Siz burada sülhü və sabitliyi möhkəmləndirmək üçün əlinizdən gələni edirsiniz.

*Henrik LİLYEQREN,*
*İsveç diplomatı*

* * *

Qoy dostlarımız da bilsinlər ki, Gürcüstanda da müəyyən dəyişikliklərin həyata keçirilməsinin zəruriliyi haqqında qərar qəbul edildikdə, həlledici söz Heydər Əliyeviç Əliyevin sözü oldu. Gürcüstan barəsində, Gürcüstanın rəhbərləri barəsində nə kimi tədbirlər görülməsi haqqında məsləhətləşmələrə başladıqda məhz Heydər Əliyev risk edərək dedi ki, heç kimi axtarmaq lazım deyil, belə bir insan var, onunla işləmək olar.

***Eduard ŞEVARDNADZE,***
*Gürcüstan Respublikasının sabiq prezidenti*

* * *

Biz Sizin bu günə qədər göstərdiyiniz səyləri yüksək qiymətləndiririk və parlamentdə müxtəlif siyasi partiyaları təmsil edən nümayəndələrlə görüşlər zamanı onu da bildirmişik ki, Azərbaycanın qərbyönümlü olmasını və Azərbaycanın azadlıq, demokratiya və qanunun aliliyi tərəfində olmasını yüksək qiymətləndiririk.

***Rafael ESTRELLA,***
*məşhur siyasi xadim*

* * *

Sizin bütün parlaq və səmərəli həyatınız və dövlət fəaliyyətiniz ölkəmizin tarixi ilə qırılmaz surətdə bağlıdır. Siz SSRİ-nin rəhbərlərindən biri olarkən – 1982-1987-ci illərdə Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən ölkəmizdə elmin və təhsilin inkişafı üçün çox böyük işlər görmüsünüz. Siz Nazirlər Sovetinin xüsusi məsələlər üzrə bürosuna başçılıq edərkən Moskva Universitetinə dəfələrlə böyük kömək göstərmisiniz.

***Viktor SADOVNİÇ,***
*rusiyalı ictimai xadim*

* * *

Heydər Əliyevi bu binada qəbul etmək bizim üçün, agentliyin əməkdaşları üçün xüsusilə xoşdur. Çünki bu bina vaxtilə Nazirlər Sovetinin qərarına uyğun olaraq Sovet İttifaqı hökuməti sədrinin birinci müavini Heydər Əliyevin sərəncamı ilə tikilmişdir. Sizə hətta balaca bir sirr açacağam. Bu gün Heydər Əliyev binamızın bəzək daşları arasında Azərbaycan daşını da görüb tanıdı.

***Mixail QUSMAN,***
*«İTAR-TASS» agentliyinin baş direktorunun birinci müavini*

* * *

Cənab prezident!

Xüsusilə məmnunam ki, bu gün Sizinlə görüşürəm. Çünki Azərbaycan ilə ABŞ arasındakı münasibətlərdə yeni mərhələ açılır.



**İranda Heydər Əliyevin iradəli, qətiyyətli və böyük siyasətçi olduğuna təkcə prezident Xatəmi yox, həm də bütün İran vətəndaşları şübhə etmirlər.**



**İtaliya prezidenti Oskar Luizi Skalfaro prezident Heydər Əliyevi öz ölkəsində görməkdən məmnundur.**



Moskva meri Yuri Lujkovla birlikdə.



Heydər Əliyevin prezident kimi ilk səfəri Fransaya olmuşdu. Fransua Mitteran bunu çox yüksək qiymətləndirirdi.



Cənab prezident, Əfqanıstanla bağlı danışıqlar, fikir mübadiləsindən sonra biz Sizinlə bu barədə böyük məmnuniyyətlə söhbət edərdik. Böyük məmnuniyyət hissi ilə Sizin məsləhətinizi öyrənərdik ki, həmin ölkənin təhlükəsizliyini necə təmin edək.

***Elizabett CONS,***
***ABŞ dövlət katibinin müavini***

* * *

Heydər Əliyev, antiterror koalisiyasının mübarizəsinə töhfənizə görə Sizə bütün Rusiya adından böyük təşəkkürümü bildirirəm. Bu, olduqca böyük cəsarət tələb edirdi və Sizin şəxsi, fərdi töhfənizi Rusiyada çox yüksək qiymətləndiririk. Bu, çox böyük işdir və bir çox mürəkkəb problemlərin nizama salınması üçün gördüyünüz işlərə görə mən Sizin qarşınızda bir daha baş əyirəm.

***Vyaçeslav TRUBNİKOV,***
***Rusiya Federasiyasının xarici işlər nazirinin birinci müavini***

* * *

Rusiya Azərbaycan xalqının lideri kimi, Azərbaycan Respublikasının müdrik və uzaqgörən rəhbəri kimi Sizi yüksək qiymətləndirir. Siz bunu Moskvada səfərdə olarkən bir daha yəqin etdiniz. Rusiya - Azərbaycan münasibətlərinin ümumi potensialına misilsiz töhfə verdiyinizə görə, ikitərəfli əməkdaşlığın bütün cəhətlərinə şəxsən diqqət yetirdiyinizə görə, məsələlərin dərindən araşdırılmasına və vaxtında həll edilməsinə görə Sizə böyük ehtiramımızı bildiririk.

***Nikolay RYABOV,***
***Rusiya Federasiyasının Azərbaycandakı səfiri***

* * *

Heydər Əliyevin liderliyi altında Azərbaycan Respublikasının atdığı addımları Türkiyə təqdirlə izləyir. Azərbaycan xalqının xoşbəxtliyi Türkiyə xalqının da xoşbəxtliyidir.

***Əhməd Necdət SEZƏR,***
***Türkiyə Respublikasının prezidenti***

* * *

Cənab Heydər Əliyev, Sizin şəxsiyyətinizə bizim böyük hörmətimiz var.

***Məhəmməd XATƏMİ,***
***İran İslam Respublikasının prezidenti***

* * *

Siz təkcə öz ölkəniz üçün deyil, həm də şəxsən mənim üçün böyük şəxsiyyətsiniz.

***Boris QROMOV,***
***Moskva vilayətinin qubernatoru, vilayət hökumətinin sədri***

* * *

Biz prezident Heydər Əliyevin adını müstəqillik əldə etdikdən sonra Azərbaycan xalqının, öz ölkəsinin inkişafı üçün göstərdiyi səylərlə bağlayırıq.

***İon İLİYESKU,***
***Rumıniya Respublikasının prezidenti***

* * *

Cənab prezident, Siz sabitlik və sağlam iqtisadi idarəetmə sistemi yaratmaqla düzgün xətt götürmüsünüz.

***Ross UİLSON,***
***ABŞ-ın Azərbaycandakı keçmiş səfiri***

* * *

Onu xatırlatmaq kifayətdir ki, uzun illər ölkələrimiz vahid dövlətin tərkibində olmuş, xalqlarımız isə ağır və çətin günlərdə, böyük və şərəfli qələbələrdə, nailiyyətlərdə bir yerdə olmuşlar. Bu dostluğun qorunub saxlanmasında, siyasi ab-havaya, son on-on beş ilin dramatik hadisələrinə məruz qalmasında Azərbaycan xalqının tanınmış lideri və keçmiş vahid dövlətin – Sovet İttifaqının görkəmli dövlət xadimi kimi Sizin böyük xidmətləriniz var.

Məhz Sizin siyasətçi, dövlət xadimi istedadınız, şəxsi keyfiyyətləriniz, iradəniz, indiki nəslin qismətinə düşmüş sınaqlardan çıxmağa, Azərbaycan dövlətçiliyini möhkəmləndirməyə, yüksək beynəlxalq nüfuz qazanmağa imkan verdi.

***Anatoli TORKUNOV,***
***Moskva Dövlət Beynəlxalq Münasibətlər Universitetinin rektoru***

* * *

Korrupsiyaya, kadr durğunluğuna, hər cür qohumbazlığa və daha nələrə qarşı mübarizə. Bilirsinizmi, bu, hamıda böyük maraq doğurmuşdu. Mən qəzetləri – Azərbaycan qəzetlərini almağa və informasiya əldə etməkdən ötrü onları oxumağa başladım. O vaxtlar adama elə gəlirdi ki, respublikanın, belə demək mümkünsə, lap zayı çıxıb, ancaq birdən-birə o, əməlli-başlı inkişaf etməyə başladı.

...Heydər Əliyev mənim xoşuma gəldi. O, olduqca ünsiyyətcil insandır, istər ən yüksək, istərsə də lap adi səviyyədə söhbət aparmaq qabiliyyətinə malikdir.

...Əliyev heç şübhəsiz, böyük siyasətçidir, ağıllı, iradəli, ehtiyatlıdır.

Heydər Əliyev qabiliyyətli, bacarıqlı insandır, o, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi hökuməti də real surətdə tam gücü ilə işlədə bilərdi. Siyasi Büronun fəal üzvü və son dərəcə ciddi rəhbər idi. O, prinsipial bir şəxs idi, onun səviyyəsi də, siyasi miqyasda buna imkan verirdi. Möhkəm iradi keyfiyyətlərə də malik idi.

***M.S.QORBAÇOV,***
***SSRİ KP MK-nın sabiq baş katibi***



* * *

Mən Sizin strateji uzaqgörənliyiniz və qətiyyətiniz sayəsində həyata keçən bugünkü mərasimə təşrif buyurmuş hökumət və şirkət rəhbərlərini alqışlayıram. Amerika Birləşmiş Ştatları möhkəm sülhün və tərəqqinin təmin edilməsi üçün Xəzərin enerji ehtiyatları sayəsində Sizinlə uzun illər davamlı əməkdaşlıq etmək niyyətindədir.

***Corc BUŞ,***
***ABŞ prezidenti***

* * *

Bu gün, 2002-ci il sentyabrın 18-də ABƏŞ Bakı – Tbilisi – Ceyhan neft kəmərinin təməlinin qoyulduğunu və eləcə də AÇG adını almış «Azəri – Çıraq – Günəşli» dəniz yataqlarının istismarının Faza-2 mərhələsinin başlandığını elan edəcəkdir.

Bu hadisə prezident Heydər Əliyevin uzun illərdən bəri həyata keçirdiyi səylərin nəticəsidir və Fransa onu ilk gündən tamamilə dəstəkləmişdir.

Bugünkü mərasim xarici sərmayələri cəlb etmək yolunu tutmuş Azərbaycanın inkişaf strategiyasının nə qədər düzgün olduğunu bir daha təsdiqləyir.

***Jak ŞİRAK,***
***Fransa Respublikasının prezidenti***

* * *

Prezident Heydər Əliyevin Azərbaycanın əsas ixrac boru kəmərinin işçi qrupunu yaratdığı vaxtdan, yəni 1997-ci il sentyabrın 5-dən bəri bu güclü tədbirin iştirakçıları uzun yol keçmişlər. Ötən müddət ərzində prezident Heydər Əliyev neft və qaz ixracı dəhlizinə verdiyi dəstəkdən geri çəkilməmişdir. Onun boru kəmərlərinin reallığa çevrilməsində göstərdiyi uzaqgörənlik və qətiyyət bu böyük və mühüm işlərin düzgün istiqamətləndirilməsini mümkün etmişdir.

***Spenser ABRAHAM,***
***ABŞ-ın energetika naziri***

* * *

Sentyabrın 18-də Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəməri tikintisinin təməlinin qoyulması Azərbaycan xalqı üçün, bütün region üçün inkişafa doğru güclü bir amildir. Bu, həmçinin ABŞ hökumətinin Sizin hökumətlə ardıcıl əməkdaşlığının müsbət nəticələrini nümayiş etdirir. Bu layihənin müvəffəqiyyətlə həyata keçirilməsi, eyni zamanda lider kimi Sizin uzaqgörənliyinizi və bir çox çətin hallarda göstərdiyiniz yüksək təşkilatçılıq qabiliyyətinizi nümayiş etdirir.

***Spenser ABRAHAM,***
***ABŞ-ın energetika naziri***

* * *

Siz bizim çox sevdiyimiz dövlət adamısınız, türk dünyasının öndəri, böyüyüsünüz. Siz Sovet İttifaqının Siyasi Bürosuna qədər yüksələn yeganə türk insansınız. Həyatınız daim mücadilə içində keçmişdir. Sizə hörmətimiz, sevgimiz sonsuzdur.

*Vəli SARITORPAQ,*
*Türk Sənayeçi və İş Adamları Vəqfinin (QÜCUAB) sədri*

* * *

Mən Heydər Əliyevi özümə dost sayıram. Ona pərəstiş edirəm. O, dahi şəxsiyyətdir. Heydər Əliyev Azərbaycan üçün böyük işlər görüb və o, ölkənizin tarixində əbədi olaraq qalacaq. Əgər Heydər Əliyev də məni özünə dost sayırsa, bunu özümə böyük şərəf hesab edirəm.

*Stenli ESKUDERO,*
*ABŞ-ın Azərbaycandakı keçmiş səfiri*

* * *

Cənab prezident!

Mən bilirdim ki, Sizin çox güclü, əfsanəvi yaddaşınız var. Bunu hamı bilir. Bundan əlavə, qeyd edim ki, Sizin həm də çox incə yumor hissiniz var və onu bu gün bir daha nümayiş etdirirsiniz.

...Sizin şəxsiyyətiniz məni həddindən çox mütəəssir etdi.

...1993-cü ildən bəri Azərbaycanda gördüyünüz işlərin hamısını çox böyük heyranlıqla təsdiq etməliyəm. Sizin qarşınızda duran vəzifənin nəhəngliyini və mürəkkəbliyini çox gözəl dərk edirəm.

*Tyeri dö MOKBRİAL,*
*Fransa Beynəlxalq Əlaqələr İnstitutunun direktoru*

* * *

Sizin liderliyinizlə Azərbaycanın haradan-haraya gəldiyini çox yaxşı gördüm. İnsan bir şeyi hər gün görürsə, böyük dəyişiklikləri duymur, amma on illik fasilədən sonra Azərbaycanı gördüyüm zaman heyrət içində qaldım və qəlbim təqdir duyğuları ilə doldu. Hər şey o qədər gözəl olmuşdur ki, insanların üzündən məmnuniyyət, əsgərlərin özlərinə güvənmələri, iş görmələri, Silahlı Qüvvələrin gücü - bütün bunlar hər sahədə çox böyük dəyişikliklər baş verdiyini aşkar göstərir. Bunların zati-alinizin böyük öndərliyi ilə əldə olunduğunu hər kəs bilir.

*Hilmi ÖZKÖK,*
*Türkiyə Silahlı Qüvvələri Quru Qoşunlarının komandanı, ordu generalı*



* * *

Sizin apardığınız bu müdrik siyasət neftin qiymətlərinin dəyişməsi ilə yaranan kataklizmlərdən yaxa qurtarmağa imkan yaradır.

*Aksel GERLAX,*
*AFR-in dövlət katibi*

* * *

Möhtərəm Heydər Əliyev təkcə Azərbaycan dövlətinin prezidenti deyil, eyni zamanda bütün bölgənin dayağıdır. Canlı əfsanə olan möhtərəm Heydər Əliyev bütün bölgəmizdə, Avrasiyada sülhün bərqərar olunması sahəsindəki xidmətləri ilə yanaşı, türk dünyasında cərəyan etməkdə olan münasibətlərin böyük öndəri və memarıdır. Əsrin müqaviləsi adlandırdığımız Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri layihəsinin memarı da məhz prezident Heydər Əliyevdir.

Ancaq məni valeh edən başqa bir məqam da vardır. Bu da möhtərəm Heydər Əliyevin Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Lissabon sammitində ortaya qoyduğu mövqeyini müdafiə etməsidir. Çətin şəraitə, böyük təzyiqlərə baxmayaraq, siyasi müdrikliyi sayəsində prezident Heydər Əliyev çox əhəmiyyətli beynəlxalq sənədə Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və gələcəyi üçün həyati məna daşıyan fikirləri daxil etməyə müvəffəq olmuşdur. Yüksək siyasətin mahiyyəti, böyük dövlət adamı xüsusiyyəti də məhz belə şəraitlərdə meydana çıxır.

Möhtərəm Heydər Əliyevi yalnız siyasi xadim, təkcə Azərbaycan Respublikasının prezidenti, ölkəsinin lideri kimi görmək, məncə, kifayət deyildir. O, XX əsrdən XXI əsrə keçən bir xəzinədir, çox böyük dövlət adamıdır. Əsrimizin, dövrümüzün nadir siyasi xadimlərindəndir.

Möhtərəm Heydər Əliyev bütün çətinliklərə sinə gərərək, bölgəyə sülhü gətirən bir şəxsiyyətdir. Özünün və xalqının yaşadığı haqsızlıq və ədalətsizliklər vardır. Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemini hər zaman və xüsusilə də son dövrdə müharibə yolu ilə də həll edə bilər. Ancaq belə bir gücü və imkanı olmasına baxmayaraq, prezident Heydər Əliyev özündən 80 il əvvəl yaşayan başqa bir böyük dövlət adamı – Mustafa Kamal Atatürk kimi «Yurdda sülh, cahanda sülh» prinsipi ilə hərəkət edərək, xalqının haqlı, ədalətli mövqeyini danışıqlar masası arxasında müdafiə edir. Bu işdə də uğurlar əldə olunmuşdur. Həm BMT-nin, həm də Avropa Şurasının və ATƏT-in rəsmi sənədlərində Azərbaycanın ərazi bütövlüyünün tanınması öz əksini tapmışdır. Bu, diplomatiya nöqteyi-nəzərindən böyük bir müvəffəqiyyətdir. Bu, insanlıq, humanizm baxımından böyük uğurdur.

Biz – Türkiyə türkləri prezident Heydər Əliyevin dərin mənalı «bir millət, iki müstəqil dövlət» sözlərini zərb-məsəl kimi əzbərləmişik. Bu mənalı sözlərin sahibi Heydər Əliyev söylədiklərini əməli fəaliyyəti ilə də isbat edir.

*Akkan SUVER,*
*Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri*

* * *

Siz yüksək zirvəni fəth etmisiniz. Keçmişə nəzər salsaq, Siz bu günlərdə tanıdığımız Avropanın formalaşmasında və Avroatlantika Birliyinin inkişafında həlledici rol oynamısınız. Gələcəkdə birlikdə işləyərək NATO ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etdirilməsini davam edəcəyik.

**_Lord Corc ROBERTSON,_**
**_NATO-nun baş katibi_**

* * *

Qeyd etmək mənim üçün xüsusilə xoşdur ki, sosial-əmək sahəsində dinamik inkişaf edən Rusiya-Azərbaycan əməkdaşlığı Sizdən dəstək alır və gözəl perspektivlərə malikdir.

Sizin çox zəngin həyat təcrübəniz, vətənə fədakarcasına xidmət etməyiniz Rusiya Federasiyası xalqları arasında Sizə yüksək nüfuz və dərin hörmət qazandırmışdır.

**_Aleksandr POÇİNOK,_**
**_Rusiyanın əmək və sosial inkişaf naziri_**

* * *

Qarabağ münaqişəsinin həllinin araşdırılmasında sülh yoluna sədaqətiniz hər kəsə məlumdur və bilirəm ki, bu müddət ərzində Sizin göstərdiyiniz cəsarəti və müdrikliyi Azərbaycan xalqı çox dəyərləndirir, bunun nəticəsində atəşkəsə nail olunmuşdur və o vaxtdan bəri də Siz sülh prosesini davam etdirmək üçün daim çalışırsınız.

Azərbaycan böyük potensiala malik bir ölkədir və parlaq iqtisadi gələcəyə inamla baxa bilər. Çətin anlarda Sizin rəhbərliyinizin belə bir gələcəyə hazırlıq üçün köməyi çox olub və Siz çoxsaylı nailiyyətlərinizlə fəxr edə bilərsiniz.

**_Anjey KASPRŞİK,_**
**_ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsi_**

* * *

Qoy Sizin zəngin həyat təcrübəniz, yüksək peşəkarlığınız, fitri rəhbər istedadınız və siyasətçi müdrikliyiniz tarixinə artıq parlaq səhifələr yazdığınız Azərbaycanın rifahı naminə qurub-yaratmaq əməyinizdə yeni-yeni uğurlara nail olmağa hökmən kömək etsin.

**_Aleksandr OMELÇENKO,_**
**_Kiyev Şəhər İcra Hakimiyyətinin başçısı_**

* * *

Cənab prezident, Siz Azərbaycanın, elə bir ölkənin rəhbərisiniz ki, onunla Rusiyanı dostluq, ən müxtəlif sahələrdə əməkdaşlıq münasibətlərinin və əlaqələrin bütöv bir dövrü bağlayır. Dövlətlərimiz arasında münasibətlərin ən yeni tarixinin bir çox dramatik məqamları ölkələrimizin dostluğuna xələl gətirə bilməmişdir və bu, Azərbaycan xalqının tanınmış lideri kimi Sizin xidmətinizdir. Məhz Sizin siyasətçi, dövlət xadimi istedadınız, şəxsi keyfiyyətləriniz, iradəniz indiki nəslin bəxtinə düşmüş bir sıra sınaqlardan uğurla çıxmağa, rəhbərlik etdiyiniz ölkənin dövlətçiliyini möhkəmləndirməyə, Azərbaycanın yüksək beynəlxalq nüfuz qazanmasına nail olmağa imkan vermişdir.

Cənab prezident, biz yaxşı bilirik ki, Siz Azərbaycanın Rusiya ilə siyasi, ticarət-iqtisadi və mədəni-elmi münasibətlərinin möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə tərəfdarsınız. MDBMİ(U)-nin Elmi Şurası ölkələrimiz arasında münasibətlərin inkişafına, dövlətlər arasında beynəlxalq münasibətlərin inkişafına, müxtəlif ölkələr və xalqlar arasında sülhün möhkəmlənməsi və qarşılıqlı anlaşmanın dərinləşməsi işinə, mədəniyyət və təhsilin inkişafına töhfənizi yüksək qiymətləndirərək, Sizə MDBMİ(U)-nin Fəxri doktoru adını vermişdir.

**_A.TORKUNOV,_**
**_Rusiya XİN-in Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) rektoru, fövqəladə və səlahiyyətli səfir, siyasi elmlər doktoru, professor_**

* * *

Dövlət rəhbəri kimi Sizin Azərbaycanın və bütövlükdə Cənubi Qafqaz regionunun həyatında görkəmli rolunuzu qeyd etmək mənim üçün xüsusilə xoşdur.

Müxtəlif rəhbər vəzifələrdə çoxcəhətli fəaliyyətiniz Yer kürəsinin hər yerində Sizə şöhrət və haqlı hörmət qazandırmışdır. Sizi nəinki qeyri-standart təfəkkürü ilə fərqlənən müdrik siyasətçi, ölkəni demokratikləşdirmə və bazar islahatları yoluna yönəltmiş rəhbər, sülh uğrunda fəal mübariz kimi, həm də alim və görkəmli ictimai xadim kimi tanıyırlar və qiymətləndirirlər.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası dünya miqyasında geniş tanınmağa nail olmuşdur. Şübhəsiz, beynəlxalq aləmdə ölkənin bu cür tanınmasının əsasını Sizin əməyiniz, əhatəli biliyiniz və zəngin həyat təcrübəniz təşkil edir. Çoxillik çətin fəaliyyətiniz nəticəsində Cənubi Qafqazda əmin-amanlıq bərqərar olmuşdur və qorunub saxlanılır, işgüzar və mədəni əlaqələr bərpa edilir və canlanır, müqavilələr bağlanır və sərmayələr daxil olur. "LUKoyl" neft şirkəti fəxr edir ki, Azərbaycan müəssisələri ilə möhkəm tərəfdaşlıq münasibətləri qura bilmişdir. Biz istəyirik ki, bu əlaqələr ölkələrimizin iqtisadiyyatının möhkəmlənməsinə səmərəli şəkildə xidmət etsin, Azərbaycan və Rusiya xalqlarının rifahının yüksəlməsinə kömək etsin.

**_Vahid ƏLƏKBƏROV,_**
**_«LUKoyl» neft şirkətinin prezidenti_**

* * *

Siz şanlı əmək yolu keçmisiniz və ən mühüm tarixi hadisələrin bilavasitə iştirakçısı və yaradıcısısınız. Azərbaycanın müasir dövlət kimi təşəkkül tapması Azərbaycan Respublikasının

müstəqilliyinin və inkişafının rəmzi olan Sizin adınızla qırılmaz surətdə bağlıdır. Siz həmişə öz xalqınızın, ölkənizin, dövlətinizin vətənpərvəri və layiqli lideri olmusunuz.

***İqor MAKAROV,***
***«İTERA» beynəlxalq şirkətlər qrupunun prezidenti***

* * *

Azərbaycanın bugünkü gözəl durumu və işıqlı gələcəyi Sizin adınızla bağlıdır.

***Caşvantlal ŞAH,***
***«M.J.Qroup» şirkətlər qrupunun prezidenti***

* * *

Bu günə qədər nail olduqlarınızın hamısı Sizin istedadınızın, əməksevərliyinizin, qətiyyətinizin və sönməz həyat enerjinizin nəticəsidir. Sizin əmək bioqrafiyanız, həqiqətən, böyük hörmət hissi doğurur.

***MALTSEV,***
***«Rostselmaş» ASC-nin baş direktoru***

* * *

Siz elə bir yaşa və sosial vəziyyətə çatmısınız ki, hər bir il bütövlükdə böyük, parlaq və zəngin həyatdır və bu gün mən, əziz Heydər Əlirza oğlu, Sizə tükənməz enerji və cansağlığı arzulayıram. Bu, Azərbaycanın bundan sonra da çiçəklənməsi üçün lazımdır, Rusiya-Azərbaycan münasibətlərinin strateji inkişafı və möhkəmlənməsi üçün lazımdır.

Heydər Əlirza oğlu, Sizin böyük nüfuzunuz bizim çoxmillətli Qafqazda sosial-iqtisadi və siyasi tərəfdaşlığın sabitliyinin rəhnidir. Heydər Əlirza oğlu, biz Sizi xatırlayırıq, sevirik, Sizə və Azərbaycan xalqına xoşbəxtlik, firavanlıq və uğurlar arzulayırıq.

***V.A.KAZNAÇEYEV,***
***Stavropol diyarı rektorlar şurasının sədri,***
***Pyatiqorsk Dövlət Texnologiya Universitetinin rektoru,***
***professor***

* * *

Mütərəqqi dünya ictimaiyyətinin geniş dairələrində Sizi görkəmli siyasi xadim və dövlət xadimi kimi tanıyırlar. Yeniləşmiş Azərbaycan dövlətinin tarixinə yazılmış parlaq səhifələr Sizin adınızla bağlıdır.

***Q.ŞOKİN,***
***Beynəlxalq Kadr Akademiyasının prezidenti***



**Misir prezidenti Hüsnü Mübarəklə birlikdə.**



**Azərbaycan dünya birliyinin üzvüdür. BMT-nin baş katibi Kofi Annanla.**



Fələstin lideri Yasir Ərafatla.



Tatarıstan prezidenti Mintemir Şaymiyev Heydər Əliyevin məsləhətinə həmişə ehtiyac duyub.



* * *

Çoxillik səmərəli və faydalı əməkdaşlığa görə Sizə minnətdarlıq sözləri demək üçün bu gün yaxşı əsasımız var. Tassçı jurnalistlərin neçə-neçə nəsli özünün bütün ömrünü doğma xalqına sədaqətlə xidmətə həsr etmiş ən nüfuzlu müasir siyasi liderlərdən biri, Rusiyanın ardıcıl və etibarlı dostu kimi Sizə dərin hörmətlə yanaşmışdır. Sizdə dövlət xadimi müdrikliyi gözəl insani keyfiyyətlərlə, insanlara qayğıkeş münasibətlə vəhdət şəklində birləşmişdir. Biz Sizin jurnalist əməyinə diqqətcil, xeyirxah münasibətinizi, tassçı müxbir və fotoreportyorlar üçün həmişə vaxt tapmağa hazır olduğunuzu yaxşı bilir və yüksək qiymətləndiririk. Sizin onlarla görüşməyə vaxt ayırmağınız Azərbaycanın həyatını operativ, hərtərəfli və dərindən işıqlandırmağa imkan verir.

*Vitali İQNATENKO,*
*İTAR-TASS agentliyinin baş direktoru*

* * *

Möhtərəm prezident!

Siz bütün həyatınızı Azərbaycan Respublikasının siyasi və sosial durumunun və hər bir Azərbaycan vətəndaşının rifahının yaxşılaşmasına həsr etmişsiniz. Sizin müdrik və düzgün daxili və xarici siyasətiniz nəticəsində Azərbaycanın beynəlxalq nüfuzu durmadan artır, ölkədə demokratik ruh güclənir, sabitlik günbəgün möhkəmlənir.

*Süzan KRAUÇ,*
*«Spirhed Ekzibişenz/Kaspian İvents Ltd.» şirkətinin sədri*

* * *

Sizin həyat yolunuza nəzər saldıqda, ona heyran olmamaq mümkün deyildir. Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra bu ölkəni dərin siyasi və iqtisadi böhrandan çıxara bilən, cəmiyyətin demokratikləşdirilməsinə və bazar iqtisadiyyatının inkişafına yönəldilmiş islahatlara apara bilən insan məhz Siz oldunuz. Məhz Sizin sayənizdə Azərbaycan beynəlxalq aləmdə layiqli yer tutmuşdur.

*Florentin SKALETSKİ,*
*Rumıniya İnsan Hüquqlarını Müdafiə Təşkilatının prezidenti*

* * *

Sizi əmin edim ki, ölkədə sülhə tam əminlik yaradan siyasətçi kimi Sizin böyük istedadınızı həmişə çox yüksək qiymətləndirmişəm və qiymətləndirirəm.

*V.M.SEROV,*
*«İTERA HOLDİNQ» Məhdud Məsuliyyətli Cəmiyyətin sədri*

Azərbaycan və Türkiyə bir millətin iki dövlətidir. Bu, dünyaya elan edilmişdir. Bu iki dövlət qardaşdır və dostdur, bu qardaşlıq və dostluq əbədidir. Bütün bunların arasında hörmətli Heydər Əliyevi böyük bir lider olaraq görürük və onun üçün dedim ki, indi onun 80 illiyini qeyd etsəydik, yaxşı olardı. O, indi bir az nasazdır. Hamımız ona tez bir zamanda sağalmasını arzulayırıq. İnşallah, ən qısa müddət ərzində yaxşılaşacaq və vəzifəsinin icrasına qayıdacaqdır.

*Süleyman DƏMİRƏL,*
*Türkiyənin 9-cu prezidenti*

* * *

Qırğızıstanda Sizi qarşıya qoyulan məqsədlərə çatmaqda qətiyyət və əzmkarlığa malik dünya miqyaslı məşhur dövlət xadimi və siyasi xadim kimi yaxşı tanıyırlar.

Əsasən, Sizin istedadınız, müdrikliyiniz, əməksevərliyiniz, dəyanətiniz sayəsində qardaş Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini ildən-ilə möhkəmləndirərək, dünya birliyi ilə bərabər XXI əsrə sabit inkişaf edən dövlət kimi qədəm qoymuşdur.

Azərbaycan xalqı, haqlı olaraq, Sizə ölkəsinin tərəqqisi və təhlükəsizliyinin təminatçısı kimi baxır. Əminəm ki, Sizin fəaliyyətiniz Azərbaycan xalqının gələcəyi naminə yeni parlaq xarüqələrlə əlamətdar olacaqdır.

*Əsgər AKAYEV,*
*Qırğızıstan Respublikasının prezidenti*

* * *

Çox böyük təcrübəniz, siyasi və həyat müdrikliyiniz, nüfuzunuz, ən başlıcası isə, ölkə sakinlərinin dostluğu Azərbaycan Respublikasının prezidenti vəzifəsi kimi məsul işdə Sizə kömək edir.

Sevindirici haldır ki, Siz ölkələrimiz və xalqlarımız arasında ənənəvi dostluq münasibətlərinin saxlanmasına və möhkəmlənməsinə böyük diqqət yetirirsiniz.

*Boris YELTSİN,*
*Rusiya Federasiyasının birinci prezidenti*

* * *

Sizin rəhbərliyinizlə Azərbaycan səmərəli şəkildə ictimai dəyişikliklər həyata keçirir, iqtisadi, sosial və mənəvi-mədəni potensialı gücləndirir, dünya birliyinə fəal surətdə daxil olur. Müstəqil Dövlətlər Birliyində inteqrasiya proseslərinin, Rusiya Federasiyası ilə münasibətlərin möhkəmlənməsində Sizin böyük rolunuz var. Respublikalarımız arasında da sosial-iqtisadi, mənəvi-mədəni əlaqələr getdikcə daha sıx olur.

*Murtuza RƏHİMOV,*
*Başqırdıstan Respublikasının prezidenti*



* * *

Sizin yorulmaz fəaliyyətiniz sayəsində dost Azərbaycan ictimai və iqtisadi həyatda müsbət nəticələrə nail olmuşdur. Bu gün Azərbaycan Respublikası dünya birliyində layiqli yer tutur, beynəlxalq və regional təhlükəsizliyin möhkəmlənməsi ilə bağlı aktual problemlərin həllinə fəal kömək edir.

İnanırıq ki, Sizin rəhbərliyinizlə Azərbaycan xalqı inkişaf və tərəqqi yolu ilə dönmədən irəliləyəcəkdir.

*Valentina TEREŞKOVA,*
*Rusiya XİN nəzdində Beynəlxalq Elmi və Mədəni Əməkdaşlıq Mərkəzinin rəhbəri*

* * *

Sizin bütün həyatınız dövlət mənafelərinə sədaqətlə xidmətin parlaq nümunəsidir. Dinc və realist xarici siyasət aparılması sayəsində Azərbaycanın regionda və beynəlxalq aləmdə nüfuzu durmadan artır.

Ölkələrimiz arasında ənənəvi dostluğun, yaxın mehriban qonşuluğun və hərtərəfli əməkdaşlığın inkişafı və möhkəmlənməsi işinə verdiyiniz sanballı şəxsi töhfənizi Rusiyada yaxşı bilir və yüksək qiymətləndirirlər.

*İqor İVANOV,*
*Rusiya Federasiyasının xarici işlər naziri*

* * *

Bir çox onilliklər ərzində ən məsul dövlət vəzifələrində Sizin əməyiniz yüksək peşəkarlıqla və insanlara həqiqi qayğı ilə əlamətdar olmuşdur. Azərbaycan Respublikasının prezidenti vəzifəsində fəaliyyət göstərdiyiniz dövrdə müdrik rəhbər və məsuliyyətli siyasətçi kimi Siz müxtəlif xalqların və dinlərin nümayəndələri, təkcə Azərbaycanın deyil, həm də dünyanın bir çox dövlətlərinin vətəndaşları arasında hörmət və yüksək nüfuz qazanmısınız. Bu, Sizin çox yüksək xidmətlərinizin və əməyinizin səmərəliliyinin təsdiqidir.

Rus Pravoslav kilsəsi Azərbaycan Respublikasının pravoslav sakinlərinin həyatına Sizin şəxsən qayğı göstərməyinizi yüksək qiymətləndirir. Bakıda əzəmətli baş kafedral kilsənin ucaldılması buna sübutdur.

*II ALEKSİ,*
*Moskvanın və bütün Rusiyanın patriarxı*

* * *

Təhlükəsizlik, enerji və bazar iqtisadiyyatının qurulması kimi ümumi məqsədləri həyata keçirməklə bərabər, Sizin rəhbərliyiniz dövründə ölkələrimiz arasında münasibətlər də möhkəm-

lənmişdir. İraq məsələsində Azərbaycanın göstərdiyi dəstəyə görə mən öz minnətdarlığımı bildirir və Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisindəki inkişafı çox müsbət qarşılayıram.

Amerika Birləşmiş Ştatları Azərbaycanda demokratiya və bazar iqtisadiyyatı islahatlarına dəstək verməyi davam etdirəcəkdir. Oktyabr ayında keçiriləcək prezident seçkilərinə biz böyük ümidlər bəsləyirik, çünki bununla Azərbaycan demokratik xalqların cəmiyyətinə inteqrasiyasının genişlənməsini yenə də nümayiş etdirmək imkanı əldə edəcəkdir.

***Corc BUŞ,***
***Amerika Birləşmiş Ştatlarının prezidenti***

* * *

Azərbaycanı sabit, çiçəklənən bir dövlətə çevirmək yolunda qətiyyətiniz üçün bir daha öz ehtiramımı bildirim.

Arzu etmək istəyirəm ki, Sizin ölkənizdəki növbəti seçkilər sülhə doğru və Dağlıq Qarabağda münaqişənin həlli yolunda bir irəliləyiş olsun. Sizə məlumdur, bu sahədə mənim tam dəstəyimə əmin ola bilərsiniz.

Ölkəniz qarşısındakı, onun tərəqqisi naminə və sülh uğrunda misilsiz xidmətlərinizi qiymətləndirmək üçün mən Sizi Fəxri Legion ordeninin Böyük Xaçı ilə təltif etməyi qərara aldım. Arzu edərdim ki, Fransaya növbəti səfəriniz dövründə bu ordeni Sizə təqdim etmək məmnunluğunu duyum. Bunun mümkünlüyünü oğlunuz İlham ilə birlikdə müzakirə etmişik.

***Jak ŞİRAK,***
***Fransa Respublikasının prezidenti***

* * *

Görkəmli dövlət xadimi və siyasi xadim kimi Sizə Rusiyada səmimi hörmət hissləri bəsləyirlər.

Azərbaycan xalqının rifahı naminə çoxşaxəli fəaliyyətiniz Sizə bütün dünyada geniş şöhrət qazandırmışdır.

Ölkələrimizin xalqlarını əsrlər boyu bir-birinə bağlamış və indi də bağlayan əsl dostluq, yaxın mehriban qonşuluq və qarşılıqlı etimad ənənələrinin inkişafı və möhkəmlənməsi işinə verdiyiniz töhfəni yüksək qiymətləndiririk.

Əminəm ki, əsasən, Sizin şəxsi səyləriniz sayəsində strateji tərəfdaşlıq xarakteri alan Rusiya – Azərbaycan münasibətləri Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin qorunmasının ən mühüm amillərindən biri olaraq, bundan sonra da hər vasitə ilə möhkəmləndiriləcəkdir.

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının prezidenti***

* * *

Nüfuzlu siyasətçi və dövlət xadimi kimi Sizin adınız müstəqil Azərbaycan Respublikasının dünyada layiqli yerini tutması və beynəlxalq birliyə daxil olması ilə qırılmaz surətdə bağlıdır.



Bolqarıstan Respublikası Azərbaycan Respublikasının regional sabitliyə və Avropa, Avroatlantik qurumlarına inteqrasiyaya istiqamətləndirilmiş xarici siyasətinin həyata keçirilməsində Sizin aparıcı rolunuzu yüksək qiymətləndirir və alqışlayır.

***Georgi PİRVANOV,***
***Bolqarıstan Respublikasının prezidenti***

* * *

Sizin zəngin siyasi və həyat təcrübəniz, dərin biliyiniz və məqsədyönlülüyünüz sayəsində suveren Azərbaycan öz dövlətçiliyini möhkəmləndirmək, iqtisadi inkişaf və dünya birliyinə inteqrasiya olunmaq sahəsində böyük uğurlar qazanmışdır.

Qazaxıstanda Sizi dövlətimizin həqiqi dostu, Qazaxıstan–Azərbaycan münasibətlərinin dinamik inkişafına misilsiz töhfə vermiş dost kimi tanıyırlar. Həmişə konstruktiv dialoq və qarşılıqlı anlaşma şəraitində keçən görüşlərimizi məmnunluqla xatırlayıram. Qarşılıqlı hörmət və etimada əsaslanan səmimi münasibətlərimizi yüksək qiymətləndirirəm.

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının prezidenti***

* * *

Hörmətli Heydər Əliyev dostumdur, qardaşımdır, Azərbaycan Respublikasının prezidentidir. Onunla uzun zamandır ki, tanışıq. Ona böyük sevgim, hörmət və ehtiramım vardır. Bunun kökündə onun insani xüsusiyyətləri, Azərbaycan millətinə, xalqına xidmətləri, Azərbaycan dövləti, müstəqilliyi naminə gördüyü işlər durur. Mənim tanıdığım Heydər Əliyev Azərbaycan vətənpərvəridir, bir o qədər də türk vətənpərvəridir. O, böyük türk topluluğunun keçmişini, gələcəyini çox yaxşı bilir. Yaxşı bilir ki, bu topluluğun içindəki hər müstəqil dövlət bir qardaşdır. Millət birdir, dövlətlər ayrı-ayrıdır. Türkiyə və Azərbaycan xalqları qardaş millətdir, bir millətdir. Biz bu bir millətin iki dost və qardaş dövlətləriyik.

Hörmətli Heydər Əliyev Azərbaycanın ən çətin vaxtında siyasət səhnəsinə çıxmışdır. 1960-1980-ci illərdə Azərbaycana böyük xidmətləri olmuşdur. Bəzi insanlar, siyasi xadimlər ölkələrinə xidmətlər göstərir, amma elə bir gün gəlir ki, belə şəxslərə olduqca böyük ehtiyac duyulur. Yəni, bu şəxs olmasa, – «Bu ölkənin taleyi necə olacaqdır?» – deyə düşünəcəksiniz. Məsələn, Çörçill 1939-cu ildə İngiltərənin rəhbərliyində olmasaydı, tarixin gedişi necə dəyişərdi? Çörçill 65 yaşındaydı və o zaman İngiltərədə çoxlu siyasi xadim vardı. Ancaq ehtiyac duyulan şəxs o idi.

Hörmətli Heydər Əliyev 1993-cü ilin iyununda yenidən hakimiyyətə gəlmişdir. O zamanı xatırlayın. Azərbaycan müstəqilliyini elan etmişdi. Ölkədə qarışıqlıq yaşanırdı. Bundan sonra Əbülfəz Elçibəy prezident seçildi. Lakin Əbülfəz Elçibəy sabitlik yarada bilmədi. Yenə də Azərbaycanda qarışıqlıq meydana gəldi: yəni müstəqilliyini əldə edən xalq bayram şənlikləri əvəzinə hakimiyyət uğrunda mübarizə içərisində idi. Belə vəziyyətdə bir adamın ortaya çıxıb «dayanın!» deməsi zəruri idi. Azərbaycan xalqı Heydər Əliyevə böyük ehtiyac duydu. Heydər Əliyev özü gəlib hakimiyyəti ələ almadı. Onu bu yüksək vəzifəyə Azərbaycan xalqı dəvət etmişdir.

O vaxtdan ötən 10 il ərzində Azərbaycan sabitlik içində yaşadı. Mən Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin təsirini azaltmaq, bunu əhəmiyyətsiz göstərmək fikrində deyiləm. Onu söyləmək istəyirəm ki, Heydər Əliyev rəhbərliyə gəldiyi zaman artıq Qarabağda olan olmuşdu. Keçən 10 il ərzində bu məsələnin həllində iki yol vardı: birincisi, müharibəni davam etdirmək, Azərbaycanın bütün ehtiyatlarını xərcləmək, ölkəni viran hala gətirmək və ya sülhə, daha doğrusu, atəşkəsə nail olaraq, qan tökülməsinin qarşısını almaq, vaxt qazanmaq idi. Məncə, ən doğru yol seçildi.

Atəşkəsə nail olunaraq, ölkənin digər işləri ilə məşğul olmaq imkanı yaradıldı. Daxili sabitlik bərqərar edildi, iqtisadi inkişaf, quruculuq işləri başlandı.

Hörmətli Heydər Əliyevin gördüyü ən böyük işlərdən biri məhz bu ölkədə sabitliyin yaradılması, asayişin bərqərar olunmasıdır. Bu, asan iş deyildi. Heydər Əliyevə qarşı sui-qəsdlər hazırlanırdı. Ancaq Azərbaycan xalqı üçün, mənim qardaşlarım üçün ən vacib şey müstəqil dövlətin yüksələn bayrağıdır. Yüksələn bayraq enməz! Azərbaycanın müstəqilliyi güclüdür, əbədidir.

Heydər Əliyev öz həyatını təhlükəyə ataraq, Azərbaycandakı qardaş qarşıdurmasına son qoymuşdur.

Heydər Əliyev Azərbaycana demokratik seçkiləri gətirmişdir. Bu il də seçkilər keçiriləcəkdir. Demokratiya o qədər də asan məsələ deyildir. Kommunist sistemindən, marksist sistemdən bazar iqtisadiyyatına və demokratiyaya keçmək çox çətin bir prosesdir. Heydər Əliyev bu prosesin bünövrəsini qoymuşdur. Zəruri islahatların müəllifidir. Heydər Əliyev Azərbaycanı dünyaya tanıtdı, Azərbaycan BMT, Avropa Şurası, ATƏT, İKT kimi nüfuzlu beynəlxalq təşkilatların bərabərhüquqlu üzvüdür. Azərbaycan bütün dünya tərəfindən tanınır.

Heydər Əliyev «Əsrin müqaviləsi»nin, Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri layihəsinin memarıdır. Bu, böyük hadisədir. Torpağın altında yatan sərvət Azərbaycan xalqının rifahına xidmət edəcəkdir.

«Zəngin təbii ehtiyatlarımız var» deməklə bir şey olmaz. Əhəmiyyətli olanı bu zəngin ehtiyatlardan xalqın maddi rifahının yüksəldilməsi üçün istifadə etməkdir.

Hörmətli Heydər Əliyev həm Türkiyə, həm də digər qonşular – Gürcüstan, Rusiya və İranla möhkəm əlaqələr qurmuşdur, Ukrayna ilə, Orta Asiyadakı türkdilli dövlətlərlə sıx münasibətlər yaratmışdır. Azərbaycanın MDB daxilində əhəmiyyətli yeri vardır.

Azərbaycan ilə ABŞ arasında çox yaxşı əməkdaşlıq əlaqələri mövcuddur. Prezident Heydər Əliyevin istər Əfqanıstan, istərsə də İraq müharibələri zamanı tutduğu mövqe də çox müsbətdir.

Müasir dünyada beynəlxalq aləmdə mühüm rol oynamaq üçün güclü olmaq lazımdır. Daxili siyasi və iqtisadi problemlər yaşayan dövlət beynəlxalq aləmdə də həlledici rol oynaya bilməz. Həm Türkiyə, həm də Azərbaycan daxildə güclü olmalıdır. Həm Türkiyə, həm Azərbaycan müasir dünyada coğrafi-siyasi baxımdan çox əhəmiyyətli strateji mövqeyə sahibdirlər.

***Süleyman DƏMİRƏL,***
***Türkiyənin 9-cu prezidenti***



**Böyük Britaniya Azərbaycana və onun prezidenti Heydər Əliyevə həmişə böyük sayğı ilə yanaşıb və bu səbəbsiz deyil. Böyük Britaniyanın baş naziri Con Meycorla iki ölkə arasında əməkdaşlığın inkişafını nəzərdə tutan sənədlərin imzalanması zamanı.**



**Pakistanın keçmiş prezidenti Əhməd xan Leqari Azərbaycanın ölkəsi üçün etibarlı tərəfdaş olduğunu yaxşı anlayırdı.**



**Nursultan Nazarbayev Heydər Əliyevdən çox şey öyrəndiyini dəfələrlə etiraf edib və görünür bu şəkil də onun sözlərini təsdiqləyən növbəti səhnələrdən biridir.**



**İran Azərbaycana coğrafi anlamda çox yaxındır. Əkbər Haşimi Rafsancani ilə regionun taleyinə dair məsələləri müzakirə edərkən.**



* * *

Sizinlə görüşlərimiz və əməkdaşlığımız haqqında o qədər xatirələrim var ki. Ən birinci xatirəm isə, Sizinlə Azərbaycan yenicə müstəqilliyə çıxdıqdan dərhal sonra baş verən görüşümlə bağlıdır. Siz o zaman Naxçıvanda idiniz və yerli əhaliyə yardımın gətirilməsini təşkil edirdiniz. Mən ilk dəfə orada Sizinlə tanış oldum və birgə işlədim. Sizə elə o vaxtdan ürəkdən bağlandım, çünki mənə atamı xatırlatdınız. Ümid edirəm, bu həqiqəti söylədiyimə görə məndən inciməyəcəksiniz, doğrudan da ona bir qədər oxşayırsınız.

Bu görüşdən sonra Sizinlə dəfələrlə həm mülki şəxs kimi, həm də hakimiyyətdə olarkən birgə işlədim, Sizi Bakıda ziyarət etdim. Daha bir xatirəm ABŞ-Azərbaycan Ticarət Palatasının həmsədri olduğum müddətlə bağlıdır. Siz, Vaşinqtonda səfərdə olarkən, mənə Sizi ABŞ-ın görkəmli şəxslərinə təqdim etmək şərəfi nəsib olmuşdu. Bunu xüsusi rəğbətlə edirdim. Sizi həmçinin sabiq müdafiə naziri Kasper Uaynberqerə təqdim etdim. Xatırlayıram, Siz cənab Uaynberqerə baxıb dediniz: «Sizi televiziya ilə o qədər düşmən qismində görməyə öyrəşmişəm ki. Şəxsən tanış olmağımdan məmnunam». Bu, mənim üçün unudulmaz hiss idi, çünki Kasper Uaynberqer mənim keçmiş müdirim və müəllimim olmuşdur.

Son zamanlar Sizinlə yenidən, bu dəfə mən hakimiyyətdə olarkən, müxtəlif məsələlər üzrə birgə əlaqələr qurmuşuq. Şərq-Qərb enerji dəhlizi layihəsində Sizin rəhbərliyiniz Bakı–Tbilisi–Ceyhan kəmərini mümkün etmişdir. Həmçinin Sizinlə birgə mübarizə apararaq, Dağlıq Qarabağ probleminə sülh yolu ilə nizamlama tapmaq mənim üçün maraqlı idi.

Sizinlə görüşlərimizin birində mən demişdim: «Öz azadlığını, müstəqilliyini qorumaq yolu, demokratiya, azadlıq yolu ilə irəliləyərkən Azərbaycan çox böyük çətinliklərlə qarşılaşıb və bundan sonra da qarşılaşacaqdır. Lakin biz qəti əminik ki, Azərbaycan Heydər Əliyevin rəhbərliyi altında qətiyyətini bundan sonra da göstərərək, öz dövlət müstəqilliyini daha da möhkəmləndirəcəkdir». Ötən illərdə biz bunun şahidi olmuşuq.

Mən müşahidə etmişəm və həqiqətən belədir ki, Azərbaycanın çox uzaqgörən prezidenti vardır. Siz həmişə demokratiya, tərəqqi, iqtisadi irəliləyiş haqqında düşünür, həmişə düzgün hərəkət edirsiniz. Belə adamlar həmişə işləri yaxşı nəticəyə gətirib çatdırırlar.

ABŞ-da Sizin dostlarınız çoxdur və onlar dəfələrlə ölkənizə səfər etmiş, bu regionun ən uzaqgörən şəxsi ilə görüşmüşlər.

Bütün Birləşmiş Ştatlar Hökuməti Sizin rəhbərliyiniz altında Azərbaycanın həm Əfqanıstanda, həm də İraqda əməliyyatlar zamanı koalisiyaya möhkəm dəstəyinə görə təşəkkürünü bildirir. Bunlar əsl dostluğun ölçüləridir. Amerkalılar bunları unutmur və heç bir zaman unutmayacaqlar.

***Riçard ARMİTAC,***
***ABŞ dövlət katibinin birinci müavini***

* * *

Sizin Azərbaycanda sülh və sabitlik yaratmaq səyləriniz bütün dünyada mövcud olan münaqişələrin dincliklə həll edilməsi üçün qürur və ümid mənbəyidir.

***Moşe KATSAV,***
***İsrail dövlətinin prezidenti***

* * *

Rusiya, Azərbaycan Respublikası və digər MDB dövlətlərinin çoxmillətli xalqlarının dostluğu uzun illərdən bəri Sizin adınızla qırılmaz surətdə bağlıdır. Müasir Azərbaycanın uğurları və nailiyyətləri də Sizin adınızla bağlıdır.

Sizin bütün çoxşəkilli fəaliyyətiniz əsl vətənpərvərliyin, öz Vətəninə məhəbbətin, öz xalqına fədakarcasına xidmətin təzahürünə parlaq nümunədir.

İcazə verin, bu əlamətdar gündə böyük Azərbaycan xalqının rəhbəri olaraq Sizin mərdliyinizə, müdrikliyinizə və istedadınıza heyran qaldığımı ifadə edim. Məhz bu keyfiyyətlər Sizə yüksək nüfuz qazanmağa və bütün dünyada tanınmağa imkan vermişdir.

Sizin şəxsi təvazökarlığınız və insanlığınız Sizə Azərbaycan xalqının və planetimizdə milyonlarla adamın çox böyük hörmət və məhəbbətini qazandırmışdır.

***Ruslan AUŞEV,***
***Sovet İttifaqı Qəhrəmanı, MDB-nin üzvü olan dövlətlərin Hökumət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin İşləri Komitəsinin sədri***

* * *

Elə insanlar var ki, onların irəlidə, göz qabağında olması, başqalarından fərqlənməsi sanki əvvəlcədən alınlarına yazılmışdır. Onlarla ayaqlaşmağa çalışırlar, onları nümunə göstərirlər, məsuliyyətin əsas yükünü də onlar daşıyırlar, tarixin gedişinə məhz onlar təsir göstərirlər.

Haqlı olaraq, Siz də belə insanlar sırasındasınız. Siz bütün ömrünüzü vətənə fədakarcasına xidmətə həsr etmisiniz. Siz mənim təsəvvürümdə vətənpərvər, dövlətin ali mənafeləri uğrunda güzəştsiz mübariz obrazının təcəssümüsünüz.

Azərbaycan xalqı Sizə daim yüksək etimad göstərir, Sizi iki dəfə respublikanın prezidenti seçmişdir.

Dövlət idarəçiliyinin ən çətin məsələlərini vaxtında həll etmək bacarığınız və mürəkkəb dünya siyasi prosesində yarım addım öndə olmaq istedadınız Sizi müasir dövrün aparıcı dövlət xadimləri ilə bir sıraya çıxarır. Sizin adınız təkcə Azərbaycan Respublikasında deyil, onun hüdudlarından kənarda da çox məşhurdur. Siz Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlətlərarası münasibətlərinin təşəkkülü, inkişafı və möhkəmlənməsi işinə misilsiz töhfə vermisiniz.

Mübaliğəsiz demək olar ki, beynəlxalq mütəşəkkil cinayətkarlıqla mübarizə işində güzəştsiz mövqeyiniz, habelə hüquq-mühafizə orqanlarının antiterror və antikriminal fəaliyyətini MDB-nin üzvü olan dövlətlərin Daxili İşlər Nazirləri Şurası çərçivəsində əlaqələndirmək sahəsində apardığınız böyük iş ümumən Birliyin bütün ərazisində, o cümlədən Qafqaz regionunda sabitliyin möhkəmlənməsinə çox kömək edir.

Biz uzun illər ərzində Azərbaycanı və Rusiyanı bir-birinə bağlayan dostluq və əməkdaşlıq ənənələrini çox əziz tuturuq və Azərbaycan DİN ilə Rusiya DİN arasında çoxşəkilli qarşılıqlı



fəaliyyətin möhkəmlənməsinə və daha da inkişaf etməsinə göstərdiyiniz diqqəti yüksək qiymətləndiririk.

***Boris QRIZLOV,***
***Rusiya Federasiyasının daxili işlər naziri***

* * *

Mən Azərbaycan prezidenti ilə şəxsən tanışam. Əlbəttə ki, o, dünya siyasətinin patriarxıdır. Onun doğma xalqı üçün, öz ölkəsi üçün nə qədər böyük işlər gördüyü hamıya məlumdur. O, həqiqətən, millətin atasıdır. Mən millətin bu atasına – Heydər Əliyevə Azərbaycanda qarşıdakı prezident seçkilərində qələbə qazanmağı ürəkdən arzulayıram. Əminəm ki, belə də olacaqdır. Heydər Əliyev, xalq arasında deyildiyi kimi, hələ çoxlarını yola salacaqdır.

***Boris OLEYNİK,***
***Ukrayna Parlamentinin AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri***

* * *

Xalqlarımız arasındakı tarixi dostluğun və anlaşmanın inkişafına Sizin töhfənizi yüksək qiymətləndiririk. Qarşılıqlı dəstək və mehriban qonşuluq münasibətləri dövlətlərimizin müstəqilliyinin və beynəlxalq nüfuzunun möhkəmlənməsinin həmişə etibarlı əsası, habelə regionda sülhün və sabitliyin bərqərar edilməsi üçün çox mühüm zəmin olmuşdur.

Hörmətli Heydər Əlirza oğlu, Sizinlə maraqlı və məzmunlu söhbətimizi tez-tez xatırlayıram. Qəti əminəm ki, dövlətlərimiz arasında əsrlərdən bəri təşəkkül tapmış dostluq və etimad münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da dönmədən möhkəmlənəcək və inkişaf edəcəkdir.

***Nino BURCANADZE,***
***Gürcüstan parlamentinin sədri***

* * *

Sizin həyat enerjinizə, iradənizin mətinliyinə və yenilməzliyinə daim heyranam.

***Aleksandr DZASOXOV,***
***Şimali Osetiya-Alaniya Respublikasının prezidenti***

* * *

Sovet İttifaqında yetim uşaqların vəziyyətinin yaxşılaşdırılması üçün Sizin dövlət səviyyəsində göstərdiyiniz əsl atalıq qayğısı mənim qəlbimdə, Uşaq Fondunun yaddaşında həmişə qalacaqdır. 1985-ci ildə Sizin köməyinizlə qəbul edilmiş hökumət qərarı Rusiya məkanında indiyədək qüvvədə qalır və atılmış uşaqlara iqtidarın qayğıkeş münasibətinə nümunədir.

Bildirirəm ki, Siz uşaqların müdafiəsi sahəsində görkəmli xidmətlərinizə görə, Uşaq Fondları Beynəlxalq Assosiasiyasının qərarı ilə Lev Tolstoy adına beynəlxalq qızıl medalla təltif olunmusunuz.

***Albert LİXANOV,***
***Uşaq Fondları Beynəlxalq Assosiasiyasının prezidenti***

* * *

Azərbaycan xalqı ilə birlikdə bütün türk xalqı da həyata keçirdiyiniz möhtəşəm işləri nadir dövlətçilik təcrübəsi və siyasi məharət, möhkəm qətiyyət və əzmkarlıq, misilsiz fədakarlıq sayəsində uğurla davam etdirəcəyinizə qəlbdən əmindir.

Ümidvarıq ki, bundan sonra da Azərbaycan xalqı ölkəsini siyasi xaosdan, iqtisadi böhrandan, sosial fəlakətdən və coğrafi yoxluqdan xilas edən möhtərəm prezident Heydər Əliyev ilə birlikdə sülh və demokratiya, əmin-amanlıq, iqtisadi inkişaf və tərəqqi şəraitində tarixinin yeni canlı səhifələrini yazacaqdır.

***N.Kamal YAZIÇIOĞLU,***
***TUSİAB-ın İdarə Heyətinin sədri***

* * *

Cənab prezident, müharibənin ağır və amansız illəri zamanı hakimiyyətə gəlişinizlə Siz ölkənin birliyini saxlamağa və möhkəmləndirməyə, vətəndaş həmrəyliyi yaratmağa nail oldunuz. Azərbaycan xalqının özünə inam və sakitlik tapması məni sevindirirdi. Ölkə xalq təhsilinin yüksək səviyyəsinə çatmaqla və öz təbii sərvətlərinə sahib olmaqla, tərəqqi yoluna qədəm qoymaqla yoxsulluqdan müvəffəqiyyətlə çıxa bildi.

Yaxşı xatırlayıram ki, Sizin gəlişinizlə ölkənizdə müdafiə, siyasi və ictimai, iqtisadi kontekstin tamamilə dəyişməsi fəaliyyətimizin sürətli inkişafına imkan verdi. 1995-ci ilin noyabrında Fransanın Nant şəhərində keçirilən üç qitənin festivalında ölkənizin fotosərgisini, rəsmlərini, musiqisini və kinosunu təqdim etmək üçün 90 nəfərdən ibarət ziyalı və artisti oraya aparan təyyarədə bir nəfər kinorejissorun Sizin ruhlandırıcı və ürəkləndirici məktubunuzu oxuması xatirimdə həmişəlik iz salıbdır.

***Gİ ŞEVALYE***
***Fransanın Bakıdakı səfirliyinin keçmiş əməkdaşı***

* * *

Ölkənizin dünyanın digər inkişaf etmiş dövlətləri sırasında layiqli yer tutması və mərd Azərbaycan xalqının firavanlığı və tərəqqisi istiqamətində göstərdiyiniz yorulmaz və mütəmadi səylərinizi alqışlayıram.

Yeri gəlmişkən, İslam Konfansı Təşkilatı və Azərbaycan Respublikası arasında mövcud olan möhkəm əlaqələri, Zati-alinizin İslam Konfransı Təşkilatına göstərdiyi dəstəyi və müsəlman ümmətimizin həmrəyliyinin möhkəmləndirilməsi yolunda səylərini yüksək qiymətləndirirəm.

Zati-aliləri cənab prezident!

Ən yüksək ehtiramım barədə zəmanətimi qəbul etməyinizi xahiş edirəm.

***D-r Əbdülvahid Bilq ƏZİZ,***
***İslam Konfransı Təşkilatının baş katibi***



* * *

Bu qədər əhəmiyyətli uğurlar məhz Sizin uzaqgörən rəhbərliyinizin nəticəsi olaraq gerçəkləşə bilmişdir. Həqiqətən də, bu gün ölkənin neft və qaz sənayesinin inkişafında yeni, əlamətdar bir mərhələnin təcəssümü olaraq xüsusi önəm daşıyır. Elə bir mərhələnin ki, bu, Azərbaycanın təbii ehtiyatlarından onun xalqının və ümumən bölgənin işıqlı sabahı naminə istifadə edilməsi ilə bağlı uzaqgörən baxışlarınızı gerçəkliyə çevirəcəkdir.

Sizin dəyərli rəhbərliyinizdən faydalanan daha bir mühüm təşəbbüs, yəni BTC şirkətinin yaradılması ilə mühüm irəliləyiş müşahidə olunur. Layihə bu il yüksək göstəricilərə nail olmuşdur və hər üç ölkədə qrafikə tam uyğun həyata keçirilməkdədir. Nazirlər Kabinetinin 7 aprel tarixli qərarına uyğun olaraq, torpaq kompensasiyalarının ödənilməsi prosesinə başlanmışdır ki, bu da iyun ayında başa çatacaqdır. Eyni zamanda, artıq hər üç ölkədə layihənin inşaat mərhələsi başlamışdır. BTC layihəsi yalnız Azərbaycan neftinin dünya bazarına ixrac edilməsinə mühüm töhfə olaraq qalmayacaqdır. Bu, eyni zamanda bölgədə iqtisadi inkişafı sürətləndirəcək, regional sülh və təhlükəsizlik məsələləri üçün əhəmiyyət daşıyan müttəfiqlik əlaqələrini daha da möhkəmləndirəcəkdir. Bilirəm ki, bunlar Sizin qəlbən önəm verdiyiniz məsələlərdir.

Sizin davamlı dəstəyinizlə biz bölgədə dünya səviyyəsinə cavab verən biznes təcrübəsi yaradırıq və inanıram ki, sıx əməkdaşlığımız şəraitində biz bütün məqsədlərimizə nail olmağa tam hazırıq. Qəti əminik ki, bu layihələr Azərbaycanı qlobal enerji bazarının aparıcı qüvvəsinə çevirməklə bağlı Sizin uzaqgörənliklə yaşatdığınız ideyanıza mühüm bir töhfə olacaq və ölkəyə sərmayə qoyuluşları axınına əhəmiyyətli dərəcədə yol açacaqdır. Azərbaycan, onun xalqı və tərəfdaşları üçün bu gözəl gündə, bu fərəhli anlarda Sizə cansağlığı, xalqınızın və bölgənin xoşbəxtliyi və inkişafı naminə həyata keçirdiyiniz yorulmaz işlərinizdə, tükənməz fəaliyyətinizdə sonsuz uğurlar arzulayıram.

***Devid VUDVORD,***
***«bp Azərbaycan» şirkətinin prezidenti***

* * *

Azərbaycanda iş görmək üçün imkan yaratdığınıza və ölkədə olduğumuz ilk günlərdən bizə göstərilən səmimi diqqətə görə Sizə təşəkkürümü bildirirəm. Əminik ki, qısa müddət ərzində biz Mişovdağ və Kələməddin yataqlarının hasilatını əhəmiyyətli dərəcədə artırmağa nail olacağıq. Eyni zamanda, Padar sahəsinin və ona bitişik strukturların böyük potensiala malik olduğuna inanırıq.

Azərbaycanın böyük və şərəfli neft sənayesi tarixi vardır. Bu sahədə texniki və intellektual potensiala malik olan bacarıqlı və istedadlı insanlar çalışır. Sizin şəxsi səyləriniz sayəsində Azərbaycan bir ölkə kimi, öz iqtisadı və ictimai inkişafında sürətlə irəliləmişdir. Azərbaycanın son on il ərzindəki nailiyyətləri böyük təəssürat bağışlayır. Sizin neft strategiyanız ölkənin neft sənayesinin inkişafına önəmli təkan vermişdir. Son 8 ildə Azərbaycan tərəfindən imzalanmış 20-dən artıq pay bölgüsü sazişləri sərmayədarların Sizin ölkənizə göstərdiyi güclü inamın sübutudur. Qürur

hissi ilə «Əsrin müqaviləsi» adlandırılan ilk müqavilə həm Azərbaycan, həm də sərmayədarlar üçün çox sərfəli olmuşdur. «Şahdəniz» layihəsi Azərbaycanın daha bir parlaq ulduzudur. Əminəm ki, yaxın gələcəkdə biz bu yatağın zəngin qaz ehtiyatlarının işlənilməsinin şahidi olacağıq və bununla Azərbaycan dünya miqyaslı qaz ixrac edən ölkələr sırasına çıxacaqdır. Sizin siyasətiniz sayəsində Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasına dair müvafiq tədbirlər həyata keçirilmişdir. Bir müddət öncə isə biz hamımız Bakı–Tbilisi–Ceyhan boru kəmərinin təməlinin qoyulmasını qeyd etmişik və mən inanıram ki, qaz kəmərinin tikintisi də tez bir vaxtda başlanacaqdır.

Azərbaycana uğur qazandıran daha bir vacib amil onun siyasi və ictimai sabitliyidir. Bu sahədə Sizin şəxsi rolunuz əvəzsiz və misilsizdir. Azərbaycan Respublikası artıq suveren, demokratik, öz iqtisadiyyatını sərbəst bazar prinsipləri əsasında quran dövlətə çevrilmişdir. Azərbaycanın Avropa Şurasına üzv olması bunun bariz nümunəsidir.

Təbiidir ki, Azərbaycanın yeni dövrdə qazandığı bütün nailiyyətləri Sizin dahi adınızla bağlıdır. Bunların heç birini Sizin əməyiniz, siyasətiniz və şəxsi səyləriniz olmadan təsəvvür etmək mümkün deyildir. Azərbaycan, onun xalqı və biz – burada yaşayıb işləyənlər Sizi bu ölkənin lideri kimi görməyə çox şadıq. Sizin liderliyiniz, müdrik və uzaqgörən siyasətiniz aparılan islahatların qətiyyətinə zəmanətdir.

***Haşim COCOHADİKUSUMO,***
***«Neyşns Enerji Kompani Ltd.»-nin Direktorlar Şurasının sədri***

* * *

Sizin bütün həyatınız Vətənə fədakarcasına xidmət nümunəsidir. On səkkiz yaşında ikən Siz dövlətin təhlükəsizliyini təmin etmək kimi çətin zəhmətə qatlaşanların sıralarına daxil olmuş, Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinədək yol keçmişsiniz. Sizin misilsiz bacarığınız, təşkilatçılıq istedadınız və dövlətçilik təfəkkürünüz ölkə və zaman üçün gərəkli idi. Siz respublikada, Sov.İKP MK-da və SSRİ Nazirlər Sovetində rəhbər vəzifələrə ucaldınız.

Yüksək mükafatlar - Sosialist Əməyi Qəhrəmanı adı, beş Lenin ordeni, Oktyabr İnqilabı, Qırmızı Ulduz ordenləri Sizin xidmətlərinizə parlaq sübutdur.

1993-cü ildə Azərbaycan xalqının Sizi prezident seçməsi qanunauyğun idi. Respublikanın dövlətçiliyinin möhkəmlənməsinə, onun sosial-iqtisadi inkişafına, Rusiya Federasiyası ilə əlaqələrin genişlənməsinə verdiyiniz çox böyük şəxsi töhfəniz əvəzsizdir. Beynəlxalq miqyaslı siyasi xadim və dövlət xadimi kimi Sizin nüfuzunuz Azərbaycan Respublikasının dünyada mövqeyinin möhkəmlənməsinə böyük təkan verir.

***Nikolay PATRUŞEV,***
***Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru***



* * *

Görkəmli dövlət xadimi, parlaq və hər cəhətdən qadir şəxsiyyət olaraq Siz doğma diyarın hüdudlarından uzaqlarda da layiqli nüfuza maliksiniz. Həqiqi milli lider, mənən və ruhən güclü, əsl kişi kimi təmkinli və müdrik şəxsiyyət olaraq Siz həmişə öz xalqınızla bir olmusunuz, çətin və gərgin zamanlarda çətinliklərə onunla birlikdə sinə gərmisiniz. Başlıcası isə, Siz Azərbaycan xalqının ruhunu, məhrəm düşüncə və arzu-istəklərini həssaslıqla duymağı öyrənmisiniz.

Azərbaycanda insanların öz prezidentinə olan inamı hədsizdir, ən çətin illərdə respublikanın müqəddəratı üçün ağır məsuliyyəti öz üzərinizə götürməklə Sizin nələr keçirdiyinizi başa düşürlər. Milyonlarla həmvətəniniz Sizin qəti, ürəyinizin dərinliklərindən süzülüb gələn sözünüzü dərin hörmətlə dinləyir, Azərbaycan torpağında sabitliyin, sülhün və tərəqqinin bərqərar ediləcəyinə bəslədikləri ümidlərini Sizin fəaliyyətinizlə bağlayır.

Əminəm ki, Sizin misilsiz təcrübəniz və çox böyük nüfuzunuz Azərbaycan Respublikasının möhkəmlənməsinə və əmin-amanlığına, onun dünya birliyində layiqli yerinin təmin olunmasına bundan sonra da xidmət edəcəkdir.

***Lyudmila ŞVETSOVA,***
***Moskva hökumətində Moskva merinin birinci müavini***

* * *

Ötən illər ərzində Sizin rəhbərliyinizlə Azərbaycan demokratik dəyişikliklər, sosial və iqtisadi inkişaf sahəsində heyrətamiz uğurlar qazanmışdır.

***Gennadi FADEYEV,***
***Rusiya Federasiyasının yollar naziri***

* * *

Qloballaşan dünyada beynəlxalq əlaqələri hər zaman dəstəkləyən əvəzsiz siyasətinizi təqdir edir və Türkiyə – Azərbaycan münasibətlərinin Zati-alilərinizin liderliyi altında inkişafından böyük qürur duyuram.

***Tunc EREM,***
***professor, doktor, Marmara Universitetinin rektoru***

* * *

Sizin üzərinizə insanların ümidlərini doğrultmaq, hər saat çoxsaylı dövlət problemləri həll etmək kimi çox böyük məsuliyyət düşür. Lakin təcrübə və peşəkarlıq, ziyalılıq və heyrətamiz iş qabiliyyəti Sizə zamanın ahəngini və tələbini duymağa, onlara həssaslıqla reaksiya verməyə və Azərbaycanı inamla irəlilətməyə kömək edir. Siz xalqın hakimiyyətə etimadını bərpa edə bildiniz.

***A.ZUBAKOV,***
***«Rusiya Sığortaçılar Assosiasiyası»nın prezidenti***

* * *

Sizin müdrik və qayğıkeş rəhbərliyinizlə Azərbaycan xalqının əldə etdiyi nüfuz prezidentin ala biləcəyi ən yaxşı ad günü hədiyyəsidir.

Sizin rəhbərliyiniz sayəsində Azərbaycan xalqı artıq azad bazar iqtisadıyyatının, siyasi sabitliyin, beynəlxalq ticarətin faydalarından və eləcə də, ölkənin təbii sərvətlərinin müdrikcəsinə idarə edilməsindən bəhrələnmişdir.

Sizin hökumətiniz xarici sərmayəni cəlb edən işgüzar mühitin yaradılmasında müvəffəqiyyət əldə etmiş və Azərbaycan, əsasən, Sizin şəxsi səyləriniz sayəsində dünya miqyasında etibarlı tərəfdaş kimi tanınmış və hörmət qazanmışdır.

Bir çox şirkətlər, eləcə də EksonMobil şirkəti Azərbaycanın neft və qaz layihələrinin həyata keçirilməsində fəal iştirak etmək qərarını qəbul etmişdir. Biz əminik ki, Azərbaycanın neft və qaz ehtiyatlarının kəşfiyyatı və işlənilməsinə dair nəzərdə tutulmuş proqram ölkənin iqtisadi inkişafına öz mühüm töhfəsini verəcəkdir.

Ad gününüz münasibətilə bir daha ən xoş arzularımı qəbul etməyinizi xahiş edir və bundan sonra da illər boyu rəhbərlik fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

*Tim SEYKA,*
*«EksonMobil Eksploreyşn» şirkətinin icraçi vitse-prezidenti*

* * *

Sizin rəhbərliyiniz altında Azərbaycan dünyada nəzərəçarpan statusa nail olmuşdur və diqqətiniz nəticəsində neft sənayesi öz gözəl bəhrələrini verir.

*Karmil lordu FREYZER,*
*«JKX OİL and GAS plc» şirkətinin sədri*

* * *

Azərbaycan xalqının taleyində, onun bugünkü müstəqilliyinin əldə olunmasında və xoşbəxt gələcəyinin təmin edilməsində Sizin mühüm rolunuz ölkənizdən çox-çox uzaqlarda məlumdur.

Əminəm ki, Siz hələ uzun illər boyu Azərbaycana rəhbərlik edəcək və Sizin rəhbərliyiniz altında ölkəniz yeni-yeni qələbələrə nail olacaqdır.

*Villem van't VOUT,*
*«Fəindel Metal Participations B.V.» şirkətinin Direktorlar Şurasının sədri*

* * *

Prezident Heydər Əliyev, həqiqətən, dünya siyasətinin patriarxıdır, onun şəxsiyyəti hər hansı dövlət xadimi üçün parlaq örnək ola bilər. Hesab edirəm ki, Heydər Əliyevin həyatı öz xalqına, vətəninə fədakarcasına xidmətin bariz nümunəsidir.



Heydər Əliyev bütün islam dünyasının lideridir və baxdığımız bu şəkil bunu bir daha təsdiqləyir.



Heydər Əliyev sədaqətli həyat yoldaşı, gözəl ailə başçısı, böyük dövlət xadimi olduğu kimi, həm də sadiq dost idi. Professor İhsan Doğramacı ilə.



Türkiyə də, Gürcüstan da Azərbaycan üçün önəmli ölkələrdir.



Bakı-Tbilisi-Ceyhanın təməlinin qoyulması regionun tarixində yeni mərhələ olacaqdır. Prezidentlər buna əmindirlər.



Bunu deməyə lüzum yoxdur ki, bütün çoxşaxəli fəaliyyəti ərzində Heydər Əliyev haqqında – uzaqgörənliyi, öz siyasətini qurmaq bacarığı, tükənməz iş qabiliyyəti, nəhayət, nadir yaddaşı haqqında, az qala, əfsanələr gəzib-dolaşır.

Şübhəsiz, Azərbaycanın bəxti gətirmişdir ki, Tanrı Heydər Əliyev kimi lider, prezident bəxş etmişdir, özü də, Azərbaycanın müqəddəratı, suverenliyi və bütövlüyü təhlükə qarşısında qaldığı bir vaxtda! Biz hamımız bilirik ki, Heydər Əliyev ölkəni nəinki böhrandan və hərc-mərclikdən çıxardı, həm də onu bütün postsovet məkanında sanballı dövlətlərdən birinə, dünyada sayılıb-seçilən dövlətə çevirdi.

Hamımızın çox sevdiyi və hörmət bəslədiyi yubilyarı bir neçə partiyanın daxil olduğu «Avrasiya Partiyası – Rusiya Vətənpərvərlər İttifaqı Birliyi» adından və şəxsən öz adımdan təbrik edərək, Heydər Əlirza oğluna və onun simasında bütün Azərbaycan xalqına xoşbəxt həyat, Qafqaz uzunömürlülüyü, cansağlığı və firavanlıq arzulayıram. Axı, qalan hər şey Heydər Əliyevdə var, Allah ondan heç nə əsirgəməmişdir. Qoy o öz doğma Azərbaycanına hələ uzun illər xidmət etsin, onun tərəqqisinə, bütün sahələrdə – iqtisadiyyatda, sosial sahədə və başqa sahələrdə mövqelərinin möhkəmlənməsinə nail olsun. Azərbaycanın tərəqqisi isə, bütün Cənubi Qafqaz regionunda, Xəzər, Şimali Qafqaz, bütövlükdə Qafqaz regionunda ümumi vəziyyətə müsbət təsir göstərəcəkdir. Əlbəttə ki, biz rusiyalılara da xoş təsiri olacaqdır.

***Əbdülvahid NİYAZOV,***
***Rusiya Dövlət Dumasının deputatı,***
***«Avrasiya» Fraksiyalararası Birliyi Şurasının sədri***

* * *

Biz uzun illərdir Sizi görkəmli dövlət xadimi və siyasi xadim, bütün ömrünü öz vətəninə, xalqına həsr etmiş müdrik və çox təcrübəli ölkə rəhbəri kimi tanıyırıq. Müstəqil Dövlətlər Birliyinin, bütün millətlərarası ünsiyyət təsisatlarının möhkəmlənməsində Sizin səylərinizi yüksək qiymətləndiririk.

Sizinlə görüşlərimizi və MDB Parlamentlərarası Assambleyasının təşəkkülünə və inkişafına kömək etmiş qiymətli məsləhətlərinizi həmişə dərin ehtiramla xatırlayıram. Sizin böyük təcrübəniz, dövlət müdrikliyiniz, vəziyyəti qiymətləndirmək bacarığınız Azərbaycan Respublikasına və bütün birliyə çox lazımdır.

***Mixail KROTOV,***
***MDB Parlamentlərarası Assambleya Şurasının baş katibi***

* * *

Sizin dövlətçilik zəkanız, tarixin ən mürəkkəb eniş-yoxuşlarında dövləti idarə etmək məharətiniz, cəmiyyəti sıx birləşdirmək qabiliyyətiniz, ən çətin şəraitdə və vəziyyətlərdə öz xalqınızın mənafelərini müdafiə etmək bacarığınız təkcə Azərbaycanda deyil, həm də onun hüdudlarından çox-çox uzaqlarda Sizə milyonlarla insanın dərin ehtiramını qazandırmışdır. Son 30 ildən artıq

müddət ərzində Azərbaycan xalqının bütün mühüm nailiyyətləri Sizin adınızla və çoxşaxəli fəaliyyətinizlə bağlıdır. Yaşlı nəsil 1970–80-ci illərin dillər əzbəri olmuş bir kəlamı – «Azərbaycan iri addımlarla irəliləyir» – ifadəsini yaxşı xatırlayır. Doğrudan da, o dövrdə Azərbaycan Respublikası öz qətiyyətli lideri Heydər Əliyevin rəhbərliyi ilə irəliyə mətin addımlarla gedirdi.

Heydər Əliyevin müdrik rəhbərliyi ilə gənc suveren Azərbaycan Respublikasının iqtisadiyyatda, mədəniyyətdə, dövlət quruculuğunda, tarazlaşdırılmış xarici siyasət yeridilməsində yeni-yeni uğurlar qazanaraq, bu gün də əzmlə irəliləməsini müşahidə etmək bizə məmnunluq və fərəh duyğuları bəxş edir. Sizin səmərəli siyasi və dövlətçilik fəaliyyətiniz xalqına sədaqətlə xidmət nümunəsi olmaqla yanaşı, həmçinin başqa xalqlara da fayda gətirə biləcək çox dəyərli bir təcrübə mənbəyidir.

***Nikolay TRİFONOV,***
***MDB Qiymətləndiricilər Birlikləri Şurasının sədri***

* * *

Biz Sizin dövlət müdrikliyinizi, qardaş Azərbaycan xalqının rifahı, Rusiya – Azərbaycan münasibətlərinin inkişafı naminə nailiyyətlərinizi yüksək qiymətləndiririk.

***Andrey KOKOŞİN,***
***Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının***
***MDB İşləri və Həmvətənlərlə Əlaqələr Komitəsinin sədri***

* * *

Siz yüksək peşəkarlıqla və sarsılmaz dəyanətlə əlamətdar olan şərəfli bir ömür yolu keçmisiniz. Siz bu bayramı maksimum fədakarlıq, müdriklik, ən çətin vəziyyətlərdən çıxış yolu tapmaq bacarığı tələb edən yüksək dövlət vəzifəsində çalışdığınız bir zamanda qeyd edirsiniz. Azərbaycan Respublikasına çox mürəkkəb bir dövrdə başçılıq edərək, Siz ölkəni vətəndaşların rifahının və ictimai sabitliyin yüksəlməsi yolu ilə apara bildiniz. Azərbaycandakı pravoslav möminlərin ehtiyaclarına, arzu və istəklərinə göstərdiyiniz qayğını Rus Pravoslav kilsəsində yüksək qiymətləndirirlər.

Daimi ruh yüksəkliyinizə, həqiqətən, heyran olduğumu bildirir, Sizə və gözəl ölkənizə sülh, sevinc və firavanlıq arzulayıram. Əminəm ki, Sizin qarşıda böyük nailiyyət və uğurlarla müşayiət olunacaq uzun və səmərəli həyatınız var.

***Vladimir ŞAMANOV,***
***Ulyanovsk Vilayəti İcra Hakimiyyətinin başçısı***

* * *

Uzaqgörən və müdrik siyasətçi, müstəqil dövlətin qüdrətli və məqsədyönlü rəhbəri kimi Siz haqlı olaraq bütün dünyada nüfuz qazanmısınız.



Rusiyanın və Azərbaycanın mehriban qonşuluq münasibətləri və qarşılıqlı surətdə faydalı əməkdaşlığı ən çox Sizin səyləriniz, enerji və təşəbbüsünüz sayəsində formalaşır.

***Pavel ROMANENKO,***
***Ulyanovskın meri***

* * *

İraq münaqişəsi zamanı müstəsna liderliyinizə və dəstəyinizə görə Pensilvaniya və bütün ABŞ əhalisi adından Sizə təşəkkür etmək istərdim. Sizi koalisiya qüvvələrinin yüksək qabiliyyətini, peşəkarlığını və qayğısını dəyərləndirmək yollarından biri kimi «Qoşunlarımıza dəstək!» şüarı altında keçiriləcək parada rəhbərlik etməyə məmnuniyyətlə dəvət edirəm. Bu tədbir 2003-cü il mayın 18-də, Filadelfiyanın ətraflarını əhatə edən mənim seçki dairəmdə – Delaver Kauntidə (Pensilvaniya) keçiriləcəkdir.

Filadelfiya vətənpərvərlik paradları və rallilər keçirmək ənənəsinə malikdir. Birinci körfəz müharibəsinin sonunda mənim dairəm «Geriyə dönməyinizi alqışlayırıq!» adı altında parad təşkil etmişdir. 40 mindən artıq insan paradda bilavasitə iştirak etmiş və ya onun marşrutu boyunca iştirakçıları alqışlamışdır. Mayda keçiriləcək parad bizim ərazidə ən böyük tədbirlərdən biri olacaqdır.

İraqdakı uğurun böyük bir hissəsi Sizin qəti dəstəyiniz nəticəsində əldə olunmuşdur. Böyük qələbəyə yardıma görə Sizi və Silahlı Qüvvələrin igid nümayəndələrini alqışlamaq üçün iştirakınızı xahiş edirəm. Bizim məqsədimiz «İraqa azadlıq» əməliyyatına dəstək vermiş hər bir ölkənin nümayəndəsinin tədbirdə iştirak etməsidir. Sizin hökumətin, hərbi və ya diplomatik korpusların nümayəndələrinin milli bayrağınız ilə parada başçılıq edə biləcəklərinə ümidvarıq.

İraq əhalisini tiran diktatorluğundan azad etmək məqsədimiz yerinə yetirilmişdir. Dünyanın şər İraq rejimindən qurtarması və azadlıq dəyərlərinin qorunub saxlanması yolunda qəhrəmanlıq və fədakarlıqla döyüşmüş insanlar bizim alqışlarımıza layiqdirlər.

***Kurt VELDON,***
***Konqres üzvü***

* * *

Heydər Əliyev əsrimizin nadir yetişdirdiyi dövlət xadimlərindəndir. Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycanın ən çətin anlarında vətəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir.

O, fırtınalı həyatının hər dövründə Azərbaycanı, türklüyünü unutmayan böyük bir şəxsiyyətdir. Ölkəsini bəlalardan qurtaran dövlət başçısıdır.

***İhsan DOĞRAMACI,***
***Bilkənd Universitetinin qurucusu, dünya şöhrətli alim, professor,***
***Azərbaycan prezidenti Heydər Əliyevin və Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəlin***
***fəxri sədrləri olduqları Türkiyə – Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin sədri***

* * *

Sizinlə fikir mübadiləsi aparmaq mənim üçün böyük şərəfdir. Sizi bizim ölkədə çox yaxşı tanıyır və yüksək səviyyəli siyasətçi kimi qiymətləndirirlər.

*Andreas LOVERDOS*

* * *

«Avrasiya» Partiyasını yenicə yaratdığımız və «Rifah» hərəkatının nümayəndələri kimi «Yedinstvo» blokunun tərkibində Rusiya Federasiyasının Dövlət Dumasına daxil olduğumuz vaxt biz, ilk növbədə, dünya siyasətinin patriarxı prezident Heydər Əliyev ilə görüşmək üçün partiyamızın rəhbərləri ilə birlikdə Bakıya gəldik. Çünki onun məsləhətlərinə, tövsiyələrinə ehtiyacımız vardı.

Heydər Əliyev, şübhəsiz, dünya miqyaslı simadır. O, artıq neçə illərdir, hələ Sovet İttifaqı dövründən bəri, hakimiyyət sükanı arxasındadır. Qeyri-rus millətinin nümayəndəsi, üstəlik, müsəlman olan bir şəxs kimi onun hakimiyyətin ali mərtəbəsinə necə yüksələ və İttifaq səviyyəsində qərarlar çıxarılmasında real surətdə iştirak etməyə necə nail ola bildiyini təsəvvürünüzə gətirin. Elə təkcə bunun özü çox şeyə dəlalət edir.

Heydər Əliyevin Bakıda rəhbərliyə hansı şəraitdə qayıtdığı da xatirimizdədir. Bu, elə bir dövr idi ki, ümumən, Azərbaycanın özünün bir dövlət kimi bütövlüyü və gələcəyi məsələsi həll olundu. Ölkənin bir hissəsi işğal olunmuşdu, vətəndaş müharibəsi və respublikanın parçalanması təhlükəsi göz qabağında idi. Belə bir ağır və keşməkeşli dövrdə hakimiyyətə gələn Heydər Əliyev özünün siyasi iradəsi, tükənməz enerjisi ilə dünyanı heyran qoydu. İndi görürük ki, mövcud olmuş və hələ bu gün də qismən qalan problemlərə (ilk növbədə, Qarabağ münaqişəsi) baxmayaraq, hazırda Azərbaycan bütün sahələrdə – siyasətdə, iqtisadiyyatda, mədəniyyətdə Cənubi Qafqazda, əslində, liderə çevrilmişdir.

Azərbaycana səfərimizin proqramı çərçivəsində Bakıda biz Heydər Əliyev ilə görüşərkən yəqin edirdik ki, o, tamamilə başqa tarixi qiymətə layiq şəxsiyyətdir. Siyasət meydanına gələn və onu tarixdə heç bir iz qoymadan tərk edən müxtəlif siyasətçilər, dövlət liderləri çoxdur. Heydər Əliyev isə canlı tarixdir. Belə siyasətçilər nadir hallarda olur. Onlar təkcə öz ölkələrinin deyil, bütöv bir epoxanın tarixini müəyyənləşdirirlər. Azərbaycan dövlətinin indiki başçısı da məhz belə səviyyəli siyasətçidir.

Bu insanla şəxsi ünsiyyət olduqca xoş təsir bağışlayır. O, nadir bir insandır. Partiyamızın yaradılması ilə əlaqədar onunla görüşdən qalan xatirələrə qayıdıram. Gənc deputatlar olaraq, biz məsləhət üçün bir ağsaqqal kimi məhz onun yanına gəldik. Biz onu özümüzün də ağsaqqalı hesab edirik. Bəli, o, Sovet İttifaqı çərçivəsində ağsaqqal idi. İndi də ağsaqqaldır. Onunla saat yarımlıq görüşdən necə böyük məmnunluq duyduğumuz yadımdadır. Bu, səmimi, sərbəst söhbət idi, biz adi deputatlar olsaq da, o, öz nüfuzu ilə bizi təntitmirdi. Bu isə, əlbəttə ki, yalnız rəğbət doğurur. O, fenomenal yaddaşa malik, təmkinli insandır. Xatirimdədir, cənab Heydər Əliyev iki saatlıq görüş ərzində bizə ən ümdə problemlərdən danışdı, çox dəyərli tövsiyələr, məsləhətlər verdi.



Bir həqiqət qəlbimizə hakim kəsilmişdir: Heydər Əliyev kimi bir insanın prezident olması Azərbaycan Respublikası üçün, sadəcə, böyük səadətdir.

*Əbdülvahid NİYAZOV,*
*Rusiya Dövlət Dumasının deputatı, «Avrasiya» Fraksiyalararası Birliyi Şurasının sədri*

* * *

Azərbaycan prezidenti Heydər Əliyevin böyük dövlətçilik təcrübəsi və zəngin siyasi fəaliyyəti təkcə öz ölkəsində deyil, dünyanın nüfuz dairələrində də yüksək qiymətləndirilir. Prezident Heydər Əliyevin gördüyü böyük işlər miqyasına və əhəmiyyətinə görə yalnız Azərbaycanın deyil, regionun və dünya sivilizasiyasının tərəqqisinə xidmət edir...

*Hasan MOĞOLUN,*
*Türkiyə İpək Yolu Vəqfi İdarə Heyətinin sədri, doktor*

* * *

Azərbaycan Respublikası ilə bizim əməkdaşlığımız genişlənməkdədir. Terrorizmə qarşı mübarizədə Azərbaycan ABŞ-ın güclü müttəfiqidir. Azərbaycan İraqın tərk-silah edilməsi koalisiyasına qoşulan ilk üzvlər sırasında olmuş və İraqda sabitliyin bərqərar olması üçün öz hərbçilərinin oraya göndərilməsini təklif etmişdir. Biz həmçinin Azərbaycanın Kosovo və Əfqanıstanda sülhməramlı əməliyyatlara töhfəsinə görə də minnətdarıq. Bakı–Tbilisi–Ceyhan neft kəmərinə dair işlər irəlilədikcə, bizim enerji və təhlükəsizlik sahəsində əməkdaşlığımız da güclənəcəkdir. Azərbaycanda, Qafqazda və ondan kənarda sülhün, demokratiyanın və firavanlığın bərqərar olması üçün əməkdaşlığımızın genişlənəcəyinə ümid edirəm.

*Corc BUŞ,*
*Amerika Birləşmiş Ştatlarının prezidenti*

* * *

Həqiqətən, Sizin qətiyyətiniz, əzminiz nəticəsində bir vaxtlar bizə yuxu kimi, yalnız arzu kimi görünən məsələlər indi həqiqətə çevrilmək üzrədir. Sizin neft və qaz strategiyanız, siyasətiniz uğurla həyata keçir və dünyada əfsanə kimi görünən neft kəməri artıq reallığa çevrilir. Hazırda işlər gedir və bütün bu işlərin hamısı bir vaxtlar Sizin əkdiyiniz toxumlardır ki, indi cücərməyə başlayır, bar verir. Bütün bu işlərin hamısına biz Sizin qətiyyətiniz sayəsində müvəffəq olmuşuq.

*Con BRAUN,*
*«bp şirkətinin» prezidenti*

* * *

Hörmətli prezident, yaradıcısı zati-aliniz olan bu boru kəməri Sizin böyük əməyiniz, qətiyyətiniz və əzmkarlığınız sayəsində reallığa çevrilmişdir. İnşallah, Sizin rəhbərliyiniz və iştirakınızla onun açılışını edərik. Türkiyə Bakı-Tbilisi-Ceyhan layihəsinin gerçəkləşməsində Azərbaycan prezidenti Heydər Əliyevin həlledici rolunu yüksək qiymətləndirir və zati-alinizin bütün fəaliyyətini və təşəbbüslərini dəstəkləyir. Xalqımız Sizə həmişə dərin hörmət və ehtiram bəsləyir.

***Əhməd Ünal ÇEVİKÖZ,***
***Türkiyənin Azərbaycandakı səfiri***



# CƏNUBİ QAFQAZDA TƏHLÜKƏSİZLİYİN MEMARI

***Azərbaycandakı prezident seçkiləri ABŞ, Avropa və Rusiyanın siyasi dairələrinin gözü ilə***

1993 və 1998-ci illərdə olduğu kimi, bu dəfəki prezident seçkilərində də Heydər Əliyevin seçicilərin mütləq çoxluğunun səsini əldə edəcəyi heç kimdə şübhə doğurmur. Bu qənaətə gəlməyə ölkənin siyasi həyatındakı qüvvələr nisbəti ilə yanaşı, mövcud iqtidarın ötən on ildəki fəaliyyəti də əsas verir.

Arxada qalan və bütün sahələrdə inkişafla müşahidə olunan prosesləri əsasən iki mərhələyə bölmək olar: 1993–1996-cı illərdə həyata keçirilən siyasi, hüquqi islahatlar və 1996-cı ildən etibarən start verilən sosial-iqtisadi dirçəliş tədbirləri. Əgər birinci etapda prezidentin müəllifliyi ilə atılan addımlar parçalanmaq və tarixin səhnəsindən silinmək təhlükəsi ilə üzləşən Azərbaycanın müstəqillik və suverenliyinin möhkəmlənməsinə, siyasi sabitliyin təmin olunmasına və bunun ardınca hüquqi islahatların həyata keçirilməsinə yönəldilmişdirsə (ölkənin vətəndaş qarşıdurması və dövlətçiliyin süqutdan hifz edilməsi, hərbi müxalifətin neytrallaşdırılması, hakimiyyətin qeyri-konstitusion yollarla devrilməsi ənənələrinin aradan qaldırılması, 1994–1995-ci illərdə belə cəhdlərin qarşısının alınması, xarici kəşfiyyat orqanlarının fəaliyyət sferasının məhdudlaşdırılması, nizami ordu quruculuğu, siyasi həyatın sanksiyalaşdırılması, ilk milli Konstitusiyanın qəbulu, yeni – müstəqil parlamento seçkilərin keçirilməsi məhz bu dövrü əhatə edir), son 6 ili əhatə edən zaman kəsimi birbaşa olaraq ölkənin iqtisadi tələbatlarının ödənilməsi və potensial imkanların işə salınmasına (torpaq islahatları, kəndli əməyinə yönəldilmiş stimulverici tədbirlər, azad sahibkarlığın və milli burjuaziyanın formalaşması üçün reallaşdırılmış kompleks aksiyalar, nəhayət, ölkə iqtisadiyyatının əsası hesab edilən yeni neft strategiyasının özülünün qoyulması) həsr edilib.

Bütün bunlardan əlavə, cənab Heydər Əliyevin daha bir seçkidə qalib gəlməsini şərtləndirən mühüm faktor var: güclü xarizmaya malik dövlət başçısının xalq arasında sarsılmaz nüfuzu var ki, hər hansı bir siyasi və iqtisadi əhəmiyyətə malik hadisənin həmin amilə təsir imkanı sıfıra bərabərdir.

## *Heydər Əliyevin xarici siyasəti və Cənubi Qafqaz reallıqları*

Bütün bunlar ötən on ildə ölkə daxilində baş verən pozitiv dəyişikliklərə ötəri baxış idi. Bununla belə, Azərbaycanda keçiriləcək prezident seçkiləri tək ölkədaxili tədavül üçün deyil, həm də regional miqyaslı olaydır və əslində bu da prezidentin tarixi xidmətlərindən biridir. Məsələn, Ermənistanda keçirilən prezident seçkilərindən fərqli olaraq, Azərbaycanda payızda baş verəcək hadisə bütün Qafqazın cənubundakı qüvvələr düzümünə, təhlükəsizlik problemlərinə və ümumilikdə geosiyasi atmosferə nüfuz edəcək bir faktordur. Nədir bu faktorun mahiyyəti?

Bir müddət əvvəl ABŞ dövlət katibinin müavini Riçard Armitac Azərbaycan mətbuatına verdiyi müsahibəsində Heydər Əliyevi regionun ən uzaqgörən şəxsiyyəti adlandırmışdı. Bu, birinci dəfə deyil. Azərbaycan prezidenti bütün dünyada Qafqaz siyasətinin patriarxı, Qafqazın təhlükəsizlik arxitekturasının müəllifi olaraq qəbul edilir. Nədir bunun səbəbi?

Bu gün region dünyada əsasən bir neçə məsələ ilə bağlı tanınır: mövcud münaqişələr,

Xəzərin karbohidrogen ehtiyatları, bu ehtiyatları Qərbə nəql edəcək neft və qaz kəmərlərindən ibarət enerji dəhlizi, tarixi İpək yolunun bərpasını özündə əks etdirən ticarət və nəqliyyat dəhlizi və s. Göründüyü kimi, bunlardan birini çıxmaq şərtilə digərləri birbaşa olaraq Azərbaycanla əlaqədardır. Yeri gəlmişkən, Azərbaycanın da Dağlıq Qarabağ münaqişəsi vasitəsilə əlaqələndirildiyi birinci amil heç də Cənubi Qafqazın dünyanın diqqət mərkəzinə gəlməsində aparıcı rola sahib deyil. Mövcud ikili standartlar şəraitində və iqtisadi maraqlara real təhlükə olmadığı halda Dağlıq Qarabağ və Abxaziya münaqişələrinin belə tezliklə dünyada ictimailəşməsi çətin ki, baş verərdi.

Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri – hər iki qlobal layihənin müəllifi Heydər Əliyevdir. TRASEKA və yaxud tarixi İpək yolunun bərpası layihəsi – məhz Azərbaycan prezidentinin ciddi səyləri bahasına başa gəlmiş reallıqdır. Bir neçə gün əvvəl Gürcüstan prezidenti Eduard Şevardnadze bu layihələrin qüdrətli dövlətçilik anlayışları ilə ayrılmaz olduğunu söylədi. Həqiqətən də tək Gürcüstan deyil, bütün bölgənin təhlükəsiz gələcəyi məhz bu layihələrin aqibətindən asılıdır. İndi bu layihələr regionun Qərbə açılan qapılarının açarları, bölgə dövlətlərinin (Azərbaycan və Gürcüstan nəzərdə tutulur) NATO məkanına inteqrasiya prosesində həlledici faktor olaraq nəzərdən keçirilir. İstənilən halda bir gerçəklik dəyişməz qalır – bu layihələrin və deməli, Qafqazın təhlükəsiz gələcəyinin arxitektoru Azərbaycan prezidentidir.

Bu, tək bölgənin istəyinin əksi deyil. Bu nailiyyətlər dünyanın mühüm güc mərkəzlərinin dəstəyi olmadan mümkünsüz idi. Maraqlar qarşılıqlı şəkildə bir-birini tamamlayır. Ancaq maraqların gerçəkliyə çevrilməsini təmin edəcək münbit şəraitə ehtiyac daha ciddi tələbatdır. Başqa sözlə, mövcud xətti təmin edəcək qüvvə tələbatının başlıca faktorudur. Bu durumun davamlılığına yalnız onun müəllifi qarant ola bilər.

## *Qafqazın cənubu və üç güc mərkəzi*

Hazırda Cənubi Qafqaz bölgəsində bir neçə geosiyasi oyunçu özünə münbit fəaliyyət platsdarmı yaratmağa cəhd göstərsə də, (ABŞ, Avropa, Rusiya, Türkiyə, İran, İsrail və Ərəb dünyası), onlardan üçünün – ABŞ, Rusiya və Avropanın hadisələrə daha geniş təsir imkanları mövcuddur. Təbii ki, Türkiyəni unutmamaq şərtilə. Rəsmi Ankaranı regionun ən iri dövləti olan Azərbaycanla tarixi köklər bağlayır və Türkiyə–Cənubi Qafqaz münasibətləri başqa bir araşdırmanın mövzusudur. Əslində, Türkiyə və İsrailin təsir imkanlarını ABŞ-ın maraqları ilə kompleks şəkildə nəzərdən keçirmək mümkündür. Ümumiyyətlə, regional proseslərdə Vaşinqton, Ankara və Təl-Əvivin xarici siyasətinə eyni vektorda baxmaq daha məqsədəuyğun olardı. Təsadüfi deyildir ki, Təl-Əviv–Ankara–Tbilisi–Bakı dördbucağı da zaman-zaman bu ölkələrin siyasi dairələrinin müzakirə obyektinə çevrilir.

Üç geosiyasi mərkəzin real təsir imkanlarına malik olmalarının əsl səbəbləri isə onların iqtisadi və siyasi təsiretmə mexanizmlərindən yararlana bilmələridir. Hadisələr belə gətirib ki, adıçəkilən transmilli layihələrin əsas sponsorları da elə həmin güc mərkəzləridir.

Üstəlik, onların hər üçü – ABŞ, Rusiya və Fransa vasitəsilə Avropa bölgənin ən «qoca» və köklü konflikti, mövcud status-kvonun başlıca «səbəbkarı» olan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə vasitəçilər qrupunda təmsil olunurlar. Regiondakı sabitliyi xeyli «kövrəldən» bu münaqişənin çözümü perspektivdə duran ən aktual problemdir və hər üç mərkəzin bu prosesə özünəməxsus təsiri mövcuddur.



Avqust. 1997-ci il, Binə hava limanı. Jurnalistlər üçün brifinq.



İyul. 1997-ci il. Ağ evin qarşısında.



İyul. 1997-ci il. ABŞ Senatının binası.



6 iyul. 1994-cü il. Xarici ölkə jurnalistlərinə müsahibə verərkən.



## *Regionun gələcəyi Kremlin hesablamalarında*

ABŞ-ın Cənubi Qafqaza gözlənildiyindən də artıq nüfuz etməsinə baxmayaraq, Moskva sözükeçən oyunçu imicini əldən verməyib. Belə demək mümkündürsə, Kremlin Qafqazın cənub hissəsinə təzyiq imkanları nəzərəçarpacaq qədər çoxdur və əsasən iqtisadi amillər üzərində formalaşıb (Ermənistanda və Gürcüstandakı Rusiya hərbi bazalarını istisna etməklə). Rusiyanın bölgənin iqtisadi layihələrində hələ də prioritet partnyor olması, vahid sərhədlərin mövcudluğu, kifayət qədər iri diasporların fəaliyyəti və ümumiyyətlə, bu ölkələrin uzun müddət eyni ictimai-siyasi formasiyanı təmsil etmələri Moskvanın əlindəki «rıçaqlar»ın əsas donorlarıdır.

Bununla belə, Qərbdən gələn geosiyasi dalğaların getdikcə intensivləşməsi Moskvanın təhlükəsizlik müstəvisində təsir dairəsini lokallaşdırır və Kreml çevik manevrlər əsasında qurulmuş regional siyasətə keçid mərhələsini yaşayır. Ancaq hər halda, Rusiyanın təsir dairəsi, tutaq ki, Avropanın cəhdlərindən xeyli genişdir və bu baxımdan bölgənin siyasi və iqtisadi mərkəzinə çevrilən Azərbaycanın siyasi həyatında birinci dərəcəli siyasi hadisə – prezident seçkiləri Kremlin də gündəlik müzakirə obyektidir.

Təbii ki, rəsmi Moskvanın bu seçkilərə yanaşmasının Kremlin dəhlizlərindən kənara çıxması az inandırıcı görünərdi. Bununla belə, elə mənbələr var ki, onların baxışlarına müəyyən mənada Rusiyanın siyasi «mətbəx»inin havası tez-tez dəyir və buradan ictimailəşən qənaətlər qismən də olsa, Moskvanın isteblişmentinin istək və hesablamalarını əks etdirir. Təqribən son bir aydan artıq müddət ərzində Rusiyanın KREML.ORG internet portalında Azərbaycanda keçiriləcək prezident seçkilərinə dair 13 araşdırma dərc olunub. Onlardan bir qisminin müəllifi azərbaycanlı olsa da, aparıcı mövzular Rusiyanın elmi və siyasi dairələrinin tanınmış ekspertləri tərəfindən nəzərdən keçirilir. İnformasiya naminə onu da qeyd edək ki, bu portal Effektiv Siyasət Fondunun (ESF) layihəsidir.

Bu qurumun rəhbəri olan Qleb Pavlovski Rusiyanın politoloji dairələrində xüsusi çəkiyə malik simadır. Onun adı tez-tez Kremlin dəhlizləri ilə sıcaq təmaslarda xatırladılır. İstisna deyil ki, rəsmi Moskva ilə yaxın ilişgilərə malik Q.Pavlovskinin layihəsində Kremlin baxışları da əks olunur. Burada dərc olunmuş materiallardan ikisinin müəllifi diqqəti xüsusi cəlb edir. V.Qolışev ESF-nin eksperti olmaqla yanaşı, bir sıra ictimai-siyasi hərəkat və partiyaların yaradılması, 1999–2000-ci illərin seçki kampaniyalarında iştirak etmiş simadır, o, həm də «Sosiomaster» PR agentliyinin direktor müavinidir.

Digər müəllif – D.Sobyanin isə sərhəd xidmətinin strateji planlaşdırma assosiasiyasının rəhbəri, «Trans-Avrasiya» kompleks tədbirlər analitik qrupunun sədri, «Pamir-Ural» analitik qrupunun yaradıcısı, 1999–2000-ci illərdə 200-dən çox siyasi və sosial-iqtisadi təmayüllü araşdırmanın müəllifidir. Hər iki müəllif Azərbaycanla bağlı araşdırmalarına Rusiya, ABŞ və Avropanın Cənubi Qafqaza nüfuzu, İraq kampaniyasından sonra regionda baş verən proseslər prizmasından yanaşır, Azərbaycanda keçiriləcək prezident seçkilərinə bu faktorların təsirini araşdırır.

İraqdakı müharibə nəticəsində Avropanın Qafqazdan sıxışdırılıb çıxarıldığı və ABŞ-la Rusiyanın mövqelərinin möhkəmləndiyi qənaətində olan V.Qolışev hesab edir ki, Bakı-Moskva münasibətlərində son illərin analizi regionda Kremllə Ağ evin arasındakı ziddiyyətlərin minimuma endiyini göstərir. ABŞ-la Rusiya Azərbaycanda eyni dərəcədə möhkəmlənirlər və bir-birlərinə mane yaratmırlar. Müəllif Azərbaycan prezidentinin tarazlaşdırma siyasətini xüsusi vurğulayır. Ekspert hesab edir ki, Rusiya və ABŞ-la

yanaşı, regionda üçüncü oyunçu da var: Avropa. Çox vaxt Moskvanın və Vaşinqtonun Brüsselin regional siyasətinə dair mövqeləri üst-üstə düşür. Araşdırma müəllifinin qənaətinə görə, həm bölgədəki təbii maraqları baxımından Rusiya, həm də Xəzərin neft ehtiyatlarına nüfuz edən ABŞ regiondakı situasiyanın toxunulmazlığını istəyirlər və bu baxımdan Heydər Əliyevin xarici siyasət kursunun davamlılığında maraqlıdırlar.

Eyni zamanda, ekspert hesab edir ki, Avropa Ermənistanda möhkəmlənməklə Rusiyanı buradan çıxarmaq və Qafqazdakı boşluğu doldurmaq niyyəti güdür. Müəllifin fikrincə, Ermənistanda keçirilən prezident seçkilərindəki saxtalaşdırma hallarına həssas reaksiya bunun nəticəsidir.

«Əhali bütövlükdə prezidenti dəstəkləyir. Bunu Azərbaycan üzrə mütəxəssislər, Rusiya Elmlər Akademiyasının şərqşünaslıq, etnoqrafiya və antropologiya institutlarının ekspertləri də təsdiqləyirlər. Burada paradoks yoxdur. Prezident əhali üçün xarizmatik şəxsiyyətdir və hansısa iqtisadi və ya siyasi proses onun nüfuzuna xələl gətirmək iqtidarında deyil» – yazan digər ekspert D.Sobyanin isə hesab edir ki, müxalifət qüvvələri əsasən xarici təşkilatlar vasitəsilə maliyyələşirlər.

Maraqlıdır ki, ekspert Heydər Əliyevlə yanaşı, AŞ PA-nın vitse-prezidenti İlham Əliyev faktorunun da ciddiliyinə diqqət yetirməyi məsləhət görür, gələcəkdə Azərbaycan prezidentinin kursunun davamçısı kimi İlham Əliyevin həm Azərbaycanın, həm də Qərbin ekspertləri tərəfindən tanınıb yüksək dəyərləndirildiyini qeyd edir.

Dağlıq Qarabağ münaqişəsini prezident seçkilərinə və regional oyunçuların maraqlarına təsir edən fundamental faktor kimi nəzərdən keçirən ekspert Rusiyanın ermənilərin təsirinə düşməməyini mühüm amil sayır. Onun fikrincə, erməni təbliğatı Rusiyaya yalnız ziyan gətirə bilər. Elə bu səbəbdəndir ki, Rusiya ermənilərinin lideri Aram Abramyanın cəhdlərinə baxmayaraq, saxta erməni soyqırımı məsələsi rəsmi Moskvanın kuluarlarına yaxın buraxılmır. Rusiya ilə Azərbaycanın kompleks iqtisadi və siyasi problemlərdə mövqelərinin uzlaşdığını qeyd edən ekspert («LUKoyl» və digər neft şirkətlərinin Xəzərin yataqlarının istismarında iştirakı, Şimal-Cənub dəhlizi, Rusiyanın Azərbaycanın enerji sektorunda iştirak potensialı, ticarət münasibətləri) rəsmi Moskvanın Heydər Əliyev siyasətini dəstəkləməyə hazır olmalı olduğunu mütləq şərt kimi qiymətləndirir. Bunun üçün o, Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, habelə nəqliyyat və enerji layihələrində Bakıya güzəştə getməsini vacib sayır.

Ümumiyyətlə, onu da qeyd etmək lazımdır ki, Vladimir Putinin hakimiyyətə gəlişi ilə kardinal dəyişikliklər hesabına formalaşmış yeni münasibətlərin sabitliyində hər iki dövlət qarşılıqlı şəkildə maraqlıdır (prezident seçkiləri Rusiya-Azərbaycan münasibətləri kontekstində «Azərbaycan»ın növbəti araşdırmalarından biri olacaq).

## *Cənubi Qafqaz Yeni Avropa müstəvisində*

Avropa bölgəyə, əsasən Avropa Şurası, ATƏT və NATO vasitəsilə nüfuz edir. AŞ region dövlətlərində keçirilən seçki proseslərini yaxından izləyir, yeni üzv dövlətlərdə insan hüquqları və demokratiyanın durumu təşkilatın gündəliyindədir. ATƏT Cənubi Qafqazın ən uzun tarixə malik münaqişəsini tənzimləmə missiyasını öz üzərinə götürüb. Yeri gəlmişkən, bu missiyanın «müqəddəs üçlüyü»nü də həmin üç güc mərkəzi – ABŞ, Rusiya və Fransanın qismində Avropa formalaşdırır.

Digər müdaxilə mexanizmi isə şübhəsiz ki, NATO-dur. Avroatlantik alyansın daxilində artıq bir Avropa qrupu formalaşıb və təsadüfi deyildir ki, bir çox ekspertlər tez-tez «NATO-nun Avropa dövlətləri» ifadəsindən istifadə edirlər. Bu amil az öncə də təsdiqləndi: baş katib Corc Robertsonun Cənubi Qafqaza səfəri zamanı verdiyi bəyanatlar məzmunca Avropanın digər strukturlarının bölgəyə dair baxışlarından kardinal şəkildə fərqlənmirdi.



Hələlik Avropanın bütövlükdə prezident seçkilərində kimin qələbə çalmasında maraqlı olduğu aşkarcasına büruzə verilmir. Bu da təbiidir, çünki İraq kampaniyası və yaxud nüvə silahlanması kimi qlobal problemlərdə vahid qüvvə kimi çıxış edən «qoca qitə»nin ayrı-ayrı komponentlərinin konkret regionlara münasibətdə fərqli mövqeləri ola bilər. Bununla belə, güman olunur ki, ümumi münasibət AŞ və Avropa Birliyi kontekstində bildiriləcək.

İndi isə detallarla. Keçmiş SSRİ məkanından AŞ-yə üzv olan dövlətlərdən Azərbaycanın bu qurumla xüsusi əlaqələri formalaşıb. Azərbaycanın nümayəndə heyəti AŞ PA-nın fəaliyyətində olduqca fəal iştirak edir, postsovet ərazisindən məhz Azərbaycanın təmsilçisi – İlham Əliyev Parlament Assambleyasının sədr müavini seçilib. Rəsmi Bakı demokratiyaya sadiqliyini dəfələrlə sübut edib, hətta AŞ-yə üzvlükdən əvvəl belə Azərbaycan ən yüksək cəza növünü – ölüm hökmünü ləğv edib (Ermənistanda bu cəza növü qüvvədədir). Ümumiyyətlə, Azərbaycan prezidentinin humanist siyasəti (dəfələrlə verilmiş kütləvi amnistiyalar, ölüm hökmünün ləğvi, KİV-in inkişafına dəstək və s.) Bakı–Strasburq münasibətlərinin həlledici amillərindəndir. Digər tərəfdən, artıq AŞ-də Azərbaycana dair sırf geosiyasi detallar üzərində formalaşmış maraqlar yaranıb. Bunu AŞ PA-nın ötən sessiyasında Bakı–Tbilisi–Ceyhan və Xəzərin karbohidrogen yataqlarının inkişafına dair xüsusi məruzənin dinlənilməsi də göstərir.

Avropa Birliyi öz növbəsində əsas regional layihələrin, xüsusilə də nəqliyyat dəhlizinin başlıca sponsorudur. Azərbaycanla potensial üzv-dövlət prizmasından irəli gələn ilişgilər quran AB strukturları bilavasitə Bakı–Tbilisi–Ceyhan kəmərinin tikintisinə qoşulmaq niyyətindədir. Bu, milyardlarla kapital yatırımı, sabit təminat və təhlükəsizlik tələb edən prosesdir. Ötən illər, yəni mürəkkəb geosiyasi və iqtisadi problemlərə rəğmən həmin layihələrin məhz Azərbaycan prezidentinin iradəsi və nüfuzu hesabına başa gəlməsi, Heydər Əliyev və Eduard Şevardnadzenin aparıcı sabitlik faktoru qismində çıxış etmələri belə nəticəyə gəlməyə əsas verir ki, AB Azərbaycanın regionun aparıcı dövləti kimi mövcud xarici siyasət kursunun davam etdirilməsində maraqlıdır. Bu, həm layihələrin həyata keçirilməsi, həm də nüfuz dairəsinin genişləndirilməsi naminə tələb olunan sabitliyə təminat baxımından Avropa üçün olduqca vacibdir. O da unudulmamalıdır ki, prezident Heydər Əliyev Avropa siyasətinin əsas fiqurları Jak Şirak, Qerhard Şröder və Toni Bleyerin yanında xüsusi çəkiyə və nüfuza malik siyasi xadimdir.

Azərbaycan–NATO münasibətlərinin də xüsusi araşdırma mövzusuna çevrilməsinə ehtiyac var. Son dövrdə bu əlaqələrin inkişafı intensivlik mərhələsinə qədəm qoyub və artıq güc mərkəzlərinin rəsmi dəhlizlərində Bakının Atlantik alyansa üzvlüyü qeyri-real və zamanə ilə uzlaşmayan məsələ kimi nəzərdən keçirilmir. Azərbaycan son məqsədinin NATO üzvlüyü olduğunu dəfələrlə bildirib və bu istiqamətdə tələb olunan mərhələləri keçərək qurumun Parlament Assambleyasında assosiativ üzv statusu əldə edib. Azərbaycan NATO-nun Kosovo və Əfqanıstandakı sülh missiyasında yaxından iştirak edib və antiterror koalisiyasının üzvü olub. Nəzərəçarpan haldır ki, Azərbaycan İraqdakı nizamlama prosesində hərbi qüvvələri vasitəsilə iştirak edən cəmi 10 dövlətdən biridir. Burada Bakı ilə Pentaqonun xüsusi sıcaq əlaqələrini unutmamaq lazımdır. Güman ki, bu amil Azərbaycanın NATO-ya üzvlüyü prosesində aparıcı elementə çevriləcək.

## *Azərbaycanda prezident seçkiləri və Ağ evin gözləntiləri*

Hələ 90-cı illərin ortalarından Xəzər hövzəsi Amerikanın maraqları dairəsinə daxil edilib və bu göstərir ki, Vaşinqton burada tam möhkəmlənmək niyyətindədir. Bu prosesdə Azərbaycanın həm coğrafi vahid kimi və həm də dövlət olaraq siyasi cəhətdən sabit daxili vəziyyətə malik olmasının tarixi əhəmiyyəti var. Hazırkı beynəlxalq proseslərdə tez-tez dəyişiklik tendensiyası üstünlük təşkil edir və Vaşinqtonun İraq əməliyyatının bitməsilə ümumi prosesin başa çatmadığını bəyan etməsi göstərir ki, Azərbaycan Qərb üçün tək iqtisadi deyil, həm də geosiyasi cəlbediciliyini saxlayacaq. Təbii ki, mövcud kursun toxunulmaması şərti ilə. Bölgə özünün mürəkkəbliyi ilə seçilir və istənilən yanlış addım faciəvi kataklizmlərlə nəticələnə bilər. Neft heç də həmişə xoşbəxtlik gətirmir. Bu problem zəngin siyasi təcrübə tələb edir. Elə dövlətlər var ki, neft strategiyasını formalaşdırarkən bütün amilləri nəzərə almadığından, sadəcə, banan respublikasına çevrilir, buradakı vətəndaş qarşıdurmasının tarixi onilliklərlə ölçülür.

Hakimiyyətə gəldiyi ilk gündən prezident Heydər Əliyev xarici siyasətdə Qərb vektoruna özəl önəm verib və belə görünür ki, Bakı–Tbilisi–Ceyhan, Xəzərin neft yataqlarının istismarı, NATO məkanına inteqrasiya prosesləri üzərində qurulan bu prioritet istiqamət davam etdiriləcək. Bu, həm Azərbaycanın, həm də Qərbdən olan partnyorların diktə etdiyi reallıqdır.

Bu istiqamətdə əsas ağırlıq Vaşinqtonla strateji əməkdaşlığın üzərinə düşür. Enerji problemlərinin həllində əməkdaşlıq, təhlükəsizlik məsələlərində mövqelərin uzlaşması, İraq kampaniyasında Bakıdan gələn dəstək bu əlaqələrin yalnız üzdə olan ştrixləridir. Hər halda, ABŞ–Azərbaycan münasibətlərinin strateji səviyyəyə yüksəlməsinin alt qatında olan məqamlar ictimaiyyət üçün açıqlanmayıb və yəqin ki, naməlum olaraq qalacaq.

Vaşinqton administrasiyası bu kursun davamlılığında israrlıdır. İraq əməliyyatından bir neçə gün əvvəl Azərbaycan prezidentini Vaşinqtona dəvət edən Corc Buş bunu açıq büruzə verdi. Bu səfər çox nadir tarixi hadisələrdən idi. Birincisi, ona görə ki, belə kritik mərhələ ərəfəsində xarici dövlətlərin, xüsusilə də kiçik ölkələrin başçıları ABŞ prezidentinin qonağı olmurlar. Digər tərəfdən, cəmi bir neçə ay sonra Azərbaycanda keçiriləcək prezident seçkiləri baxımından strateji münasibətlərə dair problemlərin müzakirəsi həmin tarix üçün aktual görünməyə bilərdi. Odur ki, bu dəvət iki mühüm məqamı nümayiş etdirdi:

1. Rəsmi Vaşinqton Heydər Əliyev hakimiyyətini dəstəkləyir;

2. Amerikanın rəsmi dairələri Heydər Əliyevin seçkilərdə qələbə çalacağına tam əmindirlər.

Təqribən bir ay əvvəl ABŞ-ın «Heritage» Fondunun eksperti Ariel Koen Vaşinqtonun Azərbaycandakı prezident seçkilərinə yanaşmasına həsr olunmuş məqalə ilə çıxış etdi. Əvvəlcədən qeyd edək ki, A.Koen də öz növbəsində Rusiyada Q.Pavlovski tək, Amerikada rəsmi dairələrə çıxışı olan şəxs kimi tanınır və adətən onun proqnozlarının əhəmiyyətli hissəsi özünü doğruldur.

Ekspertin fikrincə, Buş administrasiyası Azərbaycanın Qərbyönümlü oriyentasiyalı kursunun saxlanılmasında maraqlıdır. Diqqətçəkən haldır ki, A.Koen bu niyyətin uzun bir mərhələni əhatə etdiyi qənaətindədir. O, məqaləsində AŞ PA-nın sədr müavini, hakim partiyanın 2008-ci il üçün namizədi İlham Əliyevin şanslarını da yüksək qiymətləndirir və bunun Vaşinqtonda sıcaq qarşılandığını bildirir.

Əslində, mövcud kursun ardıcıllığında ən maraqlı tərəf də məhz ABŞ-dır. İraq kampaniyasından sonra beynəlxalq meydanda top Amerikanın sahəsindədir və bu demarşın uğurla başa çatması Vaşinqtonun Cənubi Qafqazda da möhkəmlənməsinə səbəb oldu. Bu prosesin əsas dəstəkverici qüvvəsi isə hələ 90-cı illərin ortalarında milli maraqlar dairəsinə salınmış Xəzər hövzəsinin aparıcı dövləti və mərkəzi olan Azərbaycandır. Təbii ki, prezident Heydər Əliyevin siyasəti sayəsində.



Göründüyü kimi, payızda keçiriləcək prezident seçkiləri tək sıravi azərbaycanlının maraqları dairəsinə daxil olan problem deyil. Bu seçkilər artıq regional xarakterli məsələdir və bunun başlıca səbəbi Azərbaycanın tam müstəqil regional oyunçuya çevrilməsidir. Bu isə, heç şübhəsiz ki, qarşısına Azərbaycanı, sözün əsl mənasında, müstəqil və azad dövlət etmək məqsədini qoymuş prezidentin xidmətidir. Bu gün dünyanın güc mərkəzlərinin diqqəti Azərbaycan seçicisinə yönəlib və azərbaycanlı vətəndaşın bu miqyaslı prosesin mühüm komponenti qismində çıxış etməsi onun dövlətinin başçısının səylərinin nəticəsidir. Şübhəsiz ki, bu vətəndaş ötən illərdə olduğu kimi, yenə də seçimində yanlışlığa yol verməyəcək.

*RÜSTƏM QARAXANLI*

# USTAD HAQQINDA SÖZ

Ərəb dilindəki öyrədən, tədris edən şəxs mənasındakı «müəllim» sözü qazax dilində də işlədilir. Bununla yanaşı, mənim ana dilimdə bu sözün sinonimi olan «ustaz» sözü də var, mənşəcə ümumtürk «usta» sözündən gələn bu kəlmənin mənası «mütəxəssis», «öz işinin bilicisi»dir.

Mən həyatda çox şey öyrənmişəm və neçə-neçə ləyaqətli, yüksək hörmət-izzətə layiq insanlara ehtiramla «müəllim» demişəm. Amma onlardan yalnız bir neçəsini «ustaz», həyat müəllimi bilmişəm.

...70-80-ci illərdə Heydər Əliyev SSRİ respublikalarının ən məşhur rəhbərlərindən biri idi. 1980-ci illərin əvvəllərində SSRİ-nin hər yerindən idman şərhçilərini Moskvaya çağırmışdılar ki, onların arasından ən hazırlıqlılarını seçsinlər. Onlar həmin ilin iyununda keçiriləcək yay Olimpiya oyunlarının gedişini işıqlandırmalı idilər. Testlərdən biri belə idi ki, respublikalardan birinin adı çəkiləndə dərhal, bədahətən mümkün qədər çox ad (fərqi yoxdur, idmançı, yazıçı, yaxud alim olsun) sadalamaq, ilk öncə isə, bu respublikanın partiya rəhbərinin adını çəkmək lazım idi. Çoxları məhz bu sınaqda «büdrədi». Moldaviya... Türkmənistan... Litva... Latviya... Estoniya... Ermənistan... Qırğızıstan... Tacikistan... Belorusiya... Buna baxmayaraq, hətta ən kəmsavadlar da bilirdilər ki, Şerbitski Ukraynanın, Kunayev Qazaxıstanın, Əliyev Azərbaycanın, Şevardnadze Gürcüstanın, Rəşidov Özbəkistanın rəhbərləridir. Rəhbərlərin məşhurluğu təkcə respublikanın iqtisadi və siyasi sanbalı ilə deyil, həm də liderin şəxsiyyəti ilə izah edilirdi.

Əgər belə bir sorğu indi də keçirilsə, Əliyevin soyadı bütün cavablarda yenidən çəkilər. Halbuki indi, nəinki başqa bir zamanədir, həm də başqa bir dövrdür. Elə bir dövr ki, özünün yüksək ad-sanını, nüfuzunu qoruyub-saxlamaq heç də hamıya müyəssər olmayıbdır.

...Sovet elmində türkdilli xalqlara cüzi bir tarixi qol ayrılırdı. Bu ənənənin bünövrəsi çar Rusiyası dövründə qoyulmuşdu. O Rusiyada ki, on illər boyu Türkiyə ilə müharibələr aparmışdı və onu da unutmurdu ki, Rusiyanı XIII əsrdən XVI əsrədək idarə etmiş Qızıl Orda da türk imperatorluğu idi. Tarixçi alimlər və dilçilər yeni nəsilləri türk mədəniyyətinin slavyan mədəniyyətinə guya heç bir təsir göstərmədiyinə inandırmaq üçün türklərin töhfəsini açıq-aşkar qulaqardına vurur, onun üstündən sükutla keçirdilər.

SSRİ-nin ən savadlı siyasətçiləri başa düşürdülər ki, Şimali Avrasiyanın taleyini həmişə slavyan və türk superetnoslarının qarşılıqlı münasibətləri müəyyənləşdirib və gələcəkdə də müəyyənləşdirəcəkdir. Odur ki, bir-birindən qarşılıqlı surətdə asılı olan bu iki etnosdan hər hansı birinin əhəmiyyətini elmi bəhanələrlə kiçiltmək cəhdləri digərinə və ümumən, tarixi prosesin nəticələrinə mənfi təsir göstərəcəkdir.

Azərbaycan, Qazaxıstan, Özbəkistan rəhbərləri slavyan və türk amillərinin təbii tarazlığını saxlamağa çalışır və başa düşürdülər ki, həmin tarazlıq pozulsa, bu, türk xalqlarının xeyrinə olmayacaqdır. Elə slavyan xalqlarının özlərinin də. Hələ onda belə bir inam yaranırdı ki, biz tarixən bir-birimizdən qarşılıqlı surətdə asılıyıq. Ona görə də bu müddəanı milli ideyanın mühüm dayaq nöqtəsi kimi dərk etmək vacibdir. O ideyanın təşəkkülünə və inkişaf etdirilməsinə isə yeni formasiyanın alim və yazıçıları kömək edə bilərdilər. Deyə bilərəm ki, əgər biz nəyəsə nail olurduqsa, bu, daha çox respublikalarımızın siyasi rəhbərliyinin dəstəyi və həyanlığı sayəsində mümkün olurdu.

...Sovet İttifaqı binasının Qorbaçovsayağı yenidən qurulması dövlətin süqutu ilə nəticələndi. Yenidənqurmaya layihəsiz-filansız başladılar, təcrübəli qurucuları sıxışdırıb aradan çıxardılar, ancaq kütlənin ruh yüksəkliyinə və siyasi improvizasiyaya bel bağladılar. İndi, başımız daşdan-daşa dəyəndən sonra, inamla deyirik ki, həsrətində olduğumuz müstəqilliyə qovuşmaq kimi müqəddəs iş yeni dövlətlərin rəhbərlərindən çox yüksək peşəkarlıq tələb edirdi: belə bir taleyüklü məqamda gərək hakimiyyət boşluğunun yaranmasına yol verilməsin. SSRİ-nin «yenidənqurma eşqinə düşən» rəhbərliyi peşəkarları vəzifədən uzaqlaşdıraraq, yeni dövlətlərin müqəddəratını naşıların və kütlənin öhdəsinə buraxmaqla xalqları separatçılıq, vətəndaş müharibələri və etnik təmizləmələr faciəsinə düçar etdilər. Tacikistan, Özbəkistan, Qırğızıstan, Moldaviya, Gürcüstan, Azərbaycan, Çeçenistan... Yüz minlərlə insan öldürüldü, milyonlarla adam vətənindən didərgin salındı.

Mən əminəm ki, əgər 80-ci illərin axırları 90-cı illərin əvvəllərində Heydər Əliyev Azərbaycana rəhbərliyi davam etdirsəydi, nə Ermənistan – Azərbaycan münaqişəsinə, nə də Sumqayıt hadisələrinə yol verməzdi. 1990-cı ilin yanvarında general Varennikovun tankları Bakıya yeridilməzdi. 1992–1993-cü illər müharibəsində Qarabağ itirilməzdi.

...1993-cü il iyunun 1-də Uşaqları müdafiə günü mən Bakıya humanitar yardım – 40 ton uşaq yeməyi gətirdim. Biz «İl-76» yük təyyarəsinin üzərində «Uşaqların günahı yoxdur!» sözləri yazmışdıq. Mən nəzarət edirdim ki, uşaq yeməklərinin hamısı təyinat yerlərinə – uşaq xəstəxanalarına, uşaq evlərinə çatdırılsın. Bu işdə mənə dostlarım Elçin, Anar, Polad Bülbüloğlu, Fərhad Bədəlbəyli yardımçı oldular.

Elçibəylə onun iqamətgahında görüşdük. Onu bir neçə ildi ki, tanıyırdım. Filoloq kimi dünyanın düz vaxtında, dinclik dövründə də, Xalq Cəbhəsinin rəhbərlərindən biri kimi 90-cı ilin yanvarında da onunla görüşmüşdük. O vaxt Y.Primakov və A.Mütəllibovla görüşdə onu müdafiə etmişdim. Mən SSRİ Ali Sovetindən Bakıda yeganə müşahidəçi idim və rəyim nəzərə alınırdı.

Lakin Uşaqları müdafiə günü prezidentlə görüşüm və söhbətim xüsusilə yadımdadır. Mehriban, ziyalı adamdı, di gəl ki, rəhbər işçi deyildi. Siyasətçi də deyildi. Qısa bir zaman kəsiyində iki böyük qonşu dövlətlə – Rusiya və İranla münasibətləri korladı və bunu heç vəchlə sahmana salmaq istəmirdi. Nəticəsi də bu oldu ki, İran Ermənistana kömək etməyə başladı, Rusiya qoşunları isə Qarabağ cəbhəsində peyda oldu və Azərbaycan torpaqlarının işğalında iştirak etdi.

Əminəm ki, əgər elə həmin iyun ayında bir neçə gündən sonra xalq Heydər Əliyevi çağırmasaydı, ölkə daha çox insan və ərazi itirərdi. O vaxtlar BMT-nin və Qərbin hər şeyə qadir demokratik dövlətlərinin tam səhlənkarlığı üzündən Tacikistanda da qətliamlar törədilir, Yuqoslaviya, Gürcüstan, Moldaviya... qan-qadalarla parçalanırdı.

Heydər Əliyev müharibəni dayandırdı. Ötən on ildə regionun irili-xırdalı bütün qonşu ölkələri, Qərbin də, Şərqin də böyük dövlətləri ilə münasibətlərin normallaşdırılması üçün çox işlər gördü.

İtirilənlərin hamısının dincliklə, sülh yolu ilə tədricən qaytarılacağına inam yarandı. O sübut etdi ki, çağdaş və gələcək dünyamızda siyasi məharət hərbi məharətdən daha səmərəli ola bilər.

Vaxt gələcək, Şumer dövründən tutmuş zəmanəmizədək türklərin böyük hadisələrə və Bilgamis *(«Müdrik qəhrəman»)*, Bilgə xaqan *(«Müdrik xaqan»)*, İltəriş *(«Torpaqları birləşdirən»)*, Atatürk... kimi dahi adlara söykənən tarixi yazılacaqdır.

Bizim zəmanəmiz Ustad titullu layiqli adlarla təmsil ediləcəkdir.

...80 yaş Qafqaz üçün adi yaşdır. Avropada İtaliyanı uzunömürlülər ölkəsi sayırlar. Onun prezidenti Oskar Luici Skalfaro konstitusiya ilə nəzərdə tutulan yeddi il başa çatandan sonra, 1999-cu ildə istefa verdi. Elə düşünülə bilər ki,

yaşına görə rəqibinə güzəştə getdi, o vaxt 80 yaşı vardı. Prezident vəzifəsinə seçilən Karlo Adzelio Çampi ondan azacıq «cavan» idi, 80 yaşına təzədən girmişdi. Lakin o, indi, 83 yaşında da, camaat qarşısında iki saat çıxış etmək və istisnasız olaraq, bütün prezident vəzifələrini yerinə yetirmək iqtidarındadır.

Ustadlar çox yaşamalı, uzun ömür sürməlidir. Onların həyatı daimi, fasiləsiz əməkdir. Qazaxların «jasa» sözünün bir-birindən ayrılmaz iki mənası var – «yaşa» və «yarat».

Heydər Əlirza oğlu Əliyevə doğum günündə müraciət edərək, qazaxca deyirəm: «Jasa, Ustaz! Jasa, Azərbaycan!»

***OLJAS SÜLEYMENOV,***
***yazıçı, diplomat***



İyul. 2001-ci il. Jurnalistlərlə söhbət edərkən.



23 aprel 1998-ci il. "Nərgiz" TV-yə müsahibə verir.



Mart. 1997-ci il. Rusiya jurnalisti Karaulovla söhbət edərkən.



Oktyabr. 1999-cu il. Rusiya jurnalisti Senkeviçlə görüş.



## NƏSİLDƏ BÖYÜKLƏRİN DƏSTƏK VƏ TƏCRÜBƏSİ GƏNC AİLƏYƏ NƏ QƏDƏR LAZIMDIRSA, HEYDƏR ƏLİYEVİN DƏ SİYASİ TƏCRÜBƏSİ VƏ MÜDRİKLİYİ GƏNC MÜSTƏQİL AZƏRBAYCANA BİR O QƏDƏR GƏRƏKDİR

### *Yol*

Qafqazda hakimiyyətə hörmət edirlər, amma siyasət bambılılarına dözmürlər. Məğrur xalqları idarə etmək çətindir, tarixin sərt dönümlərində hakimiyyətin zirvəsində olmaq isə ikiqat çətindir. Odur ki, yeni tarixin öz xalqlarını belə bir zəmanədə qan-qadadan, səfalətdən və əsarətdən qurtara bilmiş qəhrəmanları maraq doğurmaya bilməz.

Azərbaycanın ən siqlətli siyasətçisinin səksən yaşı tamam olur. O, ölkənin ağır bir vaxtında hakimiyyətə gələrək, artıq on ildir respublikanı idarə edir. Nəsildə böyüklərin dəstək və təcrübəsi gənc ailəyə nə qədər lazımdırsa, onun da siyasi təcrübəsi və müdrikliyi gənc müstəqil ölkəyə bir o qədər gərəkdir.

### *Naxçıvan*

Heydər Əlirza oğlu Əliyevin atası fəhlə idi, buna baxmayaraq, övladlarına yaxşı təhsil vermişdi: birinci övladı akademik, ikinci övladı Leninqradda Rəssamlıq Akademiyasını bitirərək rəssam olmuşdur. Heydər isə ikiillik Naxçıvan Pedaqoji Texnikumunu bitirərək memar olmaq üçün Bakıya təhsil almağa getmişdir. O, institutda özfəaliyyət teatrında məşğul olmuş, tələbə tamaşalarında oynamışdır.

Onun daxilində iki həvəs – artistliyə və memarlığa meyl və birinci olmaq şövqü, bulaq kimi coşub-çağlayan fəal həyat eşqi uzun müddət bir-birilə çarpışmışdır. Lakin ikinci amal qalib gəlmişdir. 1944-cü ildə Əliyev təhlükəsizlik orqanlarına işləməyə gedir. O vaxtkı Sovet İttifaqında siyasi mənsəbə çatmaq üçün, əslində, heç bir yol yox idi. Heydər Əliyev ən mübahisəli və təhlükəli bir yol seçir. İndi, ötən günlərə zəmanəmizin zirvəsindən baxılsa, demək olar ki, bu yol onun üçün doğru-düzgün bir yol olmuşdur.

Heydər Əliyev 1954-cü ildə Zərifə Əliyeva ilə ailə qurmuşdur. Zərifə xanımın qafqazlılara xas gözəlliyi, ədəb-ərkanı və istiqanlılığı fitri zəkası və əməksevərliyi ilə ahəngdar bir vəhdət təşkil edirdi. Sonralar o, elmlər doktoru, akademik oldu. Lakin bu, ona qızı Sevilin və oğlu İlhamın tərbiyəsinə diqqət yetirməyə mane olmadı.

Bu qadın Moskvada, əri ilə birlikdə Kremldə rəsmi qəbullarda iştirak etməli olduqda da ətrafdakılara gözəl təsir bağışlayırdı.

### *Bakı*

Orqanlarda xidmət Heydər Əliyev üçün heç də asan olmamışdır, vəzifədə də çox sürətlə yüksəlməmişdir. O, yalnız 1964-cü ildə respublika Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini vəzifəsinə yüksəlmiş, üç ildən sonra isə general rütbəsi almış və komitənin sədri olmuşdur.

Nəhayət, 1969-cu ildə Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilir və həmin dövrdən onun, belə demək olarsa, mülki xidməti başlanır. Bu xidmət sonralar onu müstəqil Azərbaycan dövlətinin prezidenti vəzifəsinə gətirib çıxarmışdır. Amma həmin anadək ağır, heç nə vəd etməyən iyirmi dörd il olmuşdur.

Birinci katib olduğu on dörd ildə Heydər Əliyev Azərbaycan üçün çox işlər görmüşdür. O, dərin qazma özülləri, elektron hesablama maşın zavodları kimi iri müəssisələrin tikilməsinə nail oldu. Xəzərdə neft hasilatı kəskin şəkildə aşağı

düşdükdə və Bakı neftayırma zavodları bağlanmaq təhlükəsi ilə qarşılaşdıqda o, Qroznı – Bakı neft kəmərinin çəkilməsinə nail oldu və bu kəmərlə Tümen və Tatarıstandan Azərbaycana neft göndərilməyə başlandı. Əlbəttə, bütün bunlar yalnız ona görə mümkün olmuşdur ki, Heydər Əliyev özünün haqlı olduğunu Brejnevə inandıra bilirdi.

Məsələn, o, ukraynalı həmkarı Şerbitskidən zirək tərpəndi və kondisionerlər zavodunu onun əlindən aldı. Bu əhvalat ittifaq respublikaları kommunist partiyalarının birinci katiblərinin müşavirəsində baş vermişdi. Yorğun və gecəni yaxşı yatmamış Leonid İliç kondisionerin pis işləməsindən gileylənərək demişdi: «Mənə elə gəlirdi ki, qonşu otaqda bütün gecə traktor işləyib».

Elə dərhal Heydər Əliyev kondisioner buraxmaq üçün böyük bir müəssisə tikmək təklifi irəli sürmüşdür. Zaporojyedə tikilməsi nəzərdə tutulan zavod elə oradaca Bakıya ünvanlanmışdır. Nahaq deməyiblər ki, incə oyunun yaxşı da nəticəsi olur.

Vaxt vardı, azərbaycanlı gəncləri hərbi xidmətə, əsasən, inşaat batalyonlarına göndərirdilər. Heydər Əliyev diviziya komandiri Naxçıvanskinin adını daşıyan hərbi təmayüllü məktəb açdı. Azərbaycanlı gəncləri ittifaqın hər yerində hərbi məktəblərə və institutlara qəbul etməyə başladılar. SSRİ dağılandan sonra müasir Azərbaycan ordusunun zabit korpusunun özəyini məhz bu məzunlar təşkil etdilər.

Lakin birinci katib heç də təkcə hərbçilər barədə düşünmürdü. İstedadlı gənc azərbaycanlılar ölkənin ən mötəbər ali məktəblərinə təhsil almağa göndərildilər. Heydər Əliyev onlar üçün məqsədli təyinata nail olmuşdu. Abituriyentlər imtahanları Bakıda verirdilər. Təhsil dövründə tələbələr Heydər Əliyevdən təbrik açıqcaları alırdılar. İndi bu keçmiş «himayədə olanlar» neft sahəsinin rəhbərləridir, Bakının ali məktəblərində dərs deyirlər, akademikdirlər. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıtmasına onlar da kömək etdilər.

Heydər Əliyev təkcə başqalarının təhsil almasına kömək etmirdi, özü də istedadlı bir insan olduğundan təhsilin qədir-qiymətini bilirdi. O, birinci katib seçiləndə rus dilini yaxşı bilmirdi. O vaxtlar bu, nöqsan sayılırdı, plenum və qurultaylarda çıxış etməyə mane olurdu. Heydər Əliyev bu problemi bir neçə həftəyə həll etdi: universitetdən dəvət olunmuş rus və Azərbaycan dilləri üzrə iki müəllim və üstəlik, onun çalışqanlığı və qabiliyyəti sayəsində artıq bir müddətdən sonra o, bütün günü rus dilində aksentsiz-filansız danışa bilirdi.

## *Moskva*

Moskvada həyat əvvəlcə uğurlu oldu. Andropov ona himayədarlıq göstərirdi. O, Heydər Əliyevi, əvvəlcə, Siyasi Büronun üzvü, sonra SSRİ Nazirlər Soveti sədrinin birinci müavini etdi. Onun əlində olduqca böyük səlahiyyət vardı – on dörd nazirliyə kuratorluq edirdi. Lakin bu, Qorbaçov hakimiyyətə gələnə qədər davam etdi. Qarmaqarışıq vaxtlar başlandı. İttifaq dağılırdı. Qafqazda qanlı Qarabağ hadisələri başlanır. 1990-cı ilin əvvəlində Bakıda faciəli toqquşmalar baş verir.

Güclü siyasi duyuma malik olan Heydər Əliyev başa düşürdü ki, ittifaq respublikaları sürətlə müxtəlif tərəflərə uzaqlaşmağa başlayır və onların çoxunu məşəqqətli, qanlı-qadalı çağlar gözləyir. O, hiss edirdi ki, Qafqaz respublikalarını daha ağır zamanlar gözləyir, çünki onların çox dolaşıq siyasi tarixi və mürəkkəb hakimiyyət münasibətləri sistemi var.

İttifaqın süqutundan sonra müstəqil Azərbaycanda Xalq Cəbhəsinin lideri Elçibəy hakimiyyətə gəlir. Klanlar ölkəni parçalayırlar, ölkə isə bilmir hansı tərəfə üz tutsun və dünyanın siyasi xəritəsində öz yerini necə müəyyənləşdirsin. Amerika ilə gözdəniraq sövdələşmələr Şimal qonşusunu qıcıqlandırır və həm də çoxdan gözlənilən iqtisadi dividendlər gətirmir. Siyasət, illah da ki, Qafqazda siyasi avantüristlərə və naşılara dözmür. Odur ki, siyasətdə vəzni, sanballı olanların dövranı gəlib çatmışdı.

## *Bakı*

1993-cü il – Azərbaycanda üsyan baş verir. Hökumət pərən-pərən düşür və Heydər Əliyev hakimiyyətə gəlir. O, bir çox illərdən sonra Bakıya qayıdır. Artıq indi müstəqil respublikanın prezidentidir.

Bu, yeni həyatın başlanğıcı, yoxsa, onun uzaq qırxıncı illərdə başladığı yolun məntiqi davamı idi?

Qafqazda iti və dərin zəkalı insanları sevirlər, amma tələm-tələsik çıxarılan qərarları bəyənmirlər. Qafqazda hakimiyyətə hörmət edirlər, amma hökmranlığa dözmürlər. Bunu başa düşmək üçün gərək illərlə orada yaşayasan və öz xalqının övladı olasan.

Heydər Əliyev on ildir ki, yeni ölkəsini idarə edir. Özünə başı qarlı-dumanlı qoca Qafqaz zirvələrindən baxan ölkə üçün bu on il böyük vaxt deyildir. Bu, bir andır. Amma böyük və şanlı yolun başlanğıcında ilk addım olacaq andır.

**İQOR SAVİN,**
***«Rossiya» qəzeti, 6 may 2003-cü il***

Fransanın xarici işlər nazirinə məsləhət vermək mənə həvalə edilmişdi. Sonralar mənə görüşün yüksək səviyyədə keçdiyini bildirdilər.

XXI əsrin görkəmli siyasi xadimi prezident Heydər Əliyev böyük təşkilatçıdır. 1994-cü ildə Qərb ölkələrinin neft şirkətləri «Əsrin müqaviləsi»ni imzaladı.

Prezident Heydər Əliyevin əməli fəaliyyəti Azərbaycanın işıqlı gələcəyindən, iqtisadi cəhətdən qüdrətli bir ölkə olacağından xəbər verir. Mən buna inanıram.

***JAN POPEN,***
***Fransa–Azərbaycan Ticarət Palatası sədrinin müavini***



## TARİXƏ DÜŞMÜŞ MÜSTƏSNA İNSAN

Siyasi xadim və yaradıcılıq keyfiyyətləri ilə Sovet İttifaqı rəhbərliyində mühüm rol oynamış Heydər Əliyev barəsində çoxdan eşitmişdim. Öz müstəqilliyini bərpa etmiş Azərbaycana səfir təyin olunandan sonra, bu ölkənin qarmaqarışıq, lakin tarixi dövrünü yaşadığı bir vaxtda bu böyük şəxsiyyətlə görüşmək arzum hədsiz idi...

1993-cü ilin əvvəlləri idi. Mixail Qorbaçovun hakimiyyətə gəlməsindən sonra vəzifəsindən uzaqlaşdırılmış və Naxçıvanda yaşayan Heydər Əliyevə baş çəkməyi qərara aldım. Vaxtilə vəzifə yüksəlişinə kömək etdiyi Ayaz Mütəllibovun ötəri prezidentlik dövründə ona bəslənmiş düşmənçiliyə baxmayaraq, Naxçıvan Muxtar Respublikasından Azərbaycan parlamentinə deputat seçilmiş H.Əliyev 1991-ci ilin payızında Naxçıvan Ali Məclisinin sədri vəzifəsinə seçildi.

Naxçıvan ziddiyyətli iqlimi olan bir ərazidir. Bakıdan fərqli olaraq, havanın temperaturu qışda bəzən mənfi 30 dərəcəyə düşür. Novruz bayramı ərəfəsi olsa da, bərk şaxta idi. Başqa yanacaq vasitəsi olmadığından bütün ağaclar kəsilmişdi. Elektrik enerjisi, demək olar ki, yox dərəcəsində idi. Ermənistan və İran sərhədində yerləşən Naxçıvan Ermənistanla münaqişə nəticəsində Azərbaycandan tamamilə təcrid olunduğundan əziyyət çəkirdi. Əhalinin acınacaqlı vəziyyətini bilirdim və bizim humanitar təşkilatın köməyi ilə oraya təyyarədə 40 ton ərzaq aparmağa nail oldum, çünki yük mütləq Novruz bayramı qabağı çatdırılmalı idi.

Müntəzəm uçuşların dayandırıldığı bir vaxtda təyyarəmiz qarlı tufana baxmayaraq, yerə endi. Bu cür şücaəti yalnız səriştəli və əraziyə yaxşı bələd olan təyyarəçilər göstərə bilərdi.

Heydər Əliyevlə belə bir şəraitdə, həyat yoldaşımın müşayiəti ilə görüşdük. Mən belə bir addım atan ilk səfir idim. Öz zəhmi ilə bizi təsirləndirən bu insan qonaqları qızdırılmayan otaqdakı soyuqla təzad təşkil edən bir hərarətlə qarşıladı. Ümumi sözlərdən sonra Ali Məclisin sədri siyasi şəxsiyyətlər və digər mövzular barədə öz fikrini açıq söylədi. Hadisələrin sonrakı gedişi onun fikirlərinin düzgün olduğunu təsdiqlədi. Heydər Əliyevdən ayrılarkən onu tezliklə Bakıda yenidən görmək arzusunda olduğumuzu bildirdik və bu arzumuz az sonra həyata keçdi.

Naxçıvana bu səyahət xatirələrimizdə əbədi iz saldı. O vaxtdan etibarən aramızda etibarlı əlaqələr yarandı.

Hadisələr sürətlə inkişaf edirdi. Bir il öncə dövlət çevrilişindən sonra hakimiyyətə gəlmiş prezident Elçibəy ölkədə böyük ehtiram bəslənilən Heydər Əliyevi 1993-cü ilin iyun ayında Bakıya çağırdı ki, öz nüfuzundan istifadə edərək, ölkədə yaranmış hərc-mərcliyə son qoysun. Beləliklə, arzumuz çin oldu...

Artıq tarixə düşmüş bu müstəsna insanı yubileyi münasibətilə təbrik edir, öz təcrübəsi və müdrikliyinin qüdrəti ilə Azərbaycanı irəli aparmasını arzulayırıq.

***JAN PERRƏN,***
***Fransanın Azərbaycandakı ilk səfiri***

## NADİR ŞƏXSİYYƏT

Prezident Heydər Əliyevə 80 illik yubileyi günündə bütün nemətləri arzu etmək istərdim. İndi o, yollar, zamanlar, məkanlar ayrıcında olaraq, bu narahat dünyada sabitliyi, müdrikliyi və öz şəxsi ömürnaməsinin hüdudlarından çox-çox uzaqlara gedən sabaha ümidi təcəssüm etdirir.

Heydər Əliyevdə insanı ən çox onun planet miqyasında siyasi uzunömürlülüyü heyran edir.

Heydər Əliyev fəaliyyətinə 40-44-cü illərin son dərəcə mürəkkəb bir şəraitində başlamışdır. Bu, elə bir dövr idi ki, 20 yaşlı gənclər indiki yaşıdlarına nisbətən cəmiyyətdə daha böyük rol oynayırdılar. O, Naxçıvanda idi, nasist Almaniyası ilə ölüm-dirim mübarizəsi aparan Sovet İttifaqının çox çətin sərhəd sahəsini qoruyurdu. O vaxtlar Türkiyənin öz alman müttəfiqi tərəfində müharibəyə qoşulması təhlükəsi vardı, səfir Fon Papenlə hər gün danışıqlar aparılırdı. Türkiyə ordusunun baş komandanı almanpərəst əhvali-ruhiyyədə idi, xoşbəxtlikdən, prezident İnönü bu əqidələrə tərəfdar deyildi.

Gənc sərhədçilər Türkiyə ərazisində müntəzəm kəşfiyyat əməliyyatlarını cəsarətlə aparırdılar. Onların arasında gənc leytenant Heydər Əliyev xeyli fərqlənirdi.

Sonra Heydər Əliyev Təbrizdə xidmət edir, faciəli hadisələrin şahidi olur. Bu hadisələrin mahiyyətini çox yaxşı başa düşürdü – şah hakimiyyəti olduqca mürəkkəb şəraitdə Cənubi Azərbaycanı ələ keçirmək niyyətində idi. Bunlar ona dərin təsir bağışlayır və o, şah polisi tərəfindən Pişəvərinin qətlindən və Azərbaycanda kommunist ideyalarının – həmin dövrdə Azərbaycan xalqının öz ümidlərini bağladığı ideyaların puça çıxmasından sonra çox düşünüb-daşınır.

Heydər Əliyev muxtariyyət yaratmaq istəyən Cənubi Azərbaycan demokratlarının təlaş-təşvişlərinin, habelə Mustafa Bərzaninin Kürd Respublikasının darmadağın edilməsinin şahididir. Bunlar Sovet İttifaqının ilk məğlubiyyətləridir, onun ardınca digər məğlubiyyətlər gələcəkdir.

Azərbaycanın qeyrətli vətənpərvəri olan Heydər Əliyev Sovet İttifaqının köməyi ilə böyük Azərbaycanın inkişafını görmək istəyirdi. Lakin o, başa düşməyə başlayırdı ki, rusların qüdrəti intəhasız deyil və bəlkə də bu, Sovet İttifaqının hər şeyə qadir olduğu barədə xülyalara qapılanlardan fərqli olaraq, onun siyasi karyerasının uzun sürməsinin səbəblərindən biridir.

Heydər Əliyev başa düşür ki, həqiqət, əslində, daha mürəkkəb və daha çətindir. O, gözəl bilir ki, xarici siyasət mürəkkəb bir fəaliyyətdir, burada bilik, ağıl-zəka, kəşfiyyat və danışıqlar da qüvvə kimi eyni əhəmiyyətə malikdir. Bütün bu keyfiyyətlərə malik olan Heydər Əliyev çox vaxt silahsız, ancaq öz zəkasının gücü ilə, köməyi ilə mübarizə aparmalı olmuşdur və bu günədək də belədir.

Heydər Əliyev Sovet İttifaqının kəşfiyyat xidmətlərində davam etmiş bütün bu uzun təcrübəni öz xalqına xidmətə yönəltmişdir. Ümidlər və xoş xəyallarla dolu olan Brejnev dövrünün əvvəllərində o, mürəkkəb vəziyyətə düşmüş Azərbaycan Respublikasının rəhbəri təyin edilir. Onun həmin vəzifədəki sələfi Vəli Axundovun da öz nöqsanları vardı, lakin bu vəziyyətin yaranmasının təqsiri onda deyildi. Azərbaycan üçün postneft erasının başlanğıcı, respublikanın sərvətlərinin tükənmək həddinə çatdığı və sənayeni daha yüksək texnoloji səviyyəyə keçirmək tələb edildiyi bir vaxt idi.

Heydər Əliyev bu məqsədin həyata keçirilməsi – emal olunmamış xammalın sadəcə hasilatından imtina edərək, işin yeni normalarının, yeni texnologiyaların yaradılması uğrunda mübarizə aparmağa başlayır. Bu səhvi ərəb dünyası 50-ci illərdə etmişdi. Respublika iqtisadiyyatını mə-



26 aprel 1998-ci il. Türkiyə səfəri öncəsi Binə hava limanında.



Noyabr. 1999-cu il. Binə hava limanı.



Yanvar. 1999-cu il. Türkiyə. ANS telekampaniyasına müsahibə verərkən.



Yanvar. 1999-cu il. Türkiyə.



dərnləşdirmək üçün mərkəzi hakimiyyətdən kreditlər ayırmasına nail olmaq lazım idi. Bundan ötrü isə daimi və gərgin diplomatik səylər tələb olunurdu. Lakin bu səylərə Dövlət Plan Komitəsinin yeni rəhbəri Baybakovun əslən Azərbaycandan olması da kömək etmirdi.

Heydər Əliyev bu döyüşdən qalib çıxır, nəticədə 70-80-ci illərdə Azərbaycan, ilk növbədə, neft texnologiyaları və informatika sahəsində yüksək inkişaf etmiş sektorlara malik iri sənaye ölkəsinə çevrilir. Az-az adam bilir ki, Bakı sovet informatikasının mühüm mərkəzlərindən biri idi.

Eyni zamanda, Heydər Əliyev mədəniyyət sahəsində misli görünməmiş siyasət yeridir: Qafqazın Böyük Teatrı adlandırılan Bakı Opera Teatrı çiçəklənir, əla simfonik orkestr, güclü şahmat məktəbi yaradılır, istedadlı kinorejissorlar yetişdirilir. Məlumdur ki, Azərbaycan kinosu uzun müddət durğunluq vəziyyətində olmuşdur, halbuki vaxtilə «Arşın mal alan» Stalinin sevimli filmi idi.

Heydər Əliyevin səadətli anları Y.Andropovun ölkəyə rəhbərliyi dövrünə təsadüf edir.

Heydər Əliyevin Azərbaycanın rəhbəri vəzifəsində uğurlu və çoxşaxəli fəaliyyətinin nəticəsi idi ki, Yuri Andropov öz islahatlarının ilk dövrünə başlayanda Heydər Əliyevi ən yaxşı baş nazir hesab edir və düşünürdü ki, o, ölkənin dövlət aparatına təkan verməyə qadirdir. Andropov hakim rus millətçiliyinin düşməni idi, hesab edirdi ki, «Leninin milli siyasətinə» qayıtmaq, yəni respublikaların rəhbərlərinə Mərkəzdə layiq olduqları yeri vermək lazımdır.

Y.Andropov Heydər Əliyevi bir də buna görə qiymətləndirirdi ki, İran inqilabı məsələsində onların arasında qarşılıqlı anlaşma vardı. Məlum olduğu kimi, Moskvadakı bir çox rəhbər şəxslər islam inqilabına olduqca sadəlövhlüklə sevinirdilər. Onlar Xomeyniyə oğlu Əhmədin köməyi ilə yol tapmış və belə güman edirdilər ki, Yaxın Şərqdə hökmranlıq uğrunda amerikalılarla mübarizədə Xomeyninin simasında potensial müttəfiq tapacaqlar. Bu şəxslər islam inqilabını «ram etməklə» («pələngi ram etmək» – Mao Tze Dun belə deyirdi) öz məqsədlərinə çatmaq ümidində idilər.

Yüksək inkişaf etmiş sağlam düşüncə sahibi olan Heydər Əliyevin isə başqa niyyətləri vardı: ənənəvi dünyəvi Azərbaycanı İranın dini təsirindən qorumaq, böyük əksəriyyətinin Xomeynini o qədər də xoşlamayan İrandakı azərbaycanlılara dini təsirə müqavimət göstərməkdə kömək etmək.

Heydər Əliyev ürəyinin dərinliyində istər Sovet İttifaqı üçün, istərsə də İran üçün liberal inkişaf arzulayırdı.

Sovet diplomatiyasında islamizmə və inkişaf zəifliyinə qarşı yönəldilmiş böyük dəyişikliyin təşəbbüsçüsü məhz Heydər Əliyev olmuşdur. Sonralar bu xətt Qorbaçov və Şevardnadze tərəfindən davam etdirilmişdir. Türk və bolqar mafioz dairələrinin Roma papasına qarşı təşkil etdiyi sui-qəsd cəhdi Heydər Əliyevin apardığı siyasətin düzgünlüyünü təsdiqlədi.

Şübhə yoxdur ki, Heydər Əliyev sovet diplomatiyasının istiqamətinin dəyişdirilməsində ən başlıca rol oynamışdır. Lakin onun bu xidmətini nə Dobrının, nə də Qorbaçov etiraf etmişlər. Üstəlik, Qorbaçov hakimiyyətə gəldikdən sonra sovet rəhbərliyi Heydər Əliyevin guya səhhətinin pisləşdiyini bəhanə gətirərək onu Siyasi Bürodan uzaqlaşdırdı.

Heydər Əliyevin əvvəlcə ancaq ədalətsiz siyasi sanksiya kimi qarşıladığı bu qərar, əslində, rusların öz cənublu müsəlman tərəfdaşlarını sıxışdırıb aradan çıxarmaq siyasətinin bir xüsusiyyəti idi. Bibliyada İosif barəsində deyildiyi kimi, İosif Firona daha əl vermədiyinə görə o, getməli idi.

Tanrının son dərəcə güclü ruh bəxş etdiyi Heydər Əliyev dərin daxili ləyaqətə, özünə hörmət qazandırmaq bacarığına, habelə sarsılmaz iradəyə malikdir və öz xalqına sıx bağlıdır.

Bu keyfiyyətlər respublikanın siyasətinə qarşı Moskvanın yeritdiyi təhrikçilik siyasətinin nəticəsi olan Qarabağ münaqişəsinin başlandığı

qonaq etdilər. Azərbaycan-Ukrayna dostluğu şərəfinə yenicə badə qaldırmışdıq ki, güclü külək bizim olduğumuz buruğu sanki taxta parçası kimi yırğalamağa başladı. Belə qeyri-adi vəziyyətə düşəndə hətta bir az qorxduq. Sahilə çatanadək bir fikir başımızdan çıxmırdı: «Təki Xəzərin dibinə qərq olmayaq...»

«Respublika» sarayında keçirilən təntənəli mərasimdə bütün sovet respublikalarının birinci şəxsləri iştirak edirdilər (Ukraynanı respublika Ali Soveti Rəyasət Heyətinin sədri Aleksey Vatçenko və mən – MK katibi təmsil edirdik). Təkcə Sov.İKP MK-nın Baş katibi gəlməmişdi, o xəstə idi. Lakin iclasın əvvəlində Heydər Əliyevi səhnə arxasına çağırdılar. O, beş dəqiqədən sonra qayıdıb dedi: «Leonid İliç Brejnev zəng vurmuşdu. Yubiley münasibətilə bizi təbrik etdi. Mən əziz Leonid İliçi əmin etdim ki, Azərbaycan xalqı Leninin və Kommunist Partiyasının ideyalarına həmişə sadiq olacaqdır. Əziz yoldaşlar, mənim bu sözlərimi dəstəkləyirsinizmi?» Salonu qurultulu alqışlar bürüdü.

Heydər Əliyev məhz Leonid Brejnevin tövsiyələri ilə 1982-ci ildə, Baş katibin vəfatından sonra SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olundu. Yuri Andropovun bu addımı çoxları üçün gözlənilməz oldu, lakin Azərbaycanın sabiq lideri özünün işgüzar keyfiyyətləri ilə hökumət rəhbərliyinə uyğun gəldi. Nəqliyyat, ticarət və məişət xidməti məsələləri onun səlahiyyətinə daxil idi. Məsələn, Əliyev Baykal–Amur magistralının tikintisini başa çatdırmaq üçün çox qüvvə sərf etdi. O vaxt belə hesab olunurdu ki, Çin sərhədindən yan keçən dəmir yolu Vladivostokadək məsafəni xeyli qısaldacaqdır.

Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi 1986-cı ilin avqustunda «Admiral Naximov» gəmisinin Novorossiysk yaxınlığında qəzaya uğraması nəticəsində zərər çəkənlərə yardım göstərilməsi üzrə hökumət komissiyasına başçılıq edirdi. Mən Ukrayna qrupunun rəhbəri idim. Hər iki gəmi – «Admiral Naximov» və «Pyotr Vasev» – Qara Dəniz Gəmiçiliyi İdarəsinə aid olduğuna, həlak olmuş 423 nəfərin isə 280-i ukraynalı olduğuna görə, cəsədlərin tanınması, onların yaşayış yerlərinə aparılması və ailələrinə maddi yardım göstərilməsi işlərinin əsas ağırlığı bizim qrupun üzərinə düşürdü.

Mən Novorossiysk hava limanında Heydər Əliyevi qarşılayanda o dedi: «Bugünkü görüşümüz heç də yaxşı görüş deyil!». Heydər Əliyeviç gen biçimli tünd boz gödəkçə, köynək geymiş və qalstuk bağlamışdı.

### «Suda boğulanların sifəti qorxudan əyilmişdi, çoxlarının saçları çəngə-çəngə qopmuşdu»

***Yakov Petroviç sözünə davam edir:***

– Günün işıqlı vaxtlarında Qara dəniz xilasedicilәri, Baltik dənizindən və Xəzərdən köməyə gəlmiş həmkarları meyitləri sudan çıxarırdılar. Həlak olanların şəxsiyyəti müəyyənləşdirildikdən sonra onların cəsədləri yaşayış yerlərinə yola salınmaq üçün dəmir yol terminalına gətirilirdi. Əliyevlə birlikdə biz, əslində, hər gün bu terminalda olurduq. Heydər Əliyeviç ölənlərin sayını və əslən haralı olduqlarını dəqiqləşdirirdi. Gözlərimiz qarşısında cəsədləri geyindirir və refrijeratorlara yığırdılar. Suda boğulanların sifəti qorxudan əyilmişdi, çoxlarının saçları çəngə-çəngə qopmuşdu. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini qəmgin-qəmgin gəzinir və tez-tez də təkrar edirdi: «Deyəsən, bu yara ürəyimdə həmişəlik qalacaq!» Tezliklə o, infarkt keçirdi.

Əvvəllər, onun rəhbərliyi ilə Azərbaycanda işlər yaxşı gedəndə, əhvalı yaxşı olurdu, tez-tez zarafat edirdi. Moskvaya gələndən sonra isə Əliyevin üzündəki təbəssüm azaldı. Paytaxtda Qorbaçovla münasibətləri düz gəlmirdi – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini siyasi islahatların sürətləndirilməsini təqdir etmirdi. Bundan əlavə, Novorossiysk faciəsindən bir il



Prezident Heydər Əliyev jurnalistlərlə birgə.



Aprel, 2001-ci il. Binə hava limanında brifinq.



Oktyabr, 1999-cu il. Türkiyəyə səfərə gedərkən Binə hava limanında brifinq.



Noyabr 1999-cu il. Türkiyə. Səfərdən qayıdarkən.



əvvəl həyat yoldaşını torpağa tapşırmışdı. Əliyev onu böyük ehtiramla xatırlayırdı: «O, mənim əsl dostum idi. Mən ən əziz adamımı itirdim!»

Ailə bədbəxtliyi və işlə bağlı qayğılarla yanaşı, «Naximov» gəmisinin faciəsi də onun çiyninə düşdü. Əliyev bu faciəni ürəyinə saldı.

Əliyev başda olmaqla komissiya hər gün saat 18.00-da şəhər sovetinin klubunda axtarışların gedişi barədə həlak olanların qohum-qardaşlarına məlumat verirdi. «Naximov»un batması xəbəri televiziya ilə veriləndə ilk günlər Novorossiysk şəhərinə gəmidə həlak olanların 300-ə yaxın qohum-əqrəbası gəlmişdi, dördüncü gün isə onların sayı 900-ə çatmışdı. Xilas edilənlərin də adamları gəlmişdi. Batmaqda olanları sudan sərhədçilər çıxarırdılar. İnsanlar saatlarla gəminin parçaları üstündə və yaxud da, elə belə suda qalmışdılar. Qayıqları suya salmağa macal olmamışdı, gəmi cəmi 8 dəqiqə ərzində batmışdı. Ona görə də xilas edilənlərin əksəriyyəti stress vəziyyətində idi və özləri barədə ağıllı-başlı bir şey deyə bilmirdilər.

Mən Qara dənizdə gəmi səyahətinə çıxmış və bu faciə zamanı 10 yaşlı oğlunu itirmiş 30 yaşlı bir qadınla söhbət etməli oldum.

Gəmi qəzaya uğrayanda yuxarı göyərtədəki kayutda olan ana və oğulun (ölənlərin əksəriyyəti aşağı göyərtədə olanlar idi) hərəsi bir tərəfə qaçıb, bir-birlərini itirmişlər. Bu qadınla söhbət adamın ürəyini parçalayırdı – o, gah huşunu itirir, gah da dəlicəsinə qışqırıb ağlayırdı. Bu söhbət sağ qalanların əksəriyyəti artıq xilas edildiyi vaxt olmuşdu. Onun oğlu xilas edilənlərin arasında yox idi. Onun cəsədini bir qədər sonra sudan çıxartdılar.

Sualtı axtarışların üçüncü günü dalğıclardan biri həlak oldu, gəminin qırıqlarından biri onun oksigen şlanqını deşmişdi. Bundan sonra Heydər Əliyev gözləri yaşarmış halda həlak olanların qohum-qardaşlarına axtarış işlərinin dayandırıldığını elan etdi. Salonda ağlagəlməz hay-küy qopdu: «Onlar bəlkə də artıq sağ deyillər, lakin biz onları, heç olmasa, adam kimi dəfn etmək istəyirik». Komissiya təslim olmaq məcburiyyətində qaldı.

Biz Heydər Əliyevlə salona, hönkürtü ilə ağlayan adamların yanına gəldik. Buradakıların yarısı əzizlərinin həlak olduqlarını bilirdi. Möcüzəyə ümid qalmamışdı. Heydər Əliyev ağlayan bir qadına yaxınlaşdı, onu qucaqlayıb öpdü. Sonra isə xalasının yanında dayanmış 15 yaşlı bir oğlana yaxınlaşdı: onun valideynləri həlak olmuşdu. Heydər Əliyeviç oğlanı qucaqlayıb astadan dedi: «Başımıza belə bir iş gəldi. Biz əlimizdən gələni edəcəyik ki, sən ali məktəbi bitirəsən, sənə təqaüd təyin edəcəyik...»

## *«Heydər Əliyev stress vəziyyətindən çıxmaq üçün bir qədəh konyak içirdi»*

– Biz səhər və axşam yeməyini vilayət partiya komitəsinin mehmanxanasının restoranında edirdik. Heydər Əliyev elə orada ikiyerlik adi nömrədə qalırdı. Axşam, stressdən çıxmaq üçün Heydər Əliyev bir qədəh konyak içirdi. Mədəmdəki yaranın ağrısı kəskinləşdiyindən mən hətta bunu da edə bilmirdim.

Faciəni bir anlıq da olsa, unutmaq üçün süfrə arxasında başqa mövzular tapmağa çalışırdıq. Bütün fikrini İttifaq büdcəsinin tərtibinə yönəldən Heydər Əliyeviç deyirdi ki, ölkə təkcə xammal ixracı hesabına yaşamamalıdır. SSRİ-nin sanballı iqtisadi inkişaf proqramının olmamasından təəssüflənirdi. Xruşşov vəzifəsindən çıxarılandan sonra SSRİ Nazirlər Sovetinin sədri olan Aleksey Kosıgin belə bir proqram təklif etmişdi. O, sosializmin tərəfdarı idi, İttifaqın dağılacağı heç ağlına belə gəlmirdi. Lakin sosializm quruluşunun islah olunmasının zəruriliyini qeyd edirdi (təxminən, indi Çində olduğu kimi). Kosıgin əsas istehsal vasitələrinin dövlət mülkiyyətində qalmasının tərəfdarı olsa da, özəl sahibkar-

lığa azacıq yer verilməsini mümkün hesab edir və mərkəzdən verilən tapşırıqların sayının azaldılmasına çağırırdı.

Kosıginin proqramına yalnız 1966-cı il ərzində əməl olundu. Sonra Brejnev və Suslov bu proqramda sosializmin əsas mövqelərindən uzaqlaşma görərək, onu dayandırdılar.»

...«Admiral Naximov» teploxodunda axtarış işləri 50 metr dərinlikdə işləyən 10 dalğıcın ikincisi həlak olana qədər davam etdirildi. Səbəb elə həminki idi: gəminin qırıntıları oksigen şlanqını kəsmişdi. Bu faciəni ürəyinə salan Heydər Əliyev sınıxmış vəziyyətdə Moskvaya yola düşdü. O, öz səlahiyyətlərini mənə verərək dedi: «İnsanların dərdini mümkün qədər azaltmaq üçün əlinizdən gələni edin!»

Komissiyada vəzifəcə böyük şəxs kimi, həlak olanların qohum-qardaşlarına məlumat verməli oldum: «Başa düşürük ki, siz əzizlərinizi xristian adəti ilə dəfn etmək istəyirsiniz. Lakin biz cansız cəsədləri sudan çıxarmaq üçün öz həyatlarını qurban verən yüksək ixtisaslı mütəxəssislərimizi itiririk... Həkimlərin rəyinə və təhlükəsizlik texnikasının tələblərinə istinad edərək, axtarışları dayandırırıq».

### *65 nəfəri, o cümlədən Ukraynadan olan 40 nəfəri tapmaq mümkün olmadı...*

Şəxsi keyfiyyətləri və vətəndaş mövqeyi sayəsində Heydər Əliyevə istər sovet Azərbaycanında, istərsə də ölkə müstəqillik əldə etdikdən sonra ehtiyac var idi. Dəqiq bilirəm ki, o, MK-da işləyərkən axşam saat 10-dan tez evə getmirdi. Respublika MK-nın birinci katibi işlədiyi illərdə o, demək olar ki, bütün kəndlərdə və zavod kollektivlərində olmuşdur. Milli incəsənəti qiymətləndirir, Azərbaycan opera teatrının bütün ilk tamaşalarında olurdu. Müslüm Maqomayevə həyat vəsiqəsi vermişdir. Azərbaycan dilinin mükəmməl surətdə tədris olunmasında təkid edirdi. Bununla da, sözsüz ki, xalqının məhəbbətini qazanmışdır.

1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hərc-mərclikdən sonra 70 yaşlı Heydər Əliyevə yenidən ehtiyac yarandı. Partiya rəhbəri kimi yox, hamı tərəfindən qəbul edilmiş milli lider kimi.

***İRİNA LİSNİÇENKO,***
*«Fakti i kommentarii» qəzeti,*
*13 may 2003-cü il*



## HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DEMƏKDİR

Mən Heydər Əliyevi yaxından tanıyana qədər, nə gizlədim, ona münasibətim keçmiş SSRİ-nin digər rəhbərlərindən fərqlənmirdi. Buna da səbəb vəziyyəti obyektiv işıqlandırmayan, Heydər Əliyev kimi şəxsiyyətə obyektiv yanaşmayan informasiya vasitələri idi. Kiminsə haqqında nahaqdan mənfi təsəvvür yaradılması adama ağır gəlir. Rusiyada KİV-lər Azərbaycan barəsində, xüsusən də Heydər Əliyev barəsində vaxtilə istər-istəməz qeyri-obyektiv rəy yaradırdılar.

Lakin onunla tanış olduğum və portretini çəkməyə başladığım andan hər şey dəyişdi. Bu insanla görüşümün elə ilk anları mənim üçün gözlənilməz oldu. Mən elə ilk andan dərk etdim ki, Heydər Əliyev gözəl, alicənab və çox ağıllı bir insandır. Gördüm ki, qarşımda olduqca valehedici, son dərəcə ziyalı və müdrik bir insan dayanıb. Ünsiyyət zamanı onun səmimi və sadə bir insan olduğunu anladım, onun səndən yüksəkdə durduğu hiss olunmur. Başa düşürsən ki, qarşındakı nəhəng bir şəxsiyyətdir, amma bu, səni kiçiltmir və söhbət öz adi məcrasında, səmimilik, mehribanlıq şəraitində gedir. Mən ona dərin rəğbət bəsləyirəm və həmişə ona baxarkən düşünürəm ki, görəsən, Tanrı belə insanları necə yaradır? Lakin Naxçıvana, prezidentin vətəninə getdikdən, oranın füsunkar təbiətini, gözəlliyini gördükdən sonra bunların necə bir qüvvə olduğunu başa düşdüm, başa düşdüm ki, Naxçıvan hər bir sərkərdənin, hər bir dahi insanın güc, qüvvət ala biləcəyi bir yerdir.

Bu dahi insan, güclü, böyük siyasətçi nəinki öz ölkəsinin görkəmli xadimidir, həm də tarixi şəxsiyyətdir. Hesab edirəm ki, onun haqqında insafsızcasına az danışırlar. Mən istər Qərb, istərsə də MDB ölkələrinin bir çox prezidentləri ilə görüşmüşəm, amma heç vaxt belə müdrik siyasətçiyə rast gəlməmişəm, onlardan heç biri mənə belə güclü təsir bağışlamayıb. Heydər Əliyev onunla, hətta bircə dəfə görüşənlərdə də olduqca dərin, insanın bütün ömrü boyu unutmadığı təəssürat doğurur.

Mən bütün Azərbaycan xalqını prezidentin yubileyi münasibətilə təbrik etmək istəyirəm. Bu, dünya miqyasında qeyd edilməyə layiq bayramdır, çünki Heydər Əliyev gözəl, parlaq və qeyri-adi bir insandır. Bu, bütün xalqın bayramıdır. Hamı Leninin, Napoleonun və başqalarının doğum günlərini həmişə qeyd edir. Məncə, Heydər Əliyevin yubileyini Bakıda da, Naxçıvanda da, Moskvada da yüksək səviyyədə keçirmək lazımdır. Bu insan tarixdir. Mən demişdim ki, belə insan 100 ildə bir dəfə dünyaya gəlir, amma sonra gördüm ki, səhv edirəm, belə insan min ildə bir dəfə doğulur. Belə insanlar dünyanın lal-cəvahiridir, onları qorumaq, hifz etmək gərəkdir, çünki onlar bütün varlığını, həyatını əmin-amanlığın, səadətin bərqərar olmasına həsr edir, özlərini isə düşünmür, qorumurlar.

Heydər Əliyevlə tanış olmaq mənim üçün böyük şərəfdir. Onun portretini çəkmək barədə sifarişi yerinə yetirdikdən sonra mən çox portretlər yaratmışam. Elə bu yaxınlarda Corc Buşun portretini çəkdim. Ümumiyyətlə, mən dünyanın məşhur adamlarının bir çoxu ilə tanışam. Amma onlardan heç biri üçün qəlbimdə daha layiqli və daha məhrəm yer saxlamamışam. Mənim öz prezidentim var və ona dərin hörmət bəsləyirəm, bununla belə, qəlbimdə Heydər Əliyevin xüsusi yeri var. Onunla bütün söhbətlər yaddaqalandır və bu söhbətləri araşdırdıqda onların nə qədər dəqiq, aydın, lakonik və dərin olduğunu başa düşürsən. Hesab edirəm ki, həyatda mənim bəxtim yaman gətirmişdir... Güclü siyasi sima olaraq Heydər Əliyevin qüdrətini həm onun qədir-qiymətini bilən, onunla fəxr edən insanlar, həm də düşmənləri, bədxahları etiraf edirlər.

Ümumiyyətlə, mənim üçün yeni dünya, yeni ülvi duyğular açdığına, yeni yaradıcılıq ilhamı verdiyinə görə Azərbaycana minnətdaram. Heydər Əliyev Azərbaycan deməkdir. Heydər Əliyevlə Azərbaycan bir-birindən ayrılmazdır, canbir qəlbdir. Bilirəm ki, tezliklə Azərbaycanda növbəti prezident seçkiləri keçiriləcəkdir. Ürəkdən arzu edirəm ki, Azərbaycan xalqı yanılmasın, müdrik olsun və dünyada tanınmış liderə – öz ölkəsinə, onun problemlərinə dərindən bələd olan Heydər Əliyevə səs versin. Bu, Azərbaycan xalqının yeganə və doğru-düzgün seçimi olacaqdır, çünki Heydər Əliyevdən yaxşı namizəd yoxdur.

***NİKAS SAFRANOV,***
***rəssam, Rusiyanın məşhur incəsənət xadimi***



Fevral. 2002-ci il. "Jurnalistlərin dostu" mükafatının təqdimolunma mərasimində.




Yanvar. 2001-ci il. Strasburq. Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edilir.



İyul. 1997-ci il. ABŞ-dan qayıdarkən təyyarədə jurnalistlərlə söhbət.



Heydər Əliyev istənilən sualı cavablandırmağa həmişə hazırdır.



## SAHİL PARKINDA ÇAY SÜFRƏSİ

1992-ci ildə Bakıya növbəti dəfə gəldikdə çox təəccübləndim: məşhur Bakı bulvarında, lap keçmişdən burada ucaldılmış, üstündə saat və termometr olan məşhur qüllənin yaxınlığında çayxana gözümə dəymədi. Bu, mənə elə güclü təsir bağışladı ki, o vaxtdan bəri Azərbaycan tarixini pürrəngi çayın yoxa çıxması və yenidən peyda olması dövrlərinə bölməyə başladım. Yaxşı ki, artıq 1993-cü ildə sahil parkında çay içmək mümkün idi.

Azərbaycan tarixinin son on ili mənfi və müsbət xarakterli çox hadisələrlə səciyyələnir. Amma, hər necə olsa da, bu hadisələrin ümumi nəticəsi daxili problemlərin həll ediləcəyinə ümidlər bəsləməklə və xarici siyasətdə bəzi iddialarla birlikdə, sabit, sıx birləşmiş dövlət yaradılmasından ibarət oldu.

Sabitlik Heydər Əliyev hakimiyyətinin hələ başa çatmayan dövrünün əsas nailiyyətlərindən biri sayılır. Bunu hamı, o cümlədən onun opponentləri də etiraf edirlər. Doğrudur, onlar bunu da deyirlər ki, sabitliyə daha asan yetişmək olardı. Maraqlıdır ki, Heydər Əliyevin hətta tənqidçiləri də ona olan öz hörmətini gizlədə bilmirlər. Məsələn, «Monitor» müxalifət jurnalında ötən il dərc edilmiş məqalədə prezident Heydər Əliyevi məhz «patriarx» adlandırmışdılar. Nə demək olar, o, həqiqətən, patriarxdır.

Heydər Əliyev Azərbaycanın çətin bir dövründə hakimiyyətə gəlmiş və əslində, ölkəni vətəndaş müharibəsindən sovuşdurmuşdur. Sov.İKP MK Siyasi Bürosunun üzvü, sovet DTK-nın generalı olaraq o, milli lider rolunu məharətlə oynadı, daha doğrusu, ən qısa müddətdə lider ola bildi.

Heydər Əliyevin ikinci nailiyyəti Ermənistanla müharibənin dayandırılmasıdır. Belə fikir var ki, bu atəşkəs təslimçilik aktı, «Azərbaycan Xasavyurdu» idi. Onun nəticəsində ərazilər itirildi, milli mənlik müəyyən mənada təhqir edildi. Halbuki həmin vaxt ən başlıcası Azərbaycan iqtisadiyyatını sarsıdan halların – qan tökülməsinin və cəmiyyətdə sabitliyin pozulmasının qarşısını almaq idi. Kim bilir, hərbi əməliyyatlar davam etdirilsəydi, bu gün Azərbaycan necə olardı.

İndi ən ağrılı məsələ iqtisadiyyatdır. Bir də ki, o, postsovet məmləkətlərindən hansında çiçəklənir? Eyni iqtisadi problemlər mövcuddur – həyat səviyyəsi aşağıdır, işsizlik, korrupsiya hamısında var. O cümlədən, əlbəttə ki, iqtisadiyyatın xammal yönümlü olması. Digər tərəfdən, mütəxəssislərin fikrincə, hələlik Azərbaycanı «Hollandiya sindromu», yəni neft sektorunun tam üstünlük təşkil etməsi və onun iqtisadiyyatın digər bütün sahələrinə hakim kəsilməsi təhlükəsi gözləmir. Hərçənd, vəziyyət doğrudan da sadə deyil, xüsusən də xatırlasaq ki, 2002-ci ildə sənaye istehsalının artımı cəmi 3,5 *(3,6 – red.)* faiz olmuşdur.

Hər necə olsa da, neft maliyyə vəsaitinin başlıca mənbəyi olaraq qalır və 2010-cu ilə neft hasilatı 50 milyon ton təşkil edə bilər. Tikilməyə başlanmış Bakı–Ceyhan kəməri Azərbaycan neftinin ixracı problemini həll edəcəkdir. Əlbəttə, nağıl dili yüyürək olar... Ceyhan xəttinin optimallaşdırılması üçün azərbaycanlılar hələ çox səy göstərməlidirlər. Buna baxmayaraq, Bakıda bu barədə inamlı nikbinliklə mühakimə yürüdürlər.

Neftin hasilatı və nəqli məsələləri xarici siyasətdən ayrılmazdır. Bu baxımdan etiraf etmək lazımdır ki, kiçik, inadcıl Azərbaycan təkcə Qafqazda deyil, həm də dünyada öz yerini tapa bilmişdir. 1993-cü ildə belə bir fikir vardı ki, Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Rusiya ilə üz-üzə duracaqdır. Əslinə qalsa, burada təəccüblü bir şey yox idi, ona görə də çoxları güman edirdi ki, yeni Azərbaycan lideri Moskvanın

Qeyri-adi bir «rekord» da var. Hər bir demokratik cəmiyyətdə iqtidarla müxalifət arasında hakimiyyət uğrunda gərgin mübarizə gedir. Və heç zaman bu mübarizədə bir tərəf digərinə güzəştə getmir, məqbul sayılan vasitələrdən (çox təəssüf ki, Azərbaycanda bəzən müxalifət qeyri-məqbul üsullardan, «qurşaqdan aşağı zərbə»lərdən də istifadə edir) istifadə yolu ilə iqtidara gəlməyə can atır. 1993-cü ilin iyun ayında isə dünyada analoqu olmayan bir hadisə baş verdi. «Doqquz dövlətin razılığı» ilə «tankın belində» hakimiyyətə gələn AXC-Müsavat cütlüyü qısa müddətdə xalqın etimad kreditini xərcləyib qurtardı, iqtisadiyyatı bərbad günə qoydu, ölkəni xaos və özbaşınalıq burulğanına saldı, vətəndaş müharibəsi və məhvolma həddinə çatdırdı, habelə dövləti idarə edə bilmədiyini və səriştəsizliyini etiraf etməli oldu. Odur ki, Bakıda yaşamasına imkan, Naxçıvanda isə dinclik vermədiyi zati-aliləri Heydər Əliyevin əl-ayağına düşərək dəfələrlə minnətçi və dalınca təyyarə göndərərək yenidən ölkə rəhbərliyinə qayıtması üçün ona yalvar-yaxar etdi. İndiyədək, bu iqtidar-müxalifət müharibəsində görünməmiş hal idi.

Son 30–40 ildə ən çox tikib-quran dövlət başçılarının yarışı keçirilsəydi, şübhəsiz, cənab Heydər Əliyev birinci yer tutardı. Həm Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövrdə, həm SSRİ-nin rəhbərlərindən biri olduğu vaxtlarda, həm də indi Heydər Əliyev qədər yeni obyektlərin bünövrəsini qoyub açılışını edən ölkə rəhbəri olmamışdır. Əgər onun kəsdiyi «qırmızı lent»ləri bir-birinin ucuna calasaydılar, bəlkə də bir neçə kilometr olardı. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan kəndi yenidən tikilib-qurulmuş, Azərbaycan kəndlisi palçıq komalardan ikimərtəbəli daş evlərə köçmüş, elektrik məişət cihazlarından istifadəyə başlamış, özünə minik avtomobilləri almış, mədəni səviyyəsini xeyli yüksəltmişdir. Hazırda respublikamızın elə bir guşəsi yoxdur ki, orada cənab Heydər Əliyev yaradıb-qurduğu abidə – yeni kənd və qəsəbə, su və istilik-elektrik stansiyaları, fabrik və zavod, məktəb və xəstəxana, iaşə və məişət xidməti obyektləri, yollar və körpülər, emal müəssisələri olmasın. Heydər Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə Bakıda tikilən «Respublika», «Gülüstan» sarayları, Əl Oyunları və Konsert-İdman Kompleksi, mikrorayon və yaşayış massivləri, təyyarə limanı və teleqüllə, metro stansiyaları, habelə görkəmli şair və yazıçı, sənət adamlarına ucaldılan abidələr paytaxtımızın tarixi və memarlıq inciləri sırasına daxil olmuşdur.

Ən çox yerli və beynəlxalq görüşlər keçirən, yığıncaq və toplantıda iştirak edən və danışıqlar aparan dövlət başçısı da Heydər Əliyevdir. Bu, insandan vaxt, dözüm və enerji ilə bərabər xüsusi diplomatik məharət də tələb edir.

Daha bir maraqlı rəqəm. Ən çox sənəd imzalayan dövlət rəhbəri də cənab Heydər Əliyevdir. İndiyədək onun imzaladığı sərəncam, fərman, qərar, qanun, müqavilə, saziş və s.-in sayı-hesabı yoxdur. Bunların içərisində tarixi əhəmiyyəti ilə seçilən Azərbaycanın yeni Konstitusiyasını, hüquqi dövlət quruculuğunu reallaşdıran qanun, məcəllə və konvensiyaları, «Əsrin müqaviləsi» adını almış və ölkəmizə 60 milyard dollar sərmayə qoyulmasına şərait yaradan sazişi və digər 20 neft kontraktını xüsusi qeyd etməliyik. Heydər Əliyev Xəzər neftini dünya üçün yenidən kəşf edən fatehdir. Məhz onun iradə və inadkarlığı, müdrik və uzaqgörən siyasəti, ardıcıl və qətiyyətli addımları sayəsində Xəzər dünyanın əsas enerji mərkəzlərindən birinə, Qafqaz isə sülh və əmin-amanlıq bölgəsinə çevrilmişdir.

Zati-aliləri Heydər Əliyev qədər nəhəng beynəlxalq layihələrin müəllifi və həyata keçirilməsi «səbəbkarı» olan lider də yoxdur. Məhz onun səyi və dönməzliyi hesabına «Əsrin müqaviləsi» imzalanmış, Bakı–Supsa ilkin neftin ixracı xətti çəkilmiş, Böyük İpək yolu bərpa edilmiş, Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft və Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri reallığa çevrilmişdir. Bugünkü və gələcək nəsillər haqlı olaraq Heydər Əliyevi həmin layihələrin əsl müəllifi sayır və onların verdiyi faydadan neçə-neçə illər bəhrələnəcəklər.



Tarix göstərir ki, hər dövlətin başçısının daha yaxşı bildiyi sahələr olmuşdur. Birisi hərb işinə, başqası diplomatiyaya, digəri isə tikib-qurmağa daha meylli olmuş və həmin işi yaxşı bacarmışdır. Heydər Əliyevin isə lap yaxşı bilmədiyi sahə və məsələ yoxdur. Qeyri-adi zəka və işgüzarlıq keyfiyyətlərinə malik olan cənab Heydər Əliyev təkcə cəmiyyətdə baş verən ictimai-siyasi prosesləri yox, elmin, istehsalın, incəsənətin, mədəniyyət və mənəviyyatın da bütün sahələrini dərindən öyrənmişdir. Cənab Heydər Əliyev ağır və yüngül sənayenin, maşınqayırmanın, kənd təsərrüfatının, elmin, sənətin, musiqi və rəssamlığın hər hansı bir sahəsi, janrı ilə bağlı söhbət aparanda hətta mütəxəssislər belə heyran qalır, onun məsələnin incəliklərinə və sahənin problemlərinə dərindən bələdliyinə valeh olduqlarını gizlətmirlər. Heç də təsadüfi deyil ki, cənab Heydər Əliyev SSRİ rəhbərliyində olarkən bir-birindən əsaslı şəkildə fərqli fəaliyyətlə məşğul olan 19 ittifaq nazirliyinin işinə nəzarət edərək istiqamət verirdi. Onun işlədiyi dövrdə həmin nazirliklərin fəaliyyətlərində ciddi dönüş, nizam-intizam yarandı, icranın keyfiyyəti və kəmiyyət göstəriciləri yüksəldi.

Biz prezidentimizin qeyri-adi yaddaş sahibi olması ilə də fəxr edirik. Cənab Heydər Əliyev oxuyub gördüklərini, həyatında baş verənləri uzun illər keçdikdən sonra da olduğu kimi xatırlayır, dəqiqliklə söyləyir. Heç bir kağız və qeydə baxmadan müxtəlif mövzularda saatlarla nitq söyləmək və çıxış etmək rekordu da zati-aliləri Heydər Əliyevə məxsusdur. Digər dövlət rəhbərlərindən fərqli olaraq cənab Heydər Əliyev yalnız prosedur qayda tələb edərkən əvvəlcədən hazırlanan mətnə baxır. Onun dərin yaddaşı və bəzən bir neçə saat çəkən konspektsiz və mətnsiz çıxışı dünyanın hər yerində siyasətçilər tərəfindən də dərin rəğbət və həsədlə qarşılanır.

Ekstremal, qeyri-standart vəziyyətlərdən çıxmaqda və sülh yaratmaq missiyasında da cənab Heydər Əliyev yüksəkdə dayanır. Neçə dəfə ona qarşı sui-qəsd təşkil edilmiş, təyyarəsini raketlə vurmaq istəmiş, keçəcəyi körpünü partlatmaq üçün hazırlıq aparmış, iki dəfə 1994-cü ilin oktyabr və 1995-ci ilin mart ayında dövlət çevrilişinə cəhd göstərilmişdir. Sui-qəsd əməlləri xoşbəxtlikdən baş tutmamış, dövlət çevrilişi cəhdlərinin qarşısı məharətlə və qısa müddətdə alınmış, bu zaman qeyri-adi üsuldan – silahsız xalqın dinc mitinq və dəstəyindən istifadə olunmuşdur. Daha bir nadir hadisə – kənar silahlı qüvvələrin müdaxiləsi olmadan Qarabağ uğrunda müharibədə atəşkəs də məhz cənab Heydər Əliyevin səyi nəticəsində yaradılmışdır.

Fəaliyyətin səmərəliliyi Heydər Əliyev fenomeninin ən bariz göstəricilərindəndir. O, Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövrdə çox qısa bir vaxtda ölkəni keçmiş SSRİ-nin qabaqcıl müttəfiq respublikaları sırasına çıxardı, xalqın arzu və tələbi ilə yenidən geriyə qayıtdıqdan sonra isə az müddətdə sabitlik yaratdı, neft müqavilələrinin imzalanmasına nail oldu, iqtisadi tənəzzül və inflyasiyanın qarşısını aldı, özəlləşmə aparıldı, torpaq islahatı keçirildi.

Səmərəli çalışmaqla bərabər cənab Heydər Əliyev yorulmaq bilmədən, gecə-gündüz çalışmağı da bacarır. O, uzun illər istirahət saatı və günü, məzuniyyət bilmədən işləyir. Bu mənada, həm də ən dözümlü və yorulmaz dövlət başçısı sayılır.

Heydər Əliyev «oturan» siyasətçi deyil. O, gəzməyi, baxmağı, səfərə çıxmağı sevir. Azərbaycan müstəqillik qazandıqdan, dünya dövlətləri ilə əlaqə və əməkdaşlıq yaranması zərurəti meydana çıxdıqdan sonra xarakterinin bu xüsusiyyəti daha çox gərəkli olmuşdur. Ölkəmiz ətrafında yaradılan informasiya blokadasının dağıdılmasında, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, Azərbaycan dias-

porunun formalaşdırılmasında, bütövlükdə ölkəmizin dünya birliyi tərəfindən tanınıb qəbul edilməsində belə səfərlərin müstəsna əhəmiyyəti olmuşdur. Cənab Heydər Əliyevin təkcə təyyarədə uçduğu saatları üst-üstə gəlsək, bəlkə də bir neçə il edər, kilometrləri cəmləsək, Yer kürəsinin başına yüz dəfələrlə dolanmaq olar.

Zati-aliləri Heydər Əliyev jurnalistlərlə görüş üzrə də dünya rekordu sahibidir. Rəhbər vəzifədə çalışdığı uzun illər ərzində azad sözə və fikrə isti münasibət bəsləyən cənab Heydər Əliyev mətbuata on cəsarətli müsahibələr vermiş, daim jurnalistlərlə görüşə can atmış, onlara xüsusi qayğı və diqqət göstərmişdir. Müntəzəm və ardıcıl şəkildə jurnalistlər üçün brifinq, mətbuat konfransı, görüşlər təşkil edən zati-aliləri Heydər Əliyev nəinki ona ünvanlanan bütün sualları cavablandırır, hətta bəzən qələm sahibləri üçün «jurnalistika dərsi» də keçir, onlarda sözə, müsahiblərinə hörmətlə yanaşmaq, milli və dövləti maraqlara xidmət etmək hissi tərbiyələndirir. İş vaxtında, istirahət saatlarında, hətta təyyarədə yol gedərkən belə jurnalistlərlə təmasda olan cənab Heydər Əliyev müstəqil milli mətbuatımızın formalaşmasında, mətbuat və söz azadlığının inkişafında xüsusi xidmət göstərmiş, senzuranın ləğvi, mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi yönümündə real tədbirlər görmüşdür. Kütləvi informasiya vasitələrinə dost, xoş və xeyirxah münasibətlərinə baxmayaraq, bir sıra qəzetlər tərəfindən haqsız hücum, iftira və böhtanlara da məruz qalmışdır. Nə qədər məyusedici olsa da, bu da bir rekorddur.

Yəqin ki, müəyyən uçot və hesablamalar aparılsaydı, biz daha çox qeyri-adi rekordların şahidi olardıq. Ancaq adi müşahidələrə əsaslanaraq söz açılan qeyri-adi rekordlar da zati-aliləri Heydər Əliyevin fenomenal şəxsiyyət, qeyri-adi zəka və enerji sahibi olduğunu, böyük işgüzarlıq keyfiyyətinə və yaradıb-qurmaq, insanlarla ünsiyyətə girərək onlara arxa durmaq məharətinə malik olduğunu sübut edir. Azərbaycanın tükənməz məhəbbətlə sevib, əziz və uca tutduğu ümummilli liderimiz Heydər Əliyevə dünyanın bütün xalqları, siyasi və dövlət xadimləri də hörmət və ehtiramla yanaşır.

***BƏXTİYAR SADIQOV***

Bədii və texniki redaktoru *Abdulla Ələkbərov*
Korrektorları *Zülfiyyə Rzayeva, Xatirə Sadıqova*

Çapa imzalanmış 18.12.2003. Kağız formatı $60x90^1/_8$. Ofset çapı.
Ofset kağızı. Fiziki çap vərəqi 18,5+4,5 yap. şək. Tirajı 600.
Sifariş 142. Qiyməti müqavilə ilə.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Təhsil» nəşriyyatı,
Bakı, 370073, Şəhriyar küçəsi, 6.

HEYDƏR ƏLİYEV DÜNYANIN GÖZÜ İLƏ
Bakı, «Təhsil», 2003

Ф4(2А)
Э64